Xalqın qəzeti!
# Xalq qəzeti
№ 67 (30471) 2 aprel 2024-cü il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

# Azərbaycan Avropanın mötəbər enerji təchizatçısıdır

## *Prezident İlham Əliyev Rumıniyanın energetika nazirini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rumıniyanın Energetika naziri Sebastiyan İoan Burdujanı qəbul edib.**

Görüşdə Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlıq əlaqələrinin olduğu məmnunluqla vurğulanaraq bütün istiqamətlər üzrə əməkdaşlığın genişləndiyi bildirildi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin fəal inkişaf mərhələsində olduğunu qeyd edərək, dövlət başçıları, eləcə də digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Bakıda keçirilən Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında iqtisadi-ticari əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclasının münasibətlərimizin perspektivlərinin müəyyənləşdirilməsi baxımından önəminə toxunaraq bu iclasın gündəliyində enerji ilə yanaşı, digər sahələrə aid məsələlərin də olduğunu məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanda enerji sektorunda, xüsusilə indiki dövrdə yaşıl enerji sahəsində böyük layihələrin reallaşdırıldığını deyərək, ötən ay Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarının önəmini vurğuladı.

Sebastiyan İoan Burduja İlham Əliyevə prezident seçkilərində qələbə və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Qonaq dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən işlərin, Bakının gözəlliyinin və inkişafının onlarda dərin təəssürat doğurduğunu dedi.

Azərbaycan Prezidenti təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı energetika sahəsində artıq xeyli irəliləyişin olduğu vurğulanaraq Azərbaycandan təbii qazın və Qara Dəniz vasitəsilə yaşıl enerjinin Rumıniyaya ixracı ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd olundu ki, LNG, yaşıl enerji və qaz təchizatı layihələri üzrə müzakirələr davam edir və Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndiyinə toxunuldu, ötən il ticarət dövriyyəsinin daha əvvəlki illə müqayisədə təqribən 30 faiz artaraq 670 milyon ABŞ dollarına çatdığı qeyd olundu, investisiya sahəsində də əməkdaşlığın möhkəmləndiyi bildirildi. SOCAR-ın Rumıniyada çox aktiv fəaliyyətinə toxunularaq onun bu ölkənin yanacaq bazarında kifayət qədər əhəmiyyətli yer tutduğu diqqətə çatdırıldı.

Söhbət zamanı kənd təsərrüfatı, səhiyyə və təhsil sahələrində də əməkdaşlığın genişlənməsi məmnunluqla vurğulandı.

***AZƏRTAC***

# Ermənistan şərti sərhəddə dayaq məntəqələri qurur

Səhifə ⇨ 6

# Təzadlı İrəvan və Paşinyanın vurnuxmaları

## Bu ölkənin və havadarlarının son sığınacağı haqqında elegiya əvəzi



**Əslində, tam ziddiyyətli bir durum yaranıb. Ermənistan hakimiyyətinin təmsilçiləri istər yerli, istərsə də xarici auditoriya qarşısında çıxış edərkən, habelə müsahibə və açıqlamalarında bildirirlər ki, hazırda yeritdikləri xətt ölkə siyasətinin diversifikasiyasıdır, asılılığın aradan qaldırılması cəhdidir və sair. Burada hələ təhlükəsizlik məsələləri də ön plana çəkilir. Təxminən belə: Ermənistan üçün yeni təhlükəsizlik alətləri lazımdır, indiyədək mövcud olanlar özünü doğrultmur, qlobal çağırışlara cavab vermir...**

Məlumdur ki, belə deyimlərin hamısı Ermənistanı Rusiyanın təsirindən uzaqlaşdırmağa hesablanıb. Daha doğrusu, mövcud ritorika məqsədə çatmaq üçün bəhanədir. Ancaq rəsmi İrəvan bununla kifayətlənmir, əmələ keçir və Qərbin anti-Rusiya cəbhəsində yer alır. Nəinki yer alır, hətta özünü bu cəbhənin ən sadiq əsgəri kimi aparır. Görünən budur ki, baş nazir Nikol Paşinyan və komandası Ermənistanı Kremlə qarşı ayrıca mübarizə səngərinə çevirməkdə israrlıdır. Ancaq məsələ heç də bunda deyil.

**(ardı 4-cü səhifədə)**



# Qərb Ermənistanı illüziyalarda batırır

## İrəvan istənilən hərbi avantüraya görə layiqli cavabını alacaq

**Ermənistan rəhbərliyi ağıllanmır, özünü qeyri-adekvat aparır. Bir tərəfdən sülhdən dəm vurur, digər tərəfdən Azərbaycan ilə şərti sərhədə qoşun yığır. Azərbaycan Müdafiə Nazirliyinin Ermənistan silahlı qüvvələrinin sərhədə canlı qüvvə və zirehli texnika cəmləşdirməsi haqqında bəyanatı da təsdiqləyir ki, İrəvan yaxın tarixdən nəticə çıxarmaq istəmir, Qərbin xəyali dəstəyinə ümid edərək, regionda vəziyyəti gərginləşdirməyə can atır. Ancaq Ermənistan rəhbərliyi və onun havadarları anlamalıdırlar ki, Azərbaycan əvvəllər olduğu kimi, bu dəfə də istənilən hərbi təxribatın qarşısını qətiyyətlə alacaq!**

**(ardı 5-ci səhifədə)**

# İşğalçı elə bağırdı ki...

## *Ermənistanın hərəkətləri şərti sərhəddə yeni təxribata hazırlığından xəbər verir*

**Son günlər Azərbaycan və Ermənistan arasındakı şərti sərhəddə baş verənlər müxtəlif ehtimal və fərziyyələrə yol açır. Erməni media portallarında rəsmi İrəvanın sərhədə canlı qüvvə və hərbi texnikanı toplamasında məqsədin, guya, Azərbaycan tərəfdən mümkün təcavüzün qarşısını almaq olduğu barədə məlumatlar dolaşır. İki gün əvəl Ermənistan müdafiə nazirliyi qoşunlarının Arazdəyən istiqamətindən Kərki kəndi istiqamətində hərəkətini əks etdirən görüntülər barədə açıqlama yayıb.**

Nazirlik yayılan videogörüntülərin həqiqəti əks etdirmədiyini iddia edib. Ermənistan–Azərbaycan şərti sərhədində son əməliyyat vəziyyətinin "sabit" olduğunu açıqlayan qurum sərhədin mühafizəsi üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olmadığını da diqqətə çatdırıb: "Martın 30-da təlim prosesi çərçivəsində avtoyürüş keçirən işə götürülən sürücülərin fotoşəkilləri bir sıra teleqram kanallarında yayaraq bunu qoşunların hərəkəti kimi təqdim etməyə çalışırlar".

**(ardı 4-cü səhifədə)**

## Prezident İlham Əliyev 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.***

***AZƏRTAC paylaşılan fotonu təqdim edir.***

# Səlibçi missiya nədən məmnundur?

## Aİ-nin xüsusi nümayəndəsi şərti sərhəddə sabitlikdən, Fransa səfiri isə sülh Pasxasından dəm vurur



**Ermənistan Azərbaycanla şərti sərhədin müxtəlif istiqamətlərinə şəxsi heyət cəmləşdirir. Şəxsi heyətin aktiv yerdəyişməsinin həyata keçirilməsi peyk vasitəsilə çəkilən foto və videogörüntülərlə öz təsdiqini tapır. Eyni zamanda, İrəvan şərti sərhədə zirehli texnika, o cümlədən ağır artilleriya və digər atəş vasitələri yığır.**

Məsələyə Azərbaycan Müdafiə Nazirliyi də münasibətini açıqlayıb. Nazirlik martın 31-də yaydığı məlumatda qeyd edib ki, son zamanlar Ermənistan–Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Hayastan silahlı qüvvələrinin canlı qüvvəsi, zirehli texnikası, artilleriya qurğuları, habelə digər ağır atəş vasitələrinin cəmləşdirilməsi və qoşunların intensiv hərəkəti müşahidə olunur: "Son vaxtlar Ermənistanda Azərbaycanı müharibə ilə hədələyən revanşist qüvvələrin daha da fəallaşması, ölkəmizə qarşı aqressiv ritorikanın yüksək həddə çatması və təxribat cəhdlərinə hazırlıq məqsədilə informasiya məkanında vəziyyətin gərginləşməsinə xidmət edən təhrikçi məlumatların sayının artması özünü büruzə verir. Xəbərdarlıq edirik ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı hər hansı hərbi təxribat cəhdi olarsa, onun qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaqdır. Bir daha bəyan edirik ki, vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyət tamamilə Ermənistan və onun havadarlarının üzərinə düşəcəkdir".

***(ardı 3-cü səhifədə)***

# Avropanın "sağa dönüşü" qaçılmazdır



**Dünya tarixinə seçkilər ili kimi düşəcək 2024-cü ildə Avropa Parlamentinə (AP) seçkilər də diqqət mərkəzində olan siyasi kampaniyalar sırasındadır. Bu seçkilərin nəticələrindən asılı olaraq AP-də güc balansının necə dəyişə biləcəyi ətrafında artıq neçə vaxtdır ki, mülahizələr irəli sürülür. Bu qurumda güc balansının dəyişməsi isə təkcə "Köhnə qitə"də deyil, bütün planetdə beynəlxalq siyasətin yeni çalar alacağına səbəb olacaq. Bir çox beynəlxalq təşkilatların keçirdiyi sorğulara əsaslanan siyasi şərhçilər bu seçkilərin, bütövlükdə, Avropanı sağa meyilləndirə biləcəyini ehtimal edirlər.**

Avropa Parlamentinə növbəti seçkilər 2024-cü il iyunun 6-dan 9-dək keçiriləcək. Bu, "Brexit"dən sonra ilk seçkilər olacaq. Adətən Aİ-nin 27 ölkəsinin sakinləri 5 il müddətində fəaliyyət göstərəcək 720 deputatı seçəcəklər. Məlum olduğu kimi, Britaniya Aİ-ni tərk etdikdən sonra AP-nin sayı 705 yerə endirilib, lakin 2023-cü ilin sentyabrında Aİ səlahiyyətliləri demoqrafik dəyişiklikləri nəzərə alaraq, 11 ölkə arasında bölüşdürülən daha 15 yer əlavə etmək qərarına gəliblər.

***(ardı 11-ci səhifədə)***

## Azərbaycan Respublikası Prezidentinin "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2022-ci il 22 iyul tarixli 3381 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2022-ci il 22 iyul tarixli 3382 nömrəli, "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2022-ci il 21 oktyabr tarixli 3548 nömrəli, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli və "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2023-cü il 26 may tarixli 3908 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3381 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 793 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

1.2. 1-ci hissədə "Qarabağ İqtisadi Rayonunda" sözləri və "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla)" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin.

**2** "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3382 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 794 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin və həmin hissədən "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan" sözləri çıxarılsın.

**3** "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 3548 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1197 (Cild I) 1-ci hissəsində "Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda" sözləri "Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin" sözləri ilə əvəz edilsin.

**4** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1297) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsində "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin.

**5** "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 3908 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 706 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin;

5.2. birinci hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin və həmin hissədən "Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan" sözləri çıxarılsın.

**6** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 30 iyul tarixli 1119 nömrəli, "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" 2021-ci il 22 iyun tarixli 1375 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1756 nömrəli, "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1757 nömrəli, "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2023-cü il 26 may tarixli 2151 nömrəli və "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 45-ci hissədə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

1.2. 46-cı hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

1.3. 47-ci hissədə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nin 4.7.4-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.7.4. İdarənin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən İdarənin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;".

**3** "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1756 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 745 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında, 1-ci və 2-ci hissələrdə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

3.2. 3.1-ci bənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə, "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına" sözləri "adları çəkilən rayonlara" sözləri ilə əvəz edilsin;

3.3. həmin Fərmanla təsdiq edilmiş "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" üzrə:

3.3.1. adında "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

3.3.2. 1.1-ci bənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə, "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına" sözləri "adları çəkilən rayonlara" sözləri ilə əvəz edilsin;

3.3.3. 4.7.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.7.4. Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;".

**4** "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1757 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 746 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında, 1-ci və 2-ci hissələrdə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

4.2. 3.1-ci bənddə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə, "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərə (Şuşa rayonu istisna olmaqla)" sözləri "adları çəkilən rayonlara" sözləri ilə əvəz edilsin;

4.3. həmin Fərmanla təsdiq edilmiş "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" üzrə:

4.3.1. adında "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

4.3.2. 1.1-ci bənddə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə, "Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərə (Şuşa rayonu istisna olmaqla)" sözləri "adları çəkilən rayonlara" sözləri ilə əvəz edilsin;

4.3.3. 4.7.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.7.4. Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;".

**5** "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 655 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında, 1-ci, 2-ci hissələrdə və 3.1-ci bənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" üzrə:

5.2.1. adında və 1.1-ci bənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin;

5.2.2. 4.7.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.7.4. Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;".

**6** "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1685 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.11.7.25-ci yarımbənddə "Qarabağ İqtisadi Rayonunda" sözləri "Ağdam, Füzuli və Xocavənd rayonlarında" sözləri ilə əvəz edilsin;

6.2. 1.11.7.26-cı yarımbənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı" sözləri "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında" sözləri ilə əvəz edilsin;

6.3. 1.11.7.27-ci yarımbənddə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı" sözləri "Laçın rayonunda" sözləri ilə əvəz edilsin.

**7** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 aprel 2024-cü il**

## Birinci vitse-prezident Mehriban Əliyeva 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.**




Paylaşımda deyilir:

"Soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

## "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Elçin Yusubov – Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

**Müşahidə Şurasının üzvləri:**

Elnur Əliyev – Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini

Sarvan Cəfərov – Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Anar Kərimov – Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Namiq Hümmətov – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 aprel 2024-cü il**

## Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Aydın Zöhrab oğlu Kərimov Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilsin.

**2** "Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 yanvar tarixli 2460 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 76 (Cild I) ləğv edilsin.

**3** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 aprel 2024-cü il**

## "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs yaradılsın.

**2** "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3** Müəyyən edilsin ki:

3.1. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra – Xidmət) adları çəkilən şəhərə və rayonlara əhalinin qayıdışı ilə əlaqədar mövcud mənzil fondunun qorunması və saxlanılması, yeni çoxmənzilli bina və fərdi yaşayış evlərinin tikintisinin təşkili, habelə onların idarə edilməsi, eləcə də müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.3. Xidmətin fəaliyyətinə cari rəhbərliyi Xidmətin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

3.4. Xidmətin nizamnamə fondu 500 000 (beş yüz min) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

3.5. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

**4** Xidmətin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. idarəetmə orqanlarının yaradılması;

4.1.3. Müşahidə Şurası sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Xidmətin yenidən təşkili və ləğvi;

4.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2. Xidmətə:

4.2.1. Xidmətin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

4.2.2. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**5** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Xidmət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Xidmətin nəqliyyat vasitələri ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. bu Fərmanın 3.4-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

6.2. Xidmətin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

**7** Xidmət:

7.1. Xidmətin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

7.2. Xidmət dövlət qeydiyyatına alındıqdan sonra Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 aprel 2024-cü il**

# Prezident İlham Əliyev: Yeni dövrün yeni hədəfləri olmalıdır

**“Təbii ki, yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi və indi bəzi ölkələr var ki, öz tarixi keçmişini, tarixi uğurları illər boyunca, onilliklər ərzində istismar edirlər. Halbuki onların özlərinin o zəfərlərə heç bir aidiyyəti yoxdur. Yəni, biz o ölkələrdən olmaq istəmirik. Biz nə etmişiksə etmişik, xalq da bunu qiymətləndirir və qiymətləndirəcək. Ancaq bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz. Çünki birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır.**




Birincisi, biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir”.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf – məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 133-cü kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində söyləyib. Üç saata yaxın davam edən müsahibədə Prezident İlham Əliyev jurnalistlərin 20-dək istiqamət üzrə suallarını cavablandırıb. Müsahibənin tam mətni ilə çoxcildliyin yeni kitabında tanış olmaq mümkündür.

Kitabda toplanmış materiallar 2023-cü ilin dekabrından 2024-cü ilin fevralınadək olan dövrü əhatə edir.

Yeni nəşrdə Prezident İlham Əliyevin Azərbaycan Respublikasının növbədənkənar prezident seçkilərində Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səsvermədə iştirakına və inamlı qələbəsinə dair materiallar, müstəqilliyimiz dövründə ilk dəfə Azərbaycanın bütün ərazisində keçirilmiş prezident seçkilərində qazandığı qələbə münasibətilə göndərilmiş təbrik məktubları verilib. Bu təbriklər sırasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandanın, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Rusiya Prezidenti Vladimir Putinin, Çin Xalq Respublikasının Sədri Si Cinpinin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, Serbiya Prezidenti Aleksandar Vuçiçin, İran Prezidenti Seyid İbrahim Rəisinin, Belarus Prezidenti Aleksandr Lukaşenkonun, Tacikistan Prezidenti Emoməli Rəhmonun və digər dövlət başçılarının məktubları yer alıb.

Prezident İlham Əliyev yanvar ayında Lənkəranda və Neftçalada səfərlərdə olub. Səfər zamanı dövlətimizin başçısı “Lenk Fruit” MMC-nin Lənkəran rayonunun Separadi kəndində yeni salınmış sitrus bağında yaradılan şəraitlə tanış olub. Həmçinin Lənkəran regional “ASAN xidmət” Mərkəzinin açılış mərasimində iştirak edib, Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılmış şəraitlə, “Laran” MMC-nin qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub və Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib. Prezident Neftçalada içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak edib. Bütün bunlara dair materiallar 133-cü kitabda yer alıb.

Kitabda Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanla, Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə, Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqla, Azərbaycan–Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərliyi ilə Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyəti və digər yüksək səviyyəli qonaqlarla görüşləri haqqında informasiyalar verilib.

Yeni kitaba Prezidentin Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində silahlanmaya yeni qəbul edilmiş “Akıncı” hücum PUA-larının uçuşlarını izləmə mərasimində iştirakına aid material da daxil edilib.

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətinin mətni də bu nəşrdə yer alıb.

“Azərnəşr” tərəfindən buraxılan 133-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycan – Çin münasibətləri strateji tərəfdaşlıq müstəvisində

**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qo Min ilə görüşüb. Səfiri salamlayan S.Qafarova deyib ki, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında münasibətlər yüksək inkişaf dinamikasına malikdir. Bu münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır və hər iki xalqın mənafelərinə cavab verir.**



Spiker Azərbaycan və Çin dövlət başçıları arasında qarşılıqlı etimada əsaslanan yüksək səviyyəli siyasi dialoqun ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafı üçün möhkəm zəmin yaratdığını bildirib. O cümlədən, dövlət başçılarının təmasları iki ölkə arasında bütün sahələrdə əlaqələrin dərinləşməsində və inkişafında mühüm rol oynayır. Bu kontekstdə Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına 5 səfəri qeyd edilib.

Heydər Əliyev Fondu iki ölkə arasında mədəni və humanitar mübadilənin genişlənməsinə böyük töhfə verir. Çinin Xarici Ölkələrlə Dostluq Xalq Cəmiyyəti ilə birgə müxtəlif layihələr uğurla həyata keçirilir. Ölkələrimiz üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdə daim qarşılıqlı dəstək nümayiş etdirilir. Azərbaycan birmənalı olaraq “vahid Çin” siyasətini, onun ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib. Çin də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hər zaman dəstək verib. O cümlədən, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində də bir-birinə qarşılıqlı dəstək göstərir.

Qeyd olunub ki, Azərbaycan və Çin arasında parlamentlərarası əməkdaşlıq da yüksək səviyyədədir. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir.

Səfir Qo Min Azərbaycanda fəaliyyət göstərməkdən məmnunluğunu bildirərək, qeyd edib ki, iki ölkə arasında münasibətlər dinamik və sabit inkişaf edir. Diplomat əlaqələrin inkişafında dövlət başçıları arasında münasibətlərin vacib rolunu vurğulayıb. O deyib ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin növbədənkənar prezident seçkilərində əldə etdiyi qələbə münasibətilə Prezident İlham Əliyevə təbrik məktubu göndərib. Diplomat, həmçinin COP29-un ölkəmizdə keçirilməsi münasibətilə də təbriklərini çatdırıb. Səfir parlamentlərarası əlaqələrin ölkələr arasında münasibətlərin inkişafında mühüm rolu qeyd edərək, Çin üçün əsas məsələlərdə göstərilən dəstəyə görə Azərbaycan parlamentinə təşəkkür edib.

Qeyd edilib ki, Qədim İpək Yolu xalqları birləşdirir. Bu gün də ölkələrimiz arasında bu istiqamətdə əməkdaşlıq əlaqələri mövcuddur. Azərbaycan Çin Xalq Respublikası Sədrinin irəli sürdüyü “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyən ilk ölkələrdəndir. Bu istiqamətdə mühüm layihələr həyata keçirilmiş, Azərbaycanın nəqliyyat imkanları xeyli artmış və iri iqtisadi layihələrin həyata keçirilməsi üçün yeni imkanlar yaradılmışdır.

Görüşdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən nəhəng bərpa və yenidənqurma işləri, o cümlədən, “ağıllı şəhər”, “ağıllı kənd”, “yaşıl enerji” layihələri barədə də məlumat verilib. Səfir həmin ərazilərdə olduğunu və görülən işləri öz gözləri ilə gördüyünü bildirib.

***Ə.BƏDƏLOV***
***XQ***

# Quba Soyqırımı Memorial Kompleksində anım mərasimi

**Martın 31-i səhər saatlarından başlayaraq azərbaycanlıların soyqırımının 106-ci ildönümü ilə əlaqədar Quba Soyqırımı Memorial Kompleksini kütləvi şəkildə ziyarət edilib.**

Ziyarətçilər arasında hökumət və dövlət nümayəndələri, idarə və müəssisələrin kollektivləri, siyasi və ictimai təşkilatların üzvləri, respublikamızın bölgələrindən olan şagird və tələbələr, sıravi vətəndaşlar, eləcə də xarici vətəndaşlar var. Ziyarətçilər soyqırımı qurbanlarının xatirəsini anmaqla yanaşı, tarixi faktlarla daha yaxından tanış olurlar.

Hazırda Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşları gücləndirilmiş iş rejimində çalışır. Ziyarətçilərə kompleksin bələdçiləri tərəfindən 4 dildə (Azərbaycan, ingilis, rus və ərəb) soyqırımı haqqında informasiyalar verilir. Kompleks fəaliyyətə başladığı 2013-cü ildən indiyə kimi ümumilikdə milyondan çox ziyarətçi qəbul edib.

***XQ***

# Səlibçi missiya nədən məmnundur?





**(əvvəli 1-ci səhifədə)**

Öz növbəsində Ermənistanın müdafiə nazirliyi açıqlama yayaraq, Azərbaycan tərəfinin yaydığı məlumatı təkzib edib. Bildirilib ki, bu məlumat həqiqətə uyğun deyil. Hətta, sübutlarla öz təsdiqini tapmış məlumatlar dezinformasiya adlandırılıb.

Avropa İttifaqının Ermənistandakı Missiyası (EUMA) da bununla bağlı bəyanat verib. Bəyanatda şərti sərhəddə “hər hansı qeyri-adi hərəkətlənmənin” müşahidə olunmadığı vurğulanıb. “EUMA bütün günü Ermənistan–Azərbaycan sərhədində patrul həyata keçirib, sakitlik idi, heç bir qeyri-adi hərəkətlər müşahidə olunmayıb. EUMA hər kəsə dinc Pasxa bayramı arzulayır!” – deyə missiyanın bəyanatında bildirilib.

Məsələyə Fransanın Ermənistandakı səfiri Olivye Dekotininin münasibəti də maraqlıdır. Səfirin “X” mikrobloqunda Aİ missiyasının Azərbaycanla şərti sərhəddəki vəziyyətə dair bəyanatında deyilir: “İlin bütün günlərində olduğu kimi, bu Pasxa bayramında da Aİ-nin Ermənistandakı missiyasının müşahidəçiləri Azərbaycanla sərhəddə patrul həyata keçirirlər”. Fransız diplomat daha sonra missiyanı tərifləyib. Deyib ki, bu patrullar sabitliyi təmin edir və beynəlxalq ictimaiyyətə qərəzsiz məlumatların çatdırılmasına töhfə verirlər.

Daha bir reaksiya Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaardan gəlib. O da “X” platformasındakı hesabında Aİ missiyasının Ermənistan–Azərbaycan şərti sərhədində “qeyri-adi hərəkətlənmənin müşahidə olunmadığını” bildirən qeydinə cavab verib. Qeyd edib ki, Aİ-nin Ermənistandakı missiyasından hərbçilərin qeyri-adi hərəkətlərinin müşahidə olunmadığına dair təsdiqləyici məlumat almaq çox xoşdur: “Missiyanın məqsədi də budur: daha çox şəffaflığı təmin etmək və inam yaratmaq. Biz Azərbaycan hökuməti ilə daha fəal qarşılıqlı fəaliyyətə açığıq”.

Göründüyü kimi, Aİ missiyası, Fransanın Ermənistandakı səfiri və qurumun Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Hayastan müdafiə nazirliyi ilə eyni fikirdə olduqlarını nümayiş etdiriblər. Onlar peykdən çəkilmiş foto və videogörüntüləri faktiki olaraq, inkar etmək yolunu tutublar. Maraqlıdır, bəs elə isə erməni hərbçilərin hərəkətlənməsində məqsəd nədir? Ağır texnika nə üçün şərti sərhədə daşınır? Bu suallar açıq qalır və qarşı tərəf onlara münasibət bildirməkdə maraqlı görünmür. Əlbəttə, sərhəddə hər hansı insidentin olmaması Azərbaycanın da marağındadır. Ölkəmiz həm sərhəddə, həm də, bütövlükdə, Cənubi Qafqazda sülhün və əmin-amanlığın təmin olunmasının tərəfdarıdır. Ancaq belə bir məşhur deyim var: “Sülh istəyirsənsə, müharibəyə hazır olmalısan”.

Bu arada baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi “Mülki müqavilə” partiyasının üzvü, parlamentin regional məsələlər və Avrasiya inteqrasiyası məsələləri üzrə daimi komissiyasının sədr müavini Vaqarşak Akopyan maraqlı açıqlama ilə çıxış edib: “Hazırda ciddi danışıqlar prosesi gedir, biz onu sülh prosesi çərçivəsində hər cür şəkildə təşviq etməyə çalışırıq, lakin onlar bizi təxribata çəkmək istəyirlər. Bizi içəridən, xaricdən, yandan təhrik etməyə, danışıqlar prosesindən çıxarmağa çalışırlar”.

Akopyan həmvətənlərini vəziyyəti ayıq-sayıq qiymətləndirməyə və emosiyalara təslim olmamağa çağırıb.

Baş verənlər fonunda bir qrup amerikalı hərbi təlimatçının ABŞ–Ermənistanın hərbi əməkdaşlığı çərçivəsində aprelin 1-də İrəvana səfər etməsi də diqqəti cəlb edir. Bu barədə Ermənistan müdafiə nazirliyinə istinadən Rusiyanın “Kommersant” qəzeti məlumat yayıb. Məlumata görə, hərbi təlimatçılar aprelin 1-dən 5-dək Ermənistanda olacaqlar. Pentaqon mütəxəssislərinin Ermənistan müdafiə nazirliyinin əməkdaşlarına təlim keçəcəyi məlum olub. Hayastan silahlı qüvvələrinin baş qərargah rəisi Edvard Asryan deyib ki, nazirliklə Pentaqon arasındakı razılaşmaya əsasən, təlimlərə ilkin olaraq informasiya və ictimaiyyətlə əlaqələr departamentinin və onun tərkibində fəaliyyət göstərən “Zinuj Media” portalının əməkdaşları cəlb olunublar. Təlimlərin əsas mövzusu ictimaiyyətlə əlaqələr və kommunikasiya sahəsində təcrübə mübadiləsidir.

Şərti sərhəddə baş verən hərəkətlənməyə münasibət bildirən Ermənistanın hakim “Mülki müqavilə” partiyasından olan deputatı Qaqik Melkonyan “Nyus.am”a deyib: “Mənə elə gəlir ki, azərbaycanlılar hansısa zəmin hazırlayırlar, çünki Ermənistanın qoşun yeritmək planı yoxdur, biz sadəcə sərhəddə dayanmışıq. Azərbaycan aprelin 5-nə planlaşdırılan Paşinyan, Blinken və Ursula Fon der Lyayen arasında keçiriləcək üçtərəfli görüşdən narahatdırlar. Bilmirəm azərbaycanlılar və ruslar bundan niyə belə narahatdırlar? Rusiya daim bəyanatlar verir ki, Aİ proseslərə müdaxilə edəndə burada sabitlik pozulacaq. Azərbaycan isə Rusiya eyni cəbhədə hərəkət edirlər”.

Ancaq Aİ-nin, bütövlükdə, Qərbin Ermənistanla bağlı planlarını az-çox obyektiv şərh edənlər də tapılır. Politoloq Sergey Melkonyan onlardan biridir. Ermənistanı Rusiyadan qorumağa hazır olduğunu bəyan edən Böyük Britaniya müdafiə naziri müavininin bəyanatına münasibət bildirən Melkonyan deyib ki, Qərb Ermənistanı deyil, Ermənistan hakimiyyətini müdafiə etməyə hazırdır: “Qərb rəsmiləri “Ermənistanı müdafiə edəcəklərini” bəyan edəndə aydın başa düşmək lazımdır ki, söhbət Ermənistan dövlətindən yox, indiki hakimiyyətdən gedir. Bu bəyanat kontekstində kiçik, lakin heç də az vacib olmayan detalı qeyd etmək istərdim. Britaniyalı nazir müavininin bu bəyanatı ilə bağlı Ermənistan tərəfindən heç bir şərh verilmədi. Bu, o deməkdir ki, Ermənistan hakimiyyəti Rusiyadan təhdidlərin olması ilə bağlı iddialarla faktiki olaraq razılaşır. Digər tərəfdən, Ermənistan dövlətini ölkədəki hakim rejimdən fərqləndirmək vacibdir. Burada Nensi Pelosinin İrəvana səfəri zamanı ABŞ-ın Ermənistanda demokratiyanı müdafiə edəcəyini bildirdiyi bəyanatını xatırlatmaq istərdim. Bu, mövcud rejimi qorumaq demək idi. Rusiya Ermənistan üçün təhlükə yaratmır, lakin indiki rejim üçün təhlükə hesab olunur”.

O qeyd edib ki, Qərb Ermənistanda hakimiyyət dəyişikliyini “demokratiyanın qələbəsi” kimi tanıyıb və indiki rejimi yalnız bir səbəbdən demokratik hesab edir: Qərb 2018-ci ildə hakimiyyətə gələn siyasi komandanı dəstəkləyir. Politoloqun fikrincə, amma sabah eyni üsulla hakimiyyətə başqa komanda gəlsə, Qərb çox yaxşı bəyan edə bilər ki, hakimiyyətin ələ keçirilməsi olub, başqa sözlə, Qərb siyasi məqsədəuyğunluğa əsaslanaraq demokratiyanı müəyyən edir.

Qərbin konkret olaraq, indiki hakimiyyəti nə dərəcədə müdafiə edə biləcəyi məsələsini şərh edən Melkonyan güman edib ki, Qərb strukturlarının köməyi ilə Ermənistan ərazisində yarımhərbi birləşmələr yaradıla bilər və lazım gələrsə, onlar hakimiyyətə dəstək verəcəklər.

Bu açıqlamadan isə göründüyü kimi, Qərbin Ermənistanı müdafiə bəyanatları da səmimiyyətə söykənmir və daha çox Rusiyanı bölgədən sıxışdırıb çıxarmağa xidmət edir. Mövzu üzrə fikirlərini “XQ” ilə bölüşən **politoloq Yeganə Hacıyeva** bildirdi ki, Aİ missiyasının, Fransa səfirinin və Toivo Klaarın Ermənistan müdafiə nazirliyinin açıqlaması ilə üst-üstə düşən rəyinə təəccüblənmək lazım deyil. Onun sözlərinə görə, Aİ missiyasının əsas məqsədi Ermənistanı müdafiə etməkdən və öz təxribatlarını müxtəlif beynəlxalq mexanizmlərlə gizlətməkdən ibarətdir: “Əslində, EUMA-nı Aİ-nin Cənubi Qafqazda Ermənistanın təxribatlarını ört-basdır edən missiya adlandırmaq daha doğru olardı. Etiraf etmək lazımdır ki, onlar bu istiqamətdə işlərini görürlər. Ancaq Ermənistan müdafiə nazirliyinin və EUMA-nın nə deməyindən asılı olmayaraq, faktlar ortadadır. Faktlar isə bundan ibarətdir ki, şərti sərhəddə canlı qüvvənin və zirehli hərbi texnikanın yerdəyişməsi qeydə alınır. Bununla bağlı görüntülər mövcuddur. Avropalı himayədarlar isə deyirlər ki, siz öz gördüklərinizə deyil, bizim dediyimizə inanın. Qeyd etdiyim kimi, buna da təəccüblənmək lazım deyil. Çünki onların əsas missiyası budur”.

Y.Hacıyeva qeyd etdi ki, biz bundan öncə də Ermənistanın təxribatları zamanı Aİ missiyasının həmin təxribatları legitimləşdirməyə çalışdığının şahidi olmuşuq. Hazırda müşahidə etdiyimiz də onlardan biridir.

Sonda onu deməyi vacib bilirik ki, Aİ-nin missiyası, səfir O.Dekotini və T.Klaar Ermənistanı yeni təxribatlara sürüklədiklərini ya dərk etmirlər, ya da bilərəkdən buna gedirlər. İstənilən halda, şərti sərhəddə yaxın gələcəkdə baş verəcək insidentə görə məsuliyyət həm onların, həm də digər qərbli emissarların üzərinə düşəcək.

***Səxavət HƏMİD***
***XQ***

# Təzadlı İrəvan və Paşinyanın vurnuxmaları

(əvvəli 1-ci səhifədə)

Başlıca məqam Rusiyadan ayrılma tendensiyası fonunda diversifikasiyanın zəruriliyinin əsaslandırılmasında, yeni alətlər arqumentasiyanın irəli sürülməsindədir. Əlbəttə, obrazlı desək, Moskva göz yaşlarına inanmır. Yəni, Rusiya dövlətinin nümayəndələri erməni iqtidarının təmsilçilərinin danışdıqlarının nağıl olduğunu yaxşı anlayırlar. Onlar belə nağılların ssenarilərinin harada yazıldığını gözəl dərk edirlər. Yazının ilk cümləsində qeyd etdiyimiz təzada diqqət yetirək.

Bəli, təzad çox sadədir. Məlum olur ki, Ermənistan hakimiyyətinin ölkənin yönümünü Qərbə doğru çevirmək niyyətlərini əsaslandırarkən irəli sürdüyü arqumentlər heç xaricdə də ciddi qəbul edilmir. Yəni, Qərbin ayrı-ayrı təmsilçiləri bəyanatlarında açıq şəkildə bildirirlər ki, erməni iqtidarı onlara anti-Rusiya cəbhəsini genişləndirmək üçün lazımdır. Onlar, mövcud xüsusda, qətiyyən, rol oynamırlar. Ən pisi isə budur ki, dedikləri ilə Paşinyan administrasiyasının, belə demək mümkünsə, siyasi aktorluğunu heçə endirirlər. Bu isə o deməkdir ki, Qərb Nikola və komandasına hörmətsiz yanaşır.

Məsələn, Fransa Milli Assambleyasının Fransa–Ermənistan Dostluq Qrupunun sədri Ann-Lorens Petel bu yaxınlarda İrəvana səfəri zamanı “Armenpress” İnformasiya Agentliyinə müsahibəsində deyib ki, Rusiyanın Ermənistan üçün etibarlı müttəfiq olmadığı artıq hər kəsə məlumdur. Buna görə Fransa Ermənistanın əsas müdafiə tərəfdaşına çevrilib və bu, “təcavüzkar qonşusu” Azərbaycanla daha balanslı münasibət qurmağa imkan verir. Ən əsası isə hazırda çox incə diplomatik oyunun getdiyini vurğulayan fransız parlamentari bildirib ki, İrəvan Avropaya yaxınlaşmaq, Rusiyadan uzaqlaşmaq istəyini mütləq şəkildə nümayiş etdirir.

Sual olunur: Erməni iqtidarında təmsil olunan kimsə belə fikir işlədibmi? Əlbəttə ki, yox. Deməli, Petel də Paşinyanı və komandasını, bir növ, peşka yerinə qoyur. Bir daha aydın olur ki, Ermənistanın iqtidar təmsilçilərinin siyasi gediş anlamında nəyi dillərinə gətirmələrinin heç bir önəmi yoxdur. Onlar üçün biçilmiş olan “missiya” var. Söhbət Rusiyanı Cənubi Qafqazdan tamamilə sıxışdırıb çıxarmaqdan gedir.

Qərb dünyası hazırda var gücü ilə bölgədə ikinci Ukrayna ssenarisini gerçəkləşdirməyə girişib. Ermənistanın bu məqsəd naminə alətə çevrildiyi aşkardır, durum Rusiya üçün kifayət qədər aydındır. Maraqlı məqam isə budur ki, artıq rəsmi Moskva da Paşinyanın Qərbyönümlü siyasətini balanslaşdırılmış kurs kimi təqdim etmək niyyətlərinin mənasızlığını sübuta yetirməyə qol çırmayıb. Bunu Rusiyadan gələn açıqlamalar təsdiqləyir. Belə ki, son dövrlər Kremlin ayrı-ayrı təmsilçilərinin Rusiya–Ermənistan münasibətlərindəki gərginlikdən söz açarkən, Paşinyan iqtidarı əleyhinə indiyədək görünməmiş tərzdə açıq ritorikaya üstünlük verdikləri nəzərdən qaçmır. Mövcud anlamda Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun “İzvestiya” qəzetinə müsahibəsində bildirdiklərini yada salmaq kifayətdir. Lavrov rəsmi İrəvanın Kremllə vəziyyəti gərginləşdirmək üçün bəhanələr uydurduğunu vurğulayır.

“ABŞ rəsmiləri açıq şəkildə bəyan edirlər ki, ABŞ Ermənistanla münasibətlərə məhz Rusiya və İranla qarşıdurma kontekstində baxır”. Bu fikri isə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin “24 News” erməni mediasına müsahibəsində bildirib. Səfir konkret olaraq, S.Lavrovun Ermənistan rəhbərliyinin “yalan bəhanələrlə son üç ilin tarixini təhrif edərək, qəsdən Rusiya Federasiyası ilə münasibətlərin pozulmasına gətirib çıxaran” addımlar atmasına dair bəyanatını şərh edib.

XİN başçısının nələri dilə gətirdiyini çox yaxşı bildiyini vurğulayan S.Kopırkin deyib ki, S.Lavrovun fikirləri onun baş verənlər və Ermənistanın taleyi mövzusundakı narahatlığının təzahürüdür. Səfirin sözlərinə görə, Rusiya tərəfinə İrəvan–Moskva münasibətlərinin daha geniş qarşıdurma obyektinə çevrildiyi məlumdur və Birləşmiş Ştatlar bunu, ümumən, gizlətmir. “Bu, çox pisdir, çox təhlükəlidir. Bu, həqiqətən də, bizim münasibətlərimizə real xələl gətirə biləcək bir şeydir”, – deyən Kopırkinin sözlərinə görə, Ermənistan hakimiyyətində Rusiya ilə münasibətləri müdafiə üçün, kifayət qədər, siyasi iradə yoxdur. Səfirin dediklərindən belə nəticə hasil olur ki, hazırkı durum sadə ermənilərə də xoşagəlməz perspektiv vəd edir. Ancaq o, fikirlərinə müəyyən qədər düzəliş etməyi yaddan çıxarmır və deyir ki, Rusiya ilə Ermənistanı birləşdirən, təkcə iqtisadi deyil, həm də sosial, mədəni, psixoloji amillər var. Təhlükəsizlik, sabitliyin qorunması mənasında həyati əhəmiyyət daşıyan məqamlar da nəzərə alınmalıdır. Çünki regionun dinc inkişafı bundan asılıdır. Ona görə də kənardan gələn təzyiqləri sıradan çıxarmaq şərtdir. Münasibətlərə regional baxımdan nəinki heç bir əlaqəsi olmayan, həm də duruma kökündən zidd maraqların təzyiqi altında zərbə vurulmamalıdır.

Yazımızın bu yerində mövzu ilə bağlı bir maraqlı nüansa diqqət yetirək. Aydındır ki, Ermənistan hakimiyyəti öz aləmində diplomatiklik edir. Yəni, Rusiyaya qarşı çıxmağını, əvvəldə də vurğuladığımız kimi, ölkənin siyasi xəttinin diversifikasiyası, əlavə təhlükəsizlik alətləri tapmaq müstəvisində arqumentləşdirir. Lakin maraqlıdır ki, mövcud kursun gerçək məqsədini tam açıq şəkildə dilə gətirən və bununla da Paşinyan iqtidarının peşka mahiyyətini ortaya qoyan Qərb dünyası özünə gələndə diplomatik davranış yolu tutur. Əlbəttə, buna diplomatiklik demək mümkündürsə. Məsələn, bir qədər əvvəl fikirlərinə yer verdiyimiz Fransa Milli Assambleyasının deputatı Petel deyir ki, ölkəsi Ermənistanı öz institutlarını gücləndirməkdə, demokratiya yolu ilə irəliləmək istəyini reallaşdırmaqda dəstəkləyir. Ona görə də onlar tərəfdaşdırlar.

Göründüyü kimi, xanım Petel inqilabi romantizmə güc verir. Əslində, kollektiv Qərbin bütün cinahlarında təmsil olunanların yanaşmaları budur. Guya ki, demokratiyanı qoruyurlar. Demokratiya və insan hüquqları kimi bəşəri dəyərləri özünün qlobal maraqlarında vasitəyə çevirmiş Qərb Ermənistanda da eyni



kursu davam etdirir. Aydındır ki, mövcud populist yanaşma sərt reallıqlar qarşısında tam keçərsizdir. Ancaq bu ritorika uğursuzluqdan sığorta və mübarizəni gələcəyə daşımaq üçün yaxşı metoddur.

Təsəvvür edək ki, Ermənistan, vəlvələdən, yaxud zəlzələdən, Rusiyanı Cənubi Qafqazdan sıxışdırmağı bacardı. O zaman Qərbdəkilər yüksək səslə prosesi demokratiyanın avtoritarlıq üzərindəki zəfəri qismində təqdim edəcəklər. Əks prosesin baş verəcəyi durumda da onlar üçün heç bir problem yoxdur. Bu zaman məhv olmuş Ermənistan demokratiya mücahidi kimi göstəriləcək və beləcə ermənilər üzərinə oynanılan avantürizm, bir növ, nisgilə çevriləcək. Elə bir nisgilə ki, ondan gələcəkdə də istifadə etmək mümkün olsun.

Bəli, Qərb dünyasını bölgədə gərginliklərin yaşanması, toqquşmaların, müharibələrin olması qətiyyən maraqlandırmır. Mövcud durumda sadə insanların taleyi də heç bir əhəmiyyət daşımır. Əsas olan Cənubi Qafqazla bağlı məkrli, dağıdıcı planların reallaşmasıdır. Ermənistan hakimiyyəti bu planlarda alətə çevrilməkdədirsə, Qərbin “demokratiya oyuncağı” ilə başını qatıb özünü toxunulmaz sayırsa, onun mövqeyi təkcə sıravi ermənilərin deyil, bütövlükdə, Ermənistan dövlətçiliyinin gələcək taleyini şübhə altına alır.

Demokratiyadan söz düşmüşkən, sonda ingilis dramaturqu və filosofu Samuel Consonun bir fikrini xatırladaq. O deyirdi ki, vətənpərvərlik əclafların son sığınacağıdır. Ermənistanla bağlı siyasi proseslərə nəzər salarkən, o cümlədən, ölkənin iqtidar təmsilçilərinin fikirlərinə diqqət yetirərkən, dramaturqun kəlamının nə qədər aktual olduğunu söyləyə bilərik. Ancaq bir az fərqli formada. İndi demokratiya Ermənistan hakimiyyətinin son sığınacağıdır. Paşinyan və komandası hesab edir ki, demokratik libasa bürünmək ölkənin sığortasıdır. Ona görə bu komanda özündə siyasi əclaflığın ən dərin qatlarına enmək cəsarəti tapır. Və bu komanda quyuya endiyinin fərqinə varmayacaq, ipinin kəsiləcəyini ağlına gətirməyəcək dərəcədə iflicdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İşğalçı elə bağırdı ki…



(əvvəli 1-ci səhifədə)

### “Azərbaycan Pasxada hücum etmək istəyir”

Ermənistanın Avropa İttifaqındakı daimi nümayəndəsi Tiqran Balayan “X”-dəki mikrobloqunda bunları yazıb: “İlham Əliyev və müttəfiqləri baş nazir Nikol Paşinyanın ABŞ dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenlə görüşünü pozmaq məqsədilə Ermənistana hücum etmək istəyirlər”. İrəvanın Belçikadakı fövqəladə və səlahiyyətli səfiri “operativ xəbərdarılğında” bir az da irəli gedərək, bəyanatına dini çalar vermək məqsədilə Bakının hücümu “Pasxa bayramında, aprelin 5-də Ermənistanın inkişafı və dayanıqlılığına yönəlmiş görüşü pozmaq üçün” planladığını xüsusi olaraq vurğulayıb. Müdriklər belə məqamlar üçün deyiblər: “Oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı”.

Rəsmi Bakı bölgədə yeni bir nifaq toxumu səpməyə yönəlik “üçlər”in Brüssel görüşü ilə bağlı öz münasibətini açıqlayıb. Azərbaycan hesab edir ki, bu qəbildən olan təşəbbüslər revanşist əhval-ruhiyyənin hələ də hökm sürdüyü Ermənistanı yeni təxribatlara sövq etməyə hesablanıb. Bununla yanaşı, Azərbaycan hakimiyyəti onu da dəfələrlə vurğulayıb ki, mövcud çətinliklərə və çağırışlara baxmayaraq, ölkəmiz Cənubi Qafqazda sülhün və sabitliyin təmin edilməsi istiqamətində fəaliyyətini bundan sonra da davam etdirmək əzmindədir.

İrəvandan səslənən məlum açıqlamalar isə ermənilərin ənənəvi yalan və riyakarlığa köklənmiş dezinformasiya siyasətindən başqa bir şey deyil. Azərbaycan ermənipərəst Qərbin son 30 il ərzində işğalçı dövləti nəinki siyasi və maliyyə cəhətdən dəstəklədiyini, həm də sistemli şəkildə Ermənistanı Azərbaycanla yeni müharibəyə təhrik etdiyini görüb. Aİ-nin və ABŞ-nin bu yöndə oxşar cəhdlərini bu gün də müşahidə edirik. Görünən odur ki, Qərb məqsədyönlü şəkildə Ermənistan üçün, bir növ, “mini–NATO” formatı yaratmağa çalışır. “Səlibçilərin bu ittifaqı” İrəvanı ölkəmizə qarşı istifadə etmək üçün silah-sursatla da təmin edir.

### “Məsuliyyət İrəvanın və havadarlarının üzərinə düşəcək”

Hayastan müdafiə idarəsinin “təkzib” xarakterli açıqlamasının yalandan ibarət olduğu Azərbaycan Müdafiə Nazirliyinin dünən səhər saatlarında yaydığı məlumatda ortaya qoyulur. Məlumatda deyilir ki, son vaxtlar Ermənistan–Azərbaycan arasındakı şərti sərhədin müxtəlif istiqamətlərində canlı qüvvə, zirehli texnika, artilleriya qurğuları, eləcə də digər ağır atıcı silahlar və texnikalar cəmləşdirilir. Ermənistan silahlı qüvvələrinin intensiv hərəkətinin müşahidə edilməsi ilə bağlı bəyanatında daha sonra bildirilir: “Biz xəbərdarlıq edirik ki, Ermənistan silahlı qüvvələrinin istənilən hərbi təxribat cəhdi Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alınacaq. Biz bir daha bəyan edirik ki, vəziyyətin gərginləşməsinə və baş verə biləcək hər hansı təxribata görə bütün məsuliyyət bütünlüklə Ermənistanın və onun havadarlarının üzərinə düşəcək”.

Müdafiə Nazirliyinin bəyanatı şərti sərhəddə düşünülmüş şəkildə təxribat həyata keçirməyə hazırlaşan bütün qüvvələrə vaxtında verilmiş aydın mesaj sayıla bilər. Hər şeydən göründüyü kimi, aprelin 5-də Brüsseldə Antoni Blinken, Ursula Fon der Lyayen və Nikol Paşinyan arasında üçtərəfli görüşdə Ermənistanın Avropa İttifaqına üzvlüyünün perspektivləri, eləcə də Qərbin rəsmi İrəvana təqdim etməyə hazır olduğu təhlükəsizlik təminatları müzakirə mövzuları olacaq. Yəni, dünyanın gözü qarşısında Ermənistan, Aİ və ABŞ-nin iştirakı ilə “üçlük” adlandırılacaq hərbi-siyasi pakt formalaşdırılır. Azərbaycan bütün bunları görür və müvafiq xəbərdarlığını da edir. Əlbəttə ki, ölkəmizə qarşı məqsədyönlü şəkildə həyata keçirilən bu siyasi avantüraya görə bütün məsuliyyət İrəvanın və onun qərbli havadarlarının üzərinə düşür.

### Müşahidə kameraları sıradan çıxarıldı

“Ermənistan silahlı qüvvələrinə məxsus 200-dən artıq optik-elektron və müşahidə kameraları bölmələrimizin və mülki sakinlərimizin hərəkətini izləmək, onlara qarşı müxtəlif xarakterli təxribat fəaliyyətləri həyata keçirmək məqsədilə kustar üsulla hazırlanaraq 480 kilometrədək təmas xətti boyunca 10-15 və 20-30 metr hündürlükdə quraşdırılmışdı”. Azərbaycan Müdafiə Nazirliyinin dünən yaydığı məlumatında daha sonra bildirilir ki, Qarabağ iqtisadi rayonunda kəşfiyyat vasitələrimiz tərəfindən müəyyən edilmiş Ermənistan silahlı qüvvələrinə məxsus optik-elektron və müşahidə kameraları ordumuzun arsenalında olan yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb. Aİ-nin mülki missiyasının müşahidə zonasına düşən həmin ərazilərdə kəşfiyyat kameralarının peyda olması da təsadüfi sayıla bilməzdi.

Sonda onu da qeyd edək ki, iki gün əvvəl Ermənistanın sərhədimizə qoşun və zirehli texnika topladığını əks etdirən videogörüntülərdə hərbi karvanın ardınca “Spayka” şirkətinə məxsus yük maşınının hərəkət etdiyi də aydın müşahidə olunur. Bu, 2023-cü ilin yayında Qarabağ ermənilərinə “humanitar yardım karvanı” təşkil etmiş həmin şirkətə məxsus yük maşını idi. Yəqin “Spayka”nın TIR-ı da Ermənistan müdafiə nazirliyinin keçirdiyi “təlim prosesi çərçivəsində avtoyürüşə” qatılacağmış.

Bəli, ortada sülh tərəfdarı olmayan ölkələrin Brüssel görüşündən cəsarətlənərək bölgədə yeni bir savaş alovlandıracaqları ilə bağlı təhlükəli ehtimal var. Nikol Paşinyanın bir həftə əvvəl Ermənistanın dünyaya çıxışının Türkiyə və Azərbaycansız mümkün olmadığı barədə etirafının ardınca belə təxribatçı plana “hə” deməsi, ilk növbədə, özünə arxadan vurduğu zərbədir. Cənubi Qafqazda yeni münaqişə ocağını körükləmək istəyənlər isə unutmasınlar ki, indi onlara Azərbaycan, Türkiyə, Pakistan, eləcə də Türk Dövlətləri Təşkilatı növbəti, həm də daha ibrətamiz dərsi vermək qüdrətindədirlər.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**

**Asif NƏRİMANLI,**
**siyasi şərhçi**



Aprelin 1-dən iyunun 28-dək Ermənistanda ehtiyatda olanlar hərbi təlimlərə çağırılıb. Hesab etmək olar ki, canlı qüvvə və hərbi texnikanın hərəkətliliyi bu təlimlərlə bağlıdır. Amma bu zaman müəyyən detallar diqqət çəkir. Birincisi, təlimə çağırılan hərbçilərin sayı 5 minə yaxındır və xüsusi üstünlük zabit heyətinə verilib (4.799 nəfərin 4.353 nəfəri sıravi və kiçik rütbəli zabit, 144-ü yüksək rütbəli zabit, 302 nəfəri isə motoatıcı və rabitə korpusunun, o cümlədən, kəşfiyyat, mühəndislik və raket-artilleriya ixtisasları olan zabitlərdir). Mövcud vəziyyətdə 5 minə yaxın hərbçinin eyni vaxtda təlimə cəlb olunması müəyyən şübhələrə yol açır.

İkincisi, təlimə çağırılan hərbçilərin Azərbaycana qarşı təxribatlarda iştirakı təcrübəsi var. Ötən ilin sentyabrında sərhəddə törədilən erməni təxribatından sonra ordumuzun cavab addımları nəticəsində məhv edilən hərbçilər arasında 25 günlük təlimə çağırılanların olması (misal üçün, 40 yaşlı Andranik Antonyan) bunu təsdiq edir. Bu kontekstdə 5 minə yaxın hərbçinin mümkün təxribata hazırlıq məqsədi ilə təlim keçməsi istisna edilməməlidir.

Paşinyan Tavuş səfərində “kəndləri qaytarmasaq, müharibə olacaq” demişdi və bunu daxili ictimai rəydə ispatlamaq üçün kiçikmiqyaslı “hərbi macəraya” gedə bilər. Əsas hədəfin Qərbin Ermənistanın təhlükəsizliyinə cəlb edilməsi olduğu istisna deyil. Aprelin 5-də Brüsseldə keçiriləcək görüşün Qərbin Cənubi Qafqaza girişi üçün qapıların geniş açılması məqsədi daşıdığı məlumdur. Bu ərəfədə, yaxud görüşdən sonra Azərbaycanla sərhəddə baş verə biləcək eskalasiya müttəfiqlərin Ermənistanın “təhlükəsizliyinə” cəlb edilməsi üçün əsaslı arqument ola bilər. Belə bir eskalasiya Rusiyanın Ermənistandakı mövqelərinin “vurulması” ssenarisinə də uyğundur.

Bu baxımdan, Ermənistanda ehtiyatda olan 5 min hərbçinin cəlb edildiyi hərbi təlimlər və Cənubi Qafqazda gözlənilən planlar fonunda Azərbaycanla sərhədə canlı qüvvənin, hərbi texnikanın toplanması xəbərləri mümkün təxribata hazırlığa dair gözləntiləri ön plana çıxarır.

**Ekspert rəyi**

**Tofiq ABBASOV,**
**politoloq**



Ermənistan yenə qabaqdangəlmişlik edir. Özü militarizmə üstünlük verərək, xaricdən hərbi texnologiyalar alır, cəbbəxanasını müxtəlif dağıdıcı silahlarla doldurur. Amma bu zaman Azərbaycanı təcavüzkar planlar hazırlamaqda itiham edir. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, bizim heç bir ölkənin ərazisində gözümüz yoxdur. Sadəcə mövcud sərhədlərimizin daxilindəyik və öz ərazimizin təhlükəsizliyini qorumağa qadırık. İrəvan isə xarici tərəfdaşlarından hərbi dəstək gözləyir və buna ümid edir.

5 aprel konfransı özülüyündə qəribə məqamdır. Təbii ki, KTMT-dən və Avrasiya İqtisadi İttifaqından çıxmadığı halda Ermənistan, belə demək olar ki, daha zəngin dövlətlə ikinci “izdivaca” gedir. Bu isə region siyasəti anlayışı baxımından “qırmızı xətti” keçməyə bərabərdir. Amma bu zaman İrəvanın özünün fəsadları artar, xüsusilə, Rusiya və İran onun dərsini verə bilərlər.

Belə oyunları əvvəllər də Ermənistanın ifasında izləmişik və ona yaxşı heç nə gətirməyib. Burada daha önəmli məqam Avropa İttifaqının Ernmənistanda yerləşdirilən və sayı iki yüzü aşmış mülki missiya ilə bağlıdır. Ermənistan şərti sərhəddə təxribat törədir, sərhədçimizi yaralayır, amma bu missiyanın səsi çıxmır.

Düşünürəm ki, Aİ missiyasının psevdofəaliyyəti özünü hansısa alovlu prosesə təkan verəcək alət kimi göstərəcək. Aİ-nin də, ABŞ-nin də niyyəti ən yaxın vaxtlarda vahid sistem yaratmaqdır ki, mülki müşahidəçilərin əli ilə xaricdən gətirməyə çalışdıqları hərbi kontingenti bölgəyə yerləşdirsinlər. Aydındır ki, rəsmi İrəvanın qərbyönümlü mövqeyi Moskvanın və Tehranın gözləntilərinə cavab vermir. “3+3” formatı Vaşinqtonda və Avropada həm də bu səbəbdən qıcıq doğurur. Amma İran tərəfi bu günlərdə həmin formatda görüşün baş tuta biləcəyini bildirib. Çox güman ki, belə bir görüşün keçirilməsi “üçlər”in 5 aprel konfransından sonra gündəmə gələcək.

# Yeni tarixi mərhələdə milli ideya

**V MƏQALƏ**

**Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



## Azərbaycançılıq və milli qürur

Məsələnin qoyuluşu Ulu öndərin yuxarıda verdiyimiz iqtibasında gözəl və yığcam şəkildə ifadə olunmuşdur. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Bu duyğunun mərkəzində isə azərbaycançılıq dayanır. Ulu öndər azərbaycançılığın başlıca faktorları kimi dili, mədəniyyəti, milli-mənəvi dəyərləri və adət-ənənələri müəyyən etmişdir.

Deməli, Ümummilli lider azərbaycançılıqda mənəvi. əxlaqi, dünya duyumu, milli duyğu, mədəniyyət, adət-ənənələr və din faktoruna xüsusi diqqət yetirmişdir. Bunların qarşılıqlı təsirlərində isə milli qürur hissinin yaranmasını zəruri hesab etmişdir. Milli qürurun birbaşa mədəniyyət, mənəviyyat, dil, din və ənənə ilə bağlanması faktiki olaraq müasir dövrün tələblərinə uyğun milli ideyanın müəyyən edilməsinə istiqamət verir. Konkret olaraq, Ulu öndərin tövsiyəsində milli ideyanı həmişə daimi inkişafa, birliyə, əxlaqa, mənəvi zənginləşməyə və müasirləşməyə istiqamətləndirən elə faktorlar toplusu kimi yanaşma mövcuddur ki, adət-ənənə, tarixi təkamülün özəlliyi burada xüsusi təməl rolunu oynayır.

Belə çıxır ki, milli qürurun formalaşmasında vurğulanan faktorların rolu və yeri iki cəhətin vəhdətini mütləq nəzərə almalıdır.

Birincisi, cəmiyyət və fərdlər daim yeniləşməyə açıq olmalıdır. Burada "yeniləşmə" dedikdə, başlıca olaraq, mədəni, mənəvi, intellektual yeniliklərə açıq olmağı və öz dilini həmişə inkişaf etdirməyi nəzərdə tutur.

İkincisi, hər bir məqamında yeniləşmə tarixilik və milliliklə uyğunlaşmaldır. Məsələnin bu cür qoyuluşunun inkişaf baxımından prinsipial mənası vardır. Azərbaycanın tarixi təkamül yolu göstərir ki, hər bir yenilik milli zəmində olanda uğurlu alınır. Bunun da səbəbi Azərbaycan xalqının bir tərəfdən, toplum kimi çox qədim tarixə və kifayət qədər yetkin formalaşma mexanizmlərinə malik olması ilə bağlıdır. Digər tərəfdən isə Azərbaycan dövlətçiliyinin mükəmməl özəl modelə malik olmasıdır. Tarixi yolda bu model sınaqlardan çıxaraq, öz yaşarlığını sübut etmişdir. Həmin səbəbdən, tarixin hökmü ilə müasirləşmə kontekstində dövlətçilikdə müəyyən yeniliklər ola bilər, lakin "dövlətçiliyin magistral yolu"ndan çıxmağın ziyanını görə bilərik.

Bu iki faktorun qarşılıqlı əlaqəsində milli qürur duyğusunun əhəmiyyətini və aktuallığını anlamaq çətin deyil. Azərbaycanlı daim qürurlu olmalı, öz milli mənsubluğu ilə fəxr etməlidir. Onun tarixində utandırıcı, çəkindirici heç bir şey yoxdur. Lakin ədalət, əxlaq, düzənə sayğı və bəşəriliklə milliliyin vəhdəti vardır. Burada Ulu öndərin ana dilinə və dinə də xüsusi diqqət yetirməsi tamamilə təbiidir.

Məsələ ondan ibarətdir ki, istənilən toplumu sosiallaşdıran, onun gerçəklik haqqında təsəvvürünü və praktiki mövqeyini formalaşdıran dildir! Bir çox məşhur alimin dediyi kimi, toplum dil vasitəsilə və dil sahəsində mövcud olur. Bu qaydanı təmin edə bilməyən toplumların yoxa çıxdığını təsdiq edən kifayət qədər fakt vardır. Bu səbəbdəndir ki, tarix boyu müxtəlif istiqamətlərdən Azərbaycan dilinə hücumlar olmuş, onu aşağılamağa çalışmışlar. Hər dəfə də cavablarını almışlar.

Lakin bu cəhdlər indi də davam edir. İnsan şəhər küçələrində azərbaycanlıların öz aralarında yad dildə danışmalarını ürək ağrısı ilə qarşılayırlar. Başqa dilləri bilmək faydalıdır, lakin onların hamısı öz dilindən sonra gəlməlidir. Həm də iki azərbaycanlının və ya bir ananın öz övladı ilə duyğularını, hisslərini və fikirlərini yad dildə bölüşməsi milli mövqeyə və deməli, milli ideyaya uyğun deyil. Yoldan sapmaqdır!

Bu baxımdan yeni tarixi mərhələdə milli ideyamızda dövlət dilinin statusunun daha da yüksəldilməsi tezisinin yer almasını zəruri hesab edirəm. Bunsuz milli ideyamızın yeni mərhələdə ciddi çətinliklərlə qarşılaşa biləcəyindən ehtiyat edirəm.

Prezident İlham Əliyev yeni mərhələdə milliliyi, vətənpərvərliyi, dilin inkişafını, mənəvi-əxlaqi dəyərlərə və təhsildə milliliyə daha çox diqqət yetirilməsi məsələsini təsadüfən ayrıca vurğulamamışdır. Dövlət başçısı strateji zəkası ilə bütün məqamları dərinliyinə və zərgər dəqiqliyinə qədər çox gözəl görür və ona uyğun fikirlər ifadə edir. Ulu öndər Heydər Əliyevin də dil və din məsələsinə xüsusi diqqət yetirməsi bütün bunlara görə olduqca əhəmiyyətli vəzifələri qarşıya qoyur. Deməli, vurğuladığımız faktorlara görə, milli qürur şərafət və fəxarətlə yanaşı, toplum və dövlətçilik qarşısında məsuliyyət hissini anlamaq deməkdir! Məhz bu məqamda istiqamətləndirici və stimulverici güc və qüvvət milli qürurdur!

Dinimiz İslamın bütün bu proseslərdə yeri və rolu olduqca önəmlidir. İslam dünyanın ən ədalətli dinidir. Burada insanı mədəni, mənəviyyatlı, əxlaqlı, vətənsevər, təvazökar və ədalətli olmağa dəvət edən çox sayda ayələr vardır. İslam azərbaycanlı mentalitetində dərindən oturuşmuşdur. Dini dəyərlərin qorunması, onlara, həqiqi mənada, əməl edilməsi çox vacibdir. Eyni zamanda, dini kənar təsirlərdən, siyasiləşməkdən qorumaq da lazım gəlir. Hər bir azərbaycanlı İslamın mənəvi-əxlaqi dəyərlərini bilməli və ona əməl etməlidir. Bütün hallarda azərbaycanlılar dinlərini yüksəkdə tutmalı və ona sayğılı münasibət göstərməlidirlər. Buna görədir ki, Azərbaycan rəhbərliyi dinlə bağlı çox əhəmiyyətli sərəncamlar və fərmanlar imzalamışdır. Dini abidələrin qorunması, adət-ənənələrə əməl edilməsi, ölkədə olan bütün dini konfessiyaların sülh şəraitində yaşaması və digər aktual məsələlər daim diqqət mərkəzində olmuşdur. Din milli qürurun zəruri bir faktorudur!

Ümumiyyətlə, milli qürur azərbaycançı olmaqla sıx bağlıdır. Azərbaycançı olmaq isə dil, din, mədəniyyət, mənəvi-əxlaqi dəyərlər, Vətən sevgisi kimi dəyərlərlə əlaqəlidir. Bütün bunların sistemi, bütövlükdə, insan-cəmiyyət, vətəndaş-dövlət, tarixilik-müasirlik kimi kontekstdə müəyyən insan obrazı formalaşdırır. Eyni zamanda, ölkənin inkişaf kursunu müəyyən etməkdə ciddi rol oynayır.

Bəs tarixi ədalətin milli qürur və milli ideyanın müəyyən edilməsində rolu nədən ibarət ola bilər? Bunun üçün öncəki məqalələrdə vurğuladığımız hüququn təmini məsələsini aydınlaşdırmaq lazımdır.

## Beynəlxalq hüquq və "milli qanun"

Öncə vurğulayaq ki, burada "milli" anlayışı konkret cəmiyyətin tarixi təkamüldə özünüyaratması, özünütəşkili üsulu və fəlsəfəsi anlamında işlədilir. Bu kontekstdə "milli qanun" dedikdə cəmiyyətin tarixən özünüyaratmasının taktiki və strateji aspektlərinin qarşılıqlı əlaqəsi nəzərdə tutulur. Beynəlxalq hüquq – "milli qanun" münasibətlərində isə müasir mərhələdə dövlətlərarası münasibətləri tənzimləyən hüquqi normalarla konkret cəmiyyətin özünüyaratma fəlsəfəsinin arasındakı münasibətlərin xüsusiyyətləri milli ideya kontekstində ön plana çıxarılır. Burada məsələnin qoyuluşu xeyli dərəcədə nəzəri olduğundan onu bir qədər aydınlaşdırmaq gərəkdir.

Təbii ki, dövlətlərarası münasibətlərin hüquqi aspekti ilə sosiumu tənzimləyən qanunauyğunluq arasında birbaşa əlaqə görünməyə bilər. Lakin müasir dövrün əsas fərqli cəhətlərindən biri beynəlxalq münasibətlərdə, bütövlükdə, toplumlararası münasibətlər başlıca yer tutmağa başlamışdır. Onun əlamətlərindən biri, bütövlükdə, cəmiyyətin şüuruna, psixologiyasına və ümumi mövcudluq şərtlərinə kütləvi təsirlərin edilməsidir. Nümunə kimi deyək ki, müəyyən cəmiyyətlərin kollektiv şüurunu manipulyasiya etmək üçün müxtəlif informasion, psixoloji, mənəvi, ideoloji, əxlaqi təsirlər göstərilir. Özü də onların əksəriyyəti dolayısı ilə, gizli və ya maskalı edilir. Bu halda təsirin haradan və hansı məqsədlə edildiyini adi gözlə görmək çox çətin olur və fərdlər zaman-zaman bu cür təsirlər nəticəsində öz psixoloji, sosial, həyat tərzi və mental özəlliklərini dəyişirlər. Yəni, kollektiv olaraq kütləvi təsirlər yalnız ayrı-ayrı fərdləri deyil, bütövlükdə, cəmiyyəti özünün iradəsindən və tarixi yolundan kənarda transformasiya edir. Bu transformasiyanın cəmiyyətin gələcəyinə necə təsir edəcəyi isə həmişə qeyri-müəyyən qalır, çünki dəyişiklik daxili tələbatdan və keçilən tarixi yola uyğun deyil, kənar maraqların müəyyən etdiyi sosial, psixoloji, mədəni və mənəvi sərhədlərə görə formalaşır.

Deməli, belə proseslərin qarşısını almaq və ona alternativ olaraq milli tarixi təməldə özünüyaratmaq prinsipial aktuallıq kəsb edir. Cəmiyyətin tarixən özünüyaratmasının fəlsəfəsini, reallaşma mexanizmlərini və üsullarını bilmədən buna nail olmaq imkansızdır. Digər tərəfdən, müstəqil dövləti olan cəmiyyət beynəlxalq miqyasda daim çox sayda başqa toplumlar və dövlətlərlə qarşılıqlı əlaqədə olduğundan həmişə özünüyaratma fəlsəfəsi və hüququ ilə dövlətlərarası münasibətləri tənzimləyən hüquq və fəlsəfə arasında "ölçü" aparmalı, müqayisələr etməlidir. Bu prosesin fonunda ölkənin həyati əhəmiyyətli məsələlərə münasibəti formalaşır.

Beləliklə, müasir mərhələdə beynəlxalq hüquqla milli hüquq və qanun arasında daxili bağlantı həmişə nəzərə alınmalıdır. Burada başlıca prinsip onların bir-birinə zidd olmamasıdır və ölkənin aldığı nəticənin milli ilə beynəlxalq miqyaslarda legitimliyi uzlaşmalıdır. Belə ki, milli özünüyaratma qanunlarına görə, müsbət sayılan nəticə həm də beynəlxalq hüquq normaları çərçivəsində müsbət qəbul edilməlidir. Bu iki faktorun vəhdəti isə bütövlükdə, dövlətin, cəmiyyətin və ölkənin əldə etdiyi nailiyyətin tam legitimliyini ifadə edir. Bu legitimlik nail olunan milli ideyanın dünya tərəfindən də etiraf edilməsi və sonrakı mərhələ üçün sağlam hüquqi, sosial və psixoloji zəmin hazırlanmasını əks etdirir.

Vurğuladığımız nəzəri məqamlar Prezident İlham Əliyevin milli ideyanın ərazi bütövlüyünə nail olmaq mərhələsini xarakterizə edərkən, tarixi ədalət və milli qürurla yanaşı, beynəlxalq hüququn təmin edilməsi məsələsini qeyd etməsinin uzaqgörənliklə bərabər, qanuni və inklüziv legitim mahiyyətli olduğunu da nümayiş etdirir! Bununla Azərbaycanın dövlət başçısı milli miqyasla beynəlxalq səviyyənin vahid məntiqi çərçivədə bir-bri ilə uyğunlaşdırır. Onun müsbət əlamətlərindən biri də milli ideyanın dünya səviyyəsində legitimliyini və bəşəri dəyərlərə uyğunluğunu sübut etməsi ilə bağlıdır. Məsələnin bu tərəfinin hazırkı geosiyasi və hüquqi şəraitdə nə dərəcədə vacib olduğunu sübut etməyə ehtiyac görmürük.

Bunlarla yanaşı, milli ideyanın ərazi bütövlüyünü təmin etməklə əlaqədar bir mərhələsinin tarixi ədalət, milli qürur və beynəlxalq hüququn qarşılıqlı münasibətləri müstəvisində anlamının yeni tarixi mərhələdə milli ideyanın məzmununun müəyyən edilməsi, yeri və rolunun konkretləşməsi baxımından əhəmiyyəti böyükdür.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Qərb Ermənistanı illüziyalarda batırır



**(əvvəli 1-ci səhifədə)**

İkinci Qarabağ müharibəsində darmadağın olaraq zəifləmiş Ermənistan indi yeni macəralar axtarışındadır. Kiçik, amma qorxaq addımlarla Rusiyanın çətirinin altından çıxmağa çalışan İrəvan Azərbaycanla şərti sərhəddə yeni təxribatlar hazırlayır. Yenə də ABŞ və Avropa İttifaqının arxasından boylanaraq, Azərbaycan əsgərinə diş qıcamaq istəyir. Azərbaycan Müdafiə Nazirliyi bildirir ki, son zamanlar Ermənistan–Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi, zirehli texnikası, artilleriya qurğuları, habelə, digər ağır döyüş vasitələrinin cəmləşdirilməsi və qoşunların intensiv hərəkəti müşahidə olunur. Xəbərdə vurğulanır ki, son vaxtlar Ermənistanda Azərbaycanı müharibə ilə hədələyən revanşist qüvvələrin daha da fəallaşması, ölkəmizə qarşı aqressiv ritorikanın yüksək həddə çatması və təxribat cəhdlərinə hazırlıq məqsədilə informasiya məkanında vəziyyətin gərginləşməsinə xidmət edən təhrikçi məlumatların sayının artması özünü büruzə verir.

Bu, bir təsadüf ola bilərmi? Ermənistan rəhbərliyinin son vaxtlar Qərblə təmaslarının məzmunu belə düşünməyə əsas verir ki, ermənilərin şərti sərhədə canlı qüvvə və hərbi texnika yığması təsadüf sayıla bilməz. İrəvanın belə cəsarətlənməsi okeanın o tayından və "Köhnə qitə"dən verilən dəstək bəyanatları ilə bağlıdır. Xatırladaq ki, aprelin 5-də Ermənistan baş naziri Nikol Paşinyanın ABŞ Dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen ilə Brüsseldə görüşü planlaşdırılır. Rəsmi Bakı görüşün belə formatda keçirilməsini kəskin şəkildə tənqid edir. Görüşün hərbi komponentləri nəzərdə tutduğuna dair məlumatların əlavə narahatlıq doğurduğunu və regionda sülh quruculuğu səylərinə xələl gətirdiyini vurğulayan rəsmi Bakı xəbərdarlıq edir ki, Ermənistandakı revanşist əhval-ruhiyyə fonunda Vaşinqton və Brüssel tərəfindən bu kimi açıq ermənipərəst ictimai təzahür formaları Hayastanın Azərbaycana qarşı yenidən mümkün təxribatlarında Aİ və ABŞ-ın onları dəstəkləyəcəyinə təhlükəli illüziya yarada bilər.

Müdafiə Nazirliyinin son məlumatı da göstərir ki, XİN-nin Qərbə ünvanladığı xəbərdarlıq əbəs deyil. Ermənilər yenə də illüziyaya qapılırlar. İrəvan 2020-ci il müharibəsindən sonra ortaya çıxan reallıqları qəbul etmək istəmir. Normallaşma prosesi davam etdiyi bir vaxtda Ermənistan öz öhdəliklərini yerinə yetirmir və bununla da gərginlik yaratmaqla diqqəti yayındırmağa, bununla da normallaşma prosesinə xələl gətirməyə çalışır. Ermənistanı destruktuv mövqedən çəkilməsinə də Qərbin səsləndirdiyi vədlər mane olur. İrəvanı dəstəkləyən Qərb ölkələri də gözəl anlayırlar ki, Cənubi Qafqaz regionunda sabitlik və əməkdaşlıq mühitinin yaradılması, münaqişələrin və təhdidlərin aradan qaldırılması üçün Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması vacibdir. Bu məsələ müxtəlif görüşlərdə müzakirə olunur. Ancaq Qərb Ermənistanın bu gün regional proseslərə təsir etmək və regiondakı geostrateji reallıqları dəyişmək imkanının olmadığını anlasa da, İrəvanı öz maraq orbitinə daxil etməyə çalışmaqla və müxtəlif yardımlar edəcəyini vəd etməklə regional barışıq prosesini təhlükə altına atır.

Qərbin motivi məlumdur. Rusiya və Çin ilə qlobal qarşıdurma vəziyyətində olan Qərb dünyanın müxtəlif strateji regionlarında maraqlarını təmin etməyə çalışır. İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz regionunun yeni geosiyasi transformasiyası fonunda Qərbin yeni "Böyük oyun"a başlaması da təsadüfi deyil. "Böyük şahmat lövhəsi"ndə qurban verilən piyadaya çevrilmiş Ermənistan region dövlətlərilə, xüsusilə də Azərbaycan və Türkiyə ilə münasibətlərini normallaşdırmaq əvəzinə, minlərlə kilometr uzaqda yerləşən ölkələrə bel bağlamağa can atır. Xüsusilə də ABŞ və Fransadan Ermənistana dəstək İrəvanı revanşizmə sövq edən mühüm addımlardan biridir. Ermənistan rəsmiləri Fransadan, Hindistandan, hətta başqa dövlətlərdən də müasir silahlar, hərbi texnika aldıqlarını açıq şəkildə bildirirlər. Əlbəttə, bu bəyanatlar bir daha təsdiqləyir ki, Ermənistan sülhə yox, müharibəyə hazırlaşır və bu məsələdə ermənipərəst beynəlxalq qüvvələrin imkanlarından istifadə edir.

Bu gün Fransa və Hindistan Ermənistanın silahlanmasında fəal rol oynayırlar. Ermənistanın ABŞ-dan mənəvi və siyasi dəstəyi də təəssüf doğurur. Bütün bu faktlar onu göstərir ki, onlar regionda yeni müharibənin başlanmasında maraqlıdırlar və Ermənistanı buna sövq edirlər. 5 aprel görüşü də bu məqsədə xidmətə edir və Qərbin riyakar siyasətini bir daha təsdiqləyir. 30 illik işğal dövründə Azərbaycan üçün bir dəfə də olsun konfrans keçirməyən ABŞ və Avropa İttifaqı indi işğalçı və uzun illər beynəlxalq hüquq normalarını tapdalayan Ermənistana dayaq durmağa çalışırlar. Azərbaycanın Qərbin enerji təhlükəsizliyində oynadığı strateji rola baxmayaraq, Aİ indi İrəvanı yeni müharibəyə hazırlayır və Ermənistan üçün mini-NATO mexanizmi yaradır, ölkəmizə qarşı silahlandırır. Əlbəttə, Azərbaycan bütün bunları görür və zəruri addımlarnı atır. Ancaq Ermənistan və onun havadarları unutmamalıdır ki, baş verənlərə görə, məsuliyyət Ermənistanın və havadarlarının üzərinə düşür. Bir daha bəyan edirik ki, Azərbaycan milli maraqlarına zidd olan istənilən təhlükənin qarşısını qətiyyətlə alacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Xankəndi şəhidi Xocalı kütləvi məzarlığında

**Xocalıda kütləvi məzarlıqda tapılan daha bir nəfərin şəxsiyyəti müəyyənləşib. Bu barədə Baş Prokurorluğun mətbuat xidməti məlumat yayıb.**




Xəbər verildiyi kimi, işğaldan azad edilmiş Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) həyata keçirilən əsaslı bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı basdırılmış vəziyyətdə kütləvi insan qalıqlarının aşkar olunması faktı ilə bağlı araşdırmalar davam etdirilir.

Qeyd olunan ərazidə həyata keçirilən baxış istintaq hərəkəti nəticəsində aşkar edilmiş insan qalıqlarının müayinəsi zamanı onların 18 nəfər şəxsə məxsus olması (4 nəfərin azyaşlı olması ehtimal edilir), müxtəlif üsullarla işgəncə, fiziki zorakılıq və qeyri-insani rəftara məruz qalmaları, fərdi şəkildə və mənsub olduqları dinin tələblərinə uyğun qaydada dəfn olunmamaları, həmişə tapıla bilmələri üçün lazımi qaydada qorunmaları və nişanlanmalarının təmin olunmaması müəyyən edilib.

Həmçinin aşkar edilmiş insan qalıqları xüsusiyyətlərinə görə, ən azı, 25 il əvvəl basdırılıb.

Baş Prokurorluq tərəfindən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Səhiyyə Nazirliyinin "Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsi, Azərbaycan Milli Elmlər Akademiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilərək aşkar edilmiş sümük fraqmentləri üzrə zərərçəkmişlərin şəxsiyyətinin, həmçinin iş üzrə əhəmiyyət kəsb edən digər halların müəyyən edilməsi məqsədilə ekspertiza və laborator müayinələr aparılır, eləcə də digər zəruri prosessual hərəkətlər həyata keçirilir.

Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsi tərəfindən keçirilən məhkəmə-genetik ekspertizasının hazırkı mərhələsində Xankəndi sakini olmuş daha 1 nəfərin şəxsiyyəti müəyyən edilib. Bununla da, kütləvi məzarlıqda aşkar olunan insan qalıqlarından 10 nəfərin şəxsiyyəti müəyyən edilib:

(Xocalı rayon sakinləri)

1. Əliyev Ağaəli Naib oğlu (01.06.1933)
2. Əliyeva Sürəyya Behbud qızı (01.06.1933)
3. Mahmudov Akif Seydulla oğlu (01.06.1962)
4. Səlimov Xəzər Səyavuş oğlu (01.09.1974)
5. Səlimova Tamilla Ağamirzə qızı (01.06.1935)
6. Nəcəfov Şiraslan Məmiş oğlu (01.06.1952)

(Xankəndi şəhər sakinləri)

7. Cavadov Əli Müsül oğlu (15.06.1954)
8. İsmayılov İsmayıl Bəhman oğlu (01.08.1955)
9. Məhərrəmova Bəsirə Vəli qızı (01.06.1954)

*10. Məhərrəmov Vaqif Cəmil oğlu (01.06.1951)*

İstintaq materiallarına əsasən qeyd edilən şəxslərin hamısı 26 fevral1992-ci il tarixdə Xocalı rayonu ərazisində itkin düşüb.

Toplanmış materiallar Baş Prokurorluğun İstintaq idarəsində ibtidai istintaqı aparılan cinayət işinə əlavə edilərək araşdırılır, nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcək.

***XQ***

Aprel döyüşlərindən 8 il keçir

# Qarabağ Zəfərinin qaranquşu

## *Azərbaycan Ordusunun işğalçı Ermənistana savaş xəbərdarlığı*

**Prezident, Ali Baş Komandan İlham Əliyev 2016-cı ilin yazında baş verən Aprel döyüşlərini dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbə adlandırıb. Bu döyüşlərin nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının böyük əraziləri işğaldan azad edilib, 2020-ci ildə qazanılan Böyük Zəfərinin təməli qoyulub.**



Düz 8 il əvvəl aprelin ilk günlərində Qarabağda təcavüzkar Ermənistan ordusunun növbəti təxribatının nəticəsi olaraq, bu hərbi əməliyyat başlanıb və vətənpərvər oğullarımız düşmən tapdağında olan 2 min hektardan çox ərazimizi işğaldan azad edib, strateji əhəmiyyətə malik bir çox yüksəklikləri, yolları nəzarət altına alıblar. Düşmənin xeyli sayda hərbi texnikası və canlı qüvvəsi məhv edilib. 4 gün davam etmiş döyüşlər Silahlı Qüvvələrimizin haqq işi xəbərdarlığı, qüdrət və qələbə anonsu olub, dərin hərbi və siyasi məzmunu ilə tarixə yazılıb. Məhz bu döyüşlərlə biz dünyaya göstərdik ki, torpaqlarımızı öz gücümüzə işğaldan tamamilə azad edə bilərik və əgər ermənilər BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə dinc yolla, qeyd-şərtsiz əməl etməsələr, elə də olacaq.

Amma Azərbaycan Ordusunun Qarabağ zəfəri ilə bağlı dönməz iradəsinin ifadəsi olan Aprel döyüşlərindən sonra 4 il ərzində işğalçılar ərazilərimizi tərk etmədilər, əksinə, daha da azğınlaşaraq yeni torpaqları zəbt etmək xülyasına düşdülər. Nəticədə, 2020-ci ilin payızında 44 günlük Zəfər yürüşümüz başlandı və Silahlı Qüvvələrimizin möhtəşəm qələbəsi ilə sona yetdi.

...Məlum döyüş əməliyyatları aprelin 1-dən 5-dək davam edib. İgid hərbçilərimiz Tərtərin Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayılın Lələtəpə yüksəkliyini azad ediblər və bununla da ermənilərin hədəfindən çıxan Cocuq Mərcanlı kəndinin başı üzərindən qara buludlar dağılıb. Əhalinin Cocuq Mərcanlıya köçü başlayıb ki, bu da Qarabağa Böyük Qayıdışın ilk müjdəsi olub.

Beləcə, Aprel döyüşləri sayəsində ümiddən inama, inamdan qələbəyə doğru yol almışıq. Prezident İlham Əliyevin dediyi kimi, əgər o zaman istəsəydik, daha da irəli gedərdik. Amma bir qədər də səbr etməyi, ermənilərin, nəhayət, ağıllanaraq, baş verənlərdən ibrət götürməsi üçün vaxt verməyi üstün tutduq ki, onların havadarları haqq işimizə ağız büzməsinlər. Sonra baş verənlər bunun müdrik addım, düzgün strategiya olduğunu sübut etdi. Onsuz da siyasi və iqtisadi cəhətdən çökən Ermənistan bu bivecliyinin, arxayınçılığının cəzasını ağır şəkildə ödəmək zorunda qaldı.

Mənfur düşmən axırda vəziyyətin son dərəcə ciddiləşdiyini görərək, dərhal xarici dövlətlərə, beynəlxalq təşkilatlara yalvarmağa başladı ki, ay aman, qoymayın, bizi diz çökdürürlər. Uzun xahiş-minnətdən sonra Azərbaycan rəhbərliyi bir daha sülhpərvərlik və humanizm prinsiplərinə sədaqətini nümayiş etdirərək, hərbi əməliyyatların dayandırılmasına razılıq verdi. Bir şərtlə ki, işğalçılar tezliklə şələ-küləlırini yığışdırıb torpaqlarımızdan rədd olsunlar. Təəssüf ki, ara sakitləşəndən sonra erməni faşizmi yenə də öz ampluasında qaldı, separatçılar Qarabağı tərk etmək istəmədilər. Nəticəsi də nankor qonşularımız üçün çox acınacaqlı oldu. Rəşadətli ordumuz 2020-ci ildə işğalda olan torpaqlarımızı qısa müddətdə bir-bir azad etdi. Bu dəfə də atəşkəsi ilk pozan erməni tərəfi idi. 2016-cı ilin aprel "dərs"indən – yaz "qulaqburma"sından ibrət götürməyən işğalçı ordunun başı üstündə 2020-ci ilin payız "şimşək"ləri çaxdı. Qarabağın və Şərqi Zəngəzurun hər tərəfində Azərbaycan bayraqları dalğalandı. Böyük itkilər verən düşmən noyabrın 10-da kapitulyasiya aktına qol çəkməli oldu beləliklə də onun ordusunun məğlubedilməzliyi barədə mif birdəfəlik dağıdıldı.

Böyük Zəfər oratoriyamızın prelüdü sayılan Aprel döyüşlərinin əsas özəlliyi budur ki, geniş bir ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli "Lələtəpə" yüksəkliyi bölmələrimizin nəzarəti altına keçib. Döyüş zamanı ermənilərə məxsus 30 tank, 15-dək artilleriya qurğusu və möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib, eləcə də düşmənin 500-dən artıq hərbçisi öldürülüb və yaralanaraq zəlil günə düşüb. Biz bu yüksəlişə Ali Baş Komandanımızın sərkərdəlik məharəti və igidlərimizin hünəri ilə nail olmuşuq. "N" saylı hərbi hissənin komandiri Şükür Həmidov və Xüsusi Təyinatlı Qüvvələrin polkovnik-leytenantı Raquf Orucovun qəhrəmanlıqları əsl dastana çevrilib.

**Şükür Həmidov** 1993-cü ildə 18 yaşında ikən Qubadlıdan didərgin düşərək ailəsi ilə Sumqayıta pənah gətirmişdi. Aprel döyüşləri zamanı "Lələtəpə"nin alınması zamanı xüsusilə fərqləndi, buna görə də Prezident İlham Əliyevin 20 aprel 2016-cı il tarixli sərəncamına əsasən Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

Polkovnik Şükür Həmidov 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsində də mərdliklə vuruşub, oktyabrın 22-də isə doğulub boya-başa çatdığı Qubadlı rayonunu düşməndən təmizləyərkən qəhrəmancasına həlak olub. Dəfn mərasimi zamanı dövlətimizin başçısı İlham Əliyev telefon vasitəsilə qəhrəmanın atasına dərin hüznlə başsağlığı verib. Mərasimdə iştirak edən Müdafiə naziri Zakir Həsənov isə



şəhidin tabutu üzərində olan Azərbaycan bayrağını əbədi xatirə olaraq onun ailəsinə təqdim edib. Şükür Həmidovun ölümündən sonra layiq görüldüyü "Zəfər" ordeni və medallar onun şərəfli döyüş yolunun nişanələridir...

Digər hərbi hissə komandiri **Rq uf Orucov** isə 2016-cı il aprelin ayın 4-də



Ağdərə rayonunun Talış kəndinin erməni işğalçılarından azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub. Ertəsi gün Sumqayıt Şəhidlər xiyabanında onun dəfn mərasimində minlərlə insan, Müdafiə Nazirliyinin üst rütbəli zabitləri iştirak ediblər. Ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olunan Raquf Orucovun düşmən arxasına keçərək erməni alay komandirinin oğlunu əsir götürməsi və bunun sayəsində əsir düşən 5 əsgərimizin xilas olmasından bəhs edən "Komandir", eləcə də ibrətamiz, şərəfli həyat yolunun qələmə alındığı "Murov qartalı" adlı maraqlı kitablar yazılıb...

İlk dəfə olaraq Qarabağ uğrunda Aprel döyüşləri işğal edilmiş ərazilərin azad olunması məsələsinin həllində Azərbaycan Silahlı Qüvvələrinin artan imkanlarını və qətiyyətini nümayiş etdirdi. Döyüşlər qısa müddət davam etsə də, əməliyyatlar zamanı burnu ovulan erməni ordusu strateji təşəbbüsü əldən verdi, onun sıralarında çoxsaylı fərarilik halları müşahidə edildi, inamsızlıq baş alıb getdi.

Ermənistanın ovaxtkı hərbi-siyasi rəhbərliyi Aprel döyüşlərindəki məğlubiyyətdən düzgün nəticə çıxara bilməməsi ilə özünün siyasi cəhətdən korafəhmliyini, bəsirətsizliyini dünyaya göstərmiş olsa da, Aprel hadisələrindən dərhal sonra bir sıra dövlətlərin və beynəlxalq təşkilatların Azərbaycanın işğal edilmiş torpaqlarının boşaldılması üçün təcavüzkara lazımi siyasi təzyiq tətbiq etmək istəməməsi, xüsusilə də başlıca missiyası münaqişənin sülh yolu ilə həllinə çalışmaqdan ibarət olan ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyəti 2020-ci ildə ermənilər üçün cəhənnəm girdabına çevrilən İkinci Qarabağ müharibəsinin alovlanmasına səbəb oldu.

...Hər il aprelin 1-də Milli Qəhrəman Şükür Həmidovun yaşadığım Sumqayıt şəhərindəki abidə-lövhəsini ziyarət edirəm. Bu, həm Aprel döyüşlərinin başlandığı, həm də qəhrəmanın dünyaya gəldiyi gündür. Fəxrlə xatırlayıram ki, polkovnik Həmidov 2016-cı ildə, öz doğum gününün gecəsi başlanan Aprel döyüşlərinin qəhrəmanı olub. Onun öncül iştirakı ilə Azərbaycan ordusu ermənilərin qurduğu keçilməz Ohanyan səddini cəmi 18 dəqiqəyə yara bilib.

Gənclik şəhərindəki Şəhidlər xiyabanında isə ölməz qəhrəman Raquf Orucovu da yad edirəm. Raquf hərbi xidməti dövründə həmişə ön cəbhədə Vətənə qulluq edib. Məzarının üstü daim gül-çiçək olan igid komandirin ruhuna ziyarətçilər böyük ehtiram göstərirlər.

Şükür Həmidov və Raquf Orucov da, onların Aprel döyüşlərində şəhadətə qovuşmuş 89 silahdaşı da təməli Zəfər salnaməmizin ilk sətirlərini qanları ilə yazıblar və hər biri misilsiz qəhrəmanlıq simvoluna çevrilib.

**Əli NƏCƏFXANLI,**
**XQ**

# Ermənistan şərti sərhəddə dayaq məntəqələri qurur

**Son zamanlar Ermənistan-Azərbaycan şərti sərhədinin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinin bölmələri və döyüş texnikasının cəmləşdirilməsi barədə 2024-cü il martın 31-də Müdafiə Nazirliyi tərəfindən rəsmi məlumat yayılıb.**

Bu barədə XQ-yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, şərti sərhədboyu Ermənistanın qoşunlarını cəmləşdirməsi və hücum xarakterli dayaq məntəqələrini qurması, müxtəlif istiqamətlərdə uzunmüddətli atəş nöqtələrini yaratması, fortifikasiya qurğularını inşa etməsi bölmələrimizin sərəncamında olan xüsusi texniki vasitələr və vizual müşahidə ilə qeydə alınıb.

Yeni inşa edilmiş dəmir-beton fortifikasiya qurğularında Ermənistan silahlı qüvvələrinin artilleriya sistemləri, digər hücum silahları və ağır atəş vasitələri yerləşdirilir.



"Bir daha bəyan edirik ki, Azərbaycan Ordusu tərəfindən Ermənistanın törədə biləcəyi hər hansı təxribatın qarşısı qətiyyətlə alınacaq, vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyi və onun havadarlarının üzərinə düşəcək", - deyə məlumatda vurğulanıb.

# Ordumuz qarşı tərəfin 200-dən çox qurğusunu məhv edib

**Azərbaycan Ordusu tərəfindən Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirlərinin ilkin mərhələsində Ermənistan silahlı qüvvələrinin səngər, atəş mövqeyi və dayaq məntəqələrində, eləcə də daimi dislokasiya yerlərində əvvəlcədən yerləri müəyyənləşdirilmiş izləmə-müşahidə vasitələri legitim hərbi hədəf olaraq sıradan çıxarılıb.**

Ermənistan silahlı qüvvələrinə məxsus 200-dən çox optik-elektron və müşahidə kameraları bölmələrimizin və mülki sakinlərimizin hərəkətini izləmək, onlara qarşı müxtəlif xarakterli təxribat fəaliyyətləri həyata keçirmək məqsədilə kustar üsulla hazırlanaraq 480 kilometrədək təmas xətti boyunca 10-15 və 20-30 metr hündürlükdə quraşdırılıb.

Qarabağ iqtisadi rayonunda kəşfiyyat vasitələrimiz tərəfindən müəyyən edilmiş Ermənistan silahlı qüvvələrinə məxsus optik-elektron və müşahidə kameraları ordumuzun arsenalında olan yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb.

**XQ**

Ekran qarşısında düşüncələr

# Faciələrimiz zamana və məkana sığışmır...

## *Bəs bu mövzu kinomuza niyə az gəlir?*

**Srağagün, 31 mart Azərbaycanlıların Soyqırımı Günü münasibətilə telekanalların birində növbəti dəfə "Dolu" bədii filmi verilirdi. Baxa-baxa təəssüflə düşündüm ki, bu mövzulu ekran işləri az olduğuna görə, hər dəfə eyni lentlər nümayiş etdirilir. Bəs, ideoloji təbliğatda kinonun şüurlara daha tez nüfuz edən vasitə olduğuna nəyə görə lazımi önəm vermirik?**

Ermənilərin zaman-zaman başımıza gətirdikləri müsibətlərin ekran təcəssümünü onların "genosid" və Qarabağ mövzusunda çəkib dünyaya yaydığı filmlərlə üzəvari müqayisədən də məlum olur ki, qarşı tərəfdən xeyli dərəcədə geridə qalırıq.

Yuxarıda adını çəkdiyimiz "Dolu", eləcə də "Yaddaş", "Fəryad", "Dönüş", "Zirzəmi", "Yalan", "Arxada qalmış gələcək", "Biz qayıdacağıq", "Canavar balası", "Xoca", "Yarımçıq xatirələr", "Sonsuz dəhliz", "13" və sair adlı filmlər Azərbaycan rejissorlarının ekranlaşdırdığı "barıt qoxulu" kinolentlərdir. Say azdır, sanbal da ki, heç də bütün filmlərdə istənilən kimi deyil. Qısametrajlı və ya sənədli filmlər var, amma tammetrajlı filmlər yox dərəcəsindədir. Həm Azərbaycanda, həm də beynəlxalq səviyyədə bu mövzuda acı həqiqətləri dünyaya çatdırmaq səylərimizi daha da artırmalıyıq.

Ermənistana gəlincə isə, tarixi təhrif etməkdə, yalanlar uydurmaqda usta olan işğalçı ölkədə istər qondarma 1915-ci il soyqırımı, istərsə də Qarabağ savaşı mövzusunda çox sayda filmlər üzə çıxır.

**Kinoşünas Sevda Sultanova qarşı tərəfin kino sənayesindəki üstünlüyünün səbəbləri ilə bağlı yazır:** "2006-cı ildə yaradılmış Ermənistan Milli Kino Mərkəzi qeyri-kommersiya hökumət təşkilatıdır, ölkənin Təhsil, Elm, Mədəniyyət və İdman nazirliyinin tərkibində fəaliyyət göstərir. Qurumun məqsədi, dövlətin kino sahəsində siyasətinin reallaşması, yerli kinematoqrafçılara maliyyə dəstəyi, milli kino mirasının təbliği və erməni filmlərinin beynəlxalq festival və kinobazarlarda təqdimatıdır. Milli Kino Mərkəzi kinoprodüserlər üçün təlim-təhsil proqramları tədris edir, gənc rejissorlar üçün müxtəlif layihələr həyata keçirir. Məsələn, mərkəz təzəlikcə Fransanın CNC (Centre National du Cinéma et de l'Image Animée) qurumu və Cité Internationale des Arts fondu ilə əməkdaşlıq çərçivəsində rejissorlar üçün qrant müsabiqəsi elan edib. Müştərək istehsalatı çoxaltmaq məqsədilə Kann, Berlin, Venesiya və digər nüfuzlu kino festivallarının kino bazarına müntəzəm qatılan mərkəz, Qərb kinoistehsalçılarına layihələrini tanıdır və tərəfdaşlar axtarır.

Film layihələrini dəyərləndirən ekspert komissiyasına təcrübəsi olan kinoprodüserlər, rejissorlar, ssenaristlər, operatorlar, film redaktorları, kinotənqidçilər üzv olurlar. Bir qayda olaraq, beynəlxalq kinofestivallarda iştirak etmiş, festivalların münsiflər heyətində yer almış, beynəlxalq mükafatlar qazanmış, istehsalat təcübəsinə malik, kino sahəsi ilə bağlı analitik məqalələr yazmış şəxslərə üstünlük verilir. Bundan başqa, ekspert komssiyasının üzvü ilə qohumluq əlaqəsi olan hər hansı şəxs müsabiqəyə qatıla bilməz". Əlbəttə, vacib şərtlərdir.

Ermənistanda kinoya dəstək verən digər qurum "Hayk" sənədli film kinostudiyasıdır. Hökumətin qərarı ilə studiya ötən il Ermənistan Milli Kino Mərkəzilə birləşib. Əgər Milli Kino Mərkəzi müxtəlif janrlı filmləri dəstəkləyirsə, "Hayk" studiyası, sənədli kinoya maliyyə yardımı göstərir. Bizimkilərdən fərqli olaraq, erməni diasporu da öz milli kinosuna dəstək verir, filmlərin istehsalında yaxından iştirak edir. Ümumerməni fondu "Ayastan" filmlərin bərpasında, təbliğində xüsusi fəallıq göstərir.

Ermənistan Milli Kino Mərkəzi 8 ildir ki, mərkəzi ofisi Strasburqda yerləşən, bədii, animasiya, sənədli filmlərə maliyyə dəstəyi verən, filmlərin müştərək istehsalını, prokatını təşkil edən, yayımına yardım göstərən "Eurimages" qurumunun üzvüdür. Bu üzvlük sayəsində ölkə, Avropa kino istehsalı şəbəkəsinə qoşulub, müştərək filmlərinin sayını artıraraq, dünya kino bazarına daha geniş daxil olmaq imkanı qazanıb.

İşğalçı ölkədə dövlət dəstəyi görən filmlərdə ideoloji məzmunlu milli mövzular üstünlük təşkil edir. Gəlin, Sevda Sultanovanın təqdimatında onların 109 ildən bəri uydurduqları "genosid"lə, eləcə də 30 il işğalda saxladıqları Qarabağın ermənilərin tarixi torpağı olması iddiasına bağlı olan, həm də çoxu beynəlxalq festivallarda nümayiş olunub və mükafatlara layiq görülən filmlərin qısa siyahısına nəzər salaq.

Erməni tarixi və 1915-ci il hadisələri: "Qurtuluş xəritəsi", "Bir çılğının hekayəsi" (Süjet xətti bir erməni terrorçusunun 1980-ci illərdə türk diplomatın qətlindən və bu qətlin 1915-ci il hadisələrindən qaynaqlandığından bəhs edir), "Arximandritin susması", "Zəng", "Uzun gecə", "Solomonun mahnıları", "Amerikalı", "Gizli xəritə", "İnqilab", "Avroranın doğuşu", "Amerikalı xoşməramlılar", "Tonratun, erməni tarixi qadınların dili ilə", "Tezeta", "Mərhəmətin qızıl zənciri" və sair.

Bunlar isə son 10-15 ildə düşmənin Qarabağda işğalçılıq siyasətinə haqq qazandıran filmlərdir: "Müharibə və sülh dövründə insan hekayələri", "Sərhəd", "Əgər hamı", "Yarıda qalmış uşaqlıq" və "Tevanik", "Xətt", "Son sakin", "Yeva" (İranın məşhur "Farabi" kino fondu tərəfindən çəkilib), "Cənnət qapısı", "Mənim yüküm", "Blokada", "Külək sakitləşərsə", "Müharibənin üzləri", "Suren", "Olub, olmayıb", "Luka" və s.

Ötən il çəkilmiş, birgə istehsal olan "Luka" öz vətənini işğaldan qoruyan snayper haqdadır. 2020-ci il istehsalı olan "Blokada" filminin süjetinə əsasən, Birinci Qarabağ müharibəsindən sonra Tovuz rayonu ilə sərhəddə yerləşən Çinari kəndində, guya, bizim milli ordumuz 20 dinc sakini qətlə yetirib. "Suren" filminin ötən il Rusiyada premyerası baş tutub. Süjetə görə, hadisələr 2020-ci ilin noyabrında Qarabağda baş verir. Rus hərbçisi 44 günlük müharibə zamanı Qarabağda yaşayan ermənilərin çıxarılması tapşırığını alır. Suren adlı erməni kənddən çıxmaq istəmir. Telefonla çəkilmiş "1489" sənədli filmində işğalçı əsgərin hekayəsi dünyaya "əzabkeş xalqın faciəsi" kimi təqdim edilir. 44 günlük müharibə haqda olan, Azərbaycana qarşı kadrların yer aldığı "Görünməyən respublika" filmi isə Amerika və Böyük Britaniyada prokata buraxılıb.



Yeri gəlmişkən, sadalanan erməni filmlərinin bir çoxu xarici ölkələrlə, o cümlədən, Fransa, Belçika, Rusiya, Litva, İsveç, Livan, Amerika, Almaniya, Bolqarıstan, Yunanıstan,Çexiya, İtaliya, Niderland ilə birgə çəkilib. Erməni kinosunun nüfuzlu kinofestivallarda iştirakı 74 faizə çatıb, təkcə 2023-cü ildə 10 erməni filmi 28 mükafat qazanıb. Bir film isə Oskarın qısa siyahısına düşüb. Hətta millətçi Qaregin Njde haqqında filmdə "əli" olan millətçi rejissor Ruben Qevorkyansın "Adalar" filmi İDFA sənədli kinofestivalının qalibi olub.

Ümid etmək istərdik ki, tezliklə Azərbaycanda da soyqırımı, Qarabağ mövzularına münasibət dəyişəcək və xeyli sanballı tarixi filmlər ortaya qoyulacaq. "Azərbaycanfilm" kinostudiyası ildə ən azı bir sanballı film çəkə bilər. Xüsusən də, paralel qurumlar olan Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) və Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı (ARKİ) rəsmi surətdə birləşəndən, Azərbaycan Kino Agentliyinin rəhbərliyi gücləndiriləndən sonra bunu ummağa haqqımız var.

***Əli NƏCƏFXANLI***
***XQ***

# İqtisadi əməkdaşlıq Azərbaycanı uzaq Çinlə yaxınlaşdırır

**Çinin innovasiyayönümlü investisiya imkanları respublikamız üçün mühüm önəm daşıyır. Başqa sözlə, bu, Azərbaycan iqtisadiyyatının diversifikasiya, innovasiya və transformasiyaya sadiqliyini, eyni zamanda, Şərqlə Qərbin kəsişməsində strateji mövqeyə malik ölkəmizin çinli sərmayədarları cəlb edə biləcək geniş imkanlara malik olduğunu təsdiq edir. Beləliklə, iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ticari–iqtisadi əlaqələrin inkişafını şərtləndirir. Təbii ki, bu şəraitin davamlı şəkildə formalaşması Azərbaycan–Çin arasında sərmayələrin təşviqi və qorunması, habelə ikiqat vergitutmanın qarşısının alınması üzrə imzalanan bir sıra sazişlərin, həmçinin texniki-iqtisadi əməkdaşlığa dair sənədlərin uğurla gerçəkləşdirilməsi ilə sıx bağlıdır.**



Yeri gəlmişkən, iki ölkə arasında münasibətlərin yeni mərhələyə daxil olmasında xüsusi yer tutan iqtisadi əlaqələrinin genişləndirilməsi, bu sahədəki problemlərin həlli məqsədilə yaradılan Hökumətlərarası İqtisadi Komissiya hər zaman səmərəli fəaliyyət göstərib. Xatırladaq ki, komissiyanın ilk iclası 2009-cu ilin mayında keçirilib. Bundan əlavə, 2012-ci il iyununda Pekin şəhərində Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi ilə Çinin Kommersiya Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Azərbaycan 2016-cı ildə Asiya İnfrastruktur İnvestisiya Bankına üzv olub.

Ölkəmizin "Bir kəmər, bir yol" layihəsinə verdiyi dəyər 2017-ci ilin oktyabrında Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı ilə təsdiqlənib. Çin hökuməti bu polad magistralın istifadəyə verilməsini, marşrutun tikintisində respublikamızın rolunu, eləcə də "Bir kəmər, bir yol" layihəsinə verdiyi dəstəyi daim yüksək qiymətləndirib.

Onu da qeyd edək ki, son illərdə Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müsbət dinamika nəzərə çarpır. 2022-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcminin əvvəlki illə müqayisədə 21 faizdən çox artması və keçən il dost ölkənin Azərbaycanın ticarət dövriyyəsində dördüncü sırada qərarlaşması da bunun bariz ifadəsidir.

Statistik məlumatlara əsasən, 2023-cü il ərzində respublikamızdan Çinə ixrac olunan məhsulların dəyəri 63,5 milyon dollara yüksəlib. Çindən Azərbaycana idxalın həcmi isə 1 milyard 556,2 milyon dollar olub. Beləliklə, ölkəmizə yönəldilən idxal məhsullarının 15,4 faizi Çinin payına düşüb və bu göstərici ilə Çin ikinci pillədə yer alıb.

Ölkələrimiz arasında iqtisadi əlaqələrin dinamik inkişafından bəhs edərkən, bir məqamı da xatırlatmaq istərdik. Belə ki, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanla birgə əməkdaşlıq, hər iki ölkənin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının səmərəli fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) ilə gerçəkləşdirilən layihələr, respublikamızın Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə fəal şəkildə qoşulması, eləcə də Şərq–Qərb, Orta Dəhliz layihələri çərçivəsində işgüzar münasibətlər, nəhayət, paytaxt Pekində Azərbaycan Ticarət Evinin uğurlu fəaliyyəti bu dövlətlər arasında yüksək iqtisadi göstəricilərin əldə olunmasını şərtləndirib.

Qeyd edildiyi kimi, Azərbaycan dost ölkə ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində də sıx əməkdaşlıq qurub. Hər iki dövlət tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırılıb.

Prezident İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibəsində müxbirin "Azərbaycanın "Bir kəmər, bir yol" kimi nəhəng infrastruktur layihəsini qısa müddətdə–307 günə icra etməsinə necə nail olub" sualına cavabında da bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı belə bir təşəbbüsün inkişafımızın sürətlənməsində mühüm rol oynadığını xatırladaraq Azərbaycanın belə bir regional bağlantının mərkəzində dayanmasının önəmli üstünlüklərini diqqətə çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: "Xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq–Qərb və Şimal–Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq…".

Ötən müddətdə dövlətimizin başçısının vurğuladığı kimi, ilk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün bu sahəyə geniş həcmdə investisiya qoyuldu, qonşularla bağlantı körpülərinin qurulması diqqətdə saxlanıldı. Beləliklə, "Bir kəmər, bir yol" layihəsi ilə bağlı ölkədaxili infrastruktur sistemi qısa zamanda gerçəkləşdi. Bununla da, sözügedən istiqamətdə sonrakı proseslərin sürətlə aparılmasına əlverişli zəmin yarandı.

Prezident İlham Əliyev belə bir fikir səsləndirərkən, hazırda görülən işləri nəzərdə tutur. Məsələn, indi Yeni Bakı Ticarət Limanı genişləndirilir, çünki bununla Şərqdən-Qərbə daşınan yüklərin həcminin artacağı təqdirdə yükaşırma problemlərinin qarşısı alınır. Başqa sözlə, Azərbaycanın mövcud ticarət infrastrukturu bir neçə il əvvəl fəaliyyətə başlayanda onun yükaşırma qabiliyyəti 15 milyon ton idi. Hazırda isə Yeni Bakı Ticarət Limanının imkanlarını 25 milyon tona qədər çatdırmaq qarşıya mühüm vəzifə kimi qoyulur. Bundan başqa, Xəzər dənizində daha çox gəmi tikintisi diqqətdə saxlanılır. İndi gəmiqayırma zavodunun ildə 20-dək gəmi inşa edəcəyi planlaşdırılır. Bu, həm Azərbaycanda, həm də Xəzər dənizində yükdaşımaya tələbat artması ilə bağlıdır. Ümumiyyətlə, hazırda Azərbaycan Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahibdir. Bu, ölkəmizin daha çox yük daşımaq imkanından xəbər verir.

Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan Azərbaycan Ticarət Evi "Made in Azerbaijan" brendinin Çin bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərir, bu sahədə əlaqələndirməni uğurla həyata keçirir. İqtisadiyyat naziri Mikayıl Cabbarov Ticarət Evinin açılışında vurğuladığı kimi, dost ölkədə sayca 4-cü ticarət evi olan bu iqtisadi-ticari mərkəz hazırda ticarət və mədəni mübadilə üçün dinamik platforma rolunu oynayır.

Onu da xatırladaq ki, dövlətimizin başçısının təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" kimi müəyyənləşdirilib. Bununla yanaşı, dövlətimizin başçısının tapşırığına əsasən, işğaldan azad olunan ərazilərdə "Yaşıl enerji" zonasının yaradılması nəzərdə tutulub. Bu baxımdan alternativ və bərpaolunan enerji sahəsində iki ölkə arasında böyük əməkdaşlıq potensialı mövcuddur və Azərbaycan tərəfindən bu sahəyə də çinli investorlar dəvət edilib.

Bu isə ölkəmizdə həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən birinin bərpaolunan enerji mənbələri potensialından səmərəli istifadənin gücləndirilməsindən ibarət olduğunu, sözügedən istiqamətdə ölkəmizin potensialının olduqca yüksək səviyyədə qərarlaşdığını göstərir. Yeri gəlmişkən, aparılan araşdırmalar da Azərbaycanın 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialının mövcudluğunu təsdiqləyir. Bunun 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür.

Hazırda ölkəmizin ümumi enerji istehsalında bərpaolunan enerjinin payı 17,3 faiz təşkil edir. Yuxarıda vurğuladığımız kimi, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsinə də xüsusi yer ayrılır. Belə ki, ümumi enerji istehsalında bərpaolunan enerjinin payının 2025-ci ildə 24 faiz, 2030-cu ildə isə 30 faizə çatdırılması nəzərdə tutulur.

Ötən müddətdə bütün dünyada, o cümlədən Avropada özünü etibarlı enerji tərəfdaşı kimi təqdim etməyi bacaran Azərbaycan artıq "yaşıl" keçid platformasının da əsas iştirakçılarından birinə çevrilib. Eyni zamanda, ölkəmizin alternativ və bərpaolunan enerji sahəsində zəngin potensialı, eləcə də mövcud əlverişli investisiya mühiti xarici şirkətlərin diqqətini getdikcə daha çox cəlb edib.

Təsadüfi deyil ki, hazırda bir sıra ölkələrin tanınmış şirkətləri tərəfindən Azərbaycanda bərpaolunan enerji sahəsində mühüm layihələr icra olunur. Bundan əlavə, ölkəmiz əcnəbi şirkətlərlə 10 qiqavat elektrik enerjisinin hasil edilməsi üzrə anlaşma memorandumları və sazişlər imzalayıb. Göründüyü kimi, Azərbaycan bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsi üçün artıq güclü beynəlxalq dəstək qazanıb.

Beləliklə, iki ölkə arasında bir çox sahələrlə yanaşı, alternativ və bərpaolunan enerji sahəsində də birgə fəaliyyət üçün böyük potensial və perspektivlər mövcuddur. Bərpaolunan enerji, o cümlədən külək və günəş enerjisinin istehsalı üçün lokallaşdırma sahəsində birgə layihələrin reallaşdırılması üçün potensial var və bu istiqamətdə işlər hazırda davam etdirilir.

***Vaqif BAYRAMOV***
***XQ***



## Avtomobil daşımaları 15 faiz artıb

**Bu ilin yanvar–fevral aylarında respublikada avtomobil nəqliyyatı ilə 1,791 milyon dollar dəyərində 875 min ton idxal-ixrac yükü daşınıb. Dövlət Gömrük Komitəsinin məlumatında daha sonra qeyd edilir ki, bu göstəricilər ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 7,1 faiz və 15,3 faiz çoxdur.**

Hesabat dövründə idxal olunan yükün dəyəri 6,3 faiz, həcmi 12,5 faiz, ixrac olunan yükün isə dəyəri 11,7 faiz, həcmi 20,2 faiz artıb.

## Kəlbəcər–Laçın avtomobil yolu Dəlidağı fəth edəcək

**İşğaldan azad olunmuş ərazilərdə inşaat işləri həyata keçirən Türkiyənin "Proyapı" şirkətindən bildirilib ki, uzunluğu 75,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu və onun üzərindəki tunellərin inşası 2025-ci ilin sonunda və yaxud 2026-cı ilin əvvəlində tamamlanacaq.**



Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2, 3 və 4 hərəkət zolaqlı olmaqla, birinci və ikinci texniki dərəcələrə uyğun olaraq inşa edilir.

Yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə ümumi uzunluğu 8 min 910 metr olan 66 dairəvi və 139 düzbucaqlı borunun, zəruri yerlərdə ümumi uzunluğu 4 min 179 metr olan 23 avtomobil körpüsünün və 1076 metr uzunluğa malik 3 qovşağın, həmçinin 4 min 248 metr istinad və 30 min 521metr daş divarın inşası işləri aparılır.

Kəlbəcər–Laçın avtomobil yolu başlanğıcını Kəlbəcərin Qamışlı kəndindən götürməklə Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və inşası aparılan Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcək.

***XQ***

Günün problemi

# Duracaqlar çoxalır, yerlər isə boş qalır...

## *Qiymətlərin yüksəkliyi bu xidmətin əlçatanlığını azaldıb*

**Xəbər verildiyi kimi, Bakının mərkəzindəki bəzi parkinq məntəqələrində avtomobillərin saxlanmasına görə yeni tariflər müəyyənləşdirilib. Belə ki, Azadlıq meydanındakı və "Qış parkı"ndakı yeraltı dayanacaqlarda, eləcə də Bakı Dəmiryol Vağzalının qarşısındakı ərazidə qiymətlər kəskin şəkildə artırılıb. Artıq aprelin 1-dən həmin dayanacaqlarda yeni tariflərin tətbiqinə başlanılıb.**



Yeni tariflərə əsasən, "Qış parkı" yeraltı dayanacağında gündəlik tariflər 2 saata qədər olan müddət üçün 1 manat, 2-4 saat üçün 2 manat, 4-6 saat üçün 3 manat, 6-10 saat üçün 4 manat, 10-12 saat üçün 5 manat, 12-24 saat üçün isə 8 manat müəyyənləşdirilib. Həmin ərazidə aylıq tariflər isə 12 saata görə 80 manat, 24 saata görə 120 manat, "Qonşular" tarifinə görə 50 manat təşkil edir. Xatırladaq ki, köhnə tariflər isə müvafiq olaraq 30, 60 və 20 manat məbləğində idi.

Azadlıq meydanındakı yeraltı dayanacaqda isə tariflər belədir: 1 saatadək 1 manat, 1-3 saat –2 manat, 3-6 saat – 3 manat, 6-12 saat – 5 manat, 12-24 saat – 10 manat ödəniş tələb olunacaq. Bundan başqa, sözügedən ərazi üzrə təklif olunan aylıq paketə görə hər gün 12 saat maşını park etmək üçün 100, 24 saat üçün 140 manat, "Qonşular" paketinə görə isə 75 manat ödəniləcək.

Bakı Dəmiryol Vağzalı qarşısındakı ərazidə avtomobillərin park edilməsinə görə isə fantastik qiymətlər müəyyənləşdirilib. Belə ki, avtomobilini həmin ərazidə park etmək istəyən vətəndaşlar 15-30 dəqiqə üçün 1 manat, 30-60 dəqiqə üçün 2 manat, 1-2 saat üçün 4 manat, 2-3 saat üçün 6 manat, 3-5 saat üçün 10 manat, 5-7 saat üçün 14 manat, 7-10 saat üçün 18 manat, 10-15 saat üçün 22 manat, 15-20 saat üçün 26 manat, 20-24 saat üçün 30 manatından keçməlidirlər. Bununla yanaşı, hər növbəti sutka üçün isə 30 manat nəzərdə tutulur.

Məsələyə aydınlıq gətirən "Azərbaycan Dəmir Yolları" (ADY) QSC-dən bildirilib ki, Bakı Dəmiryol Vağzalının Süleyman Rəhimov küçəsi ilə Mirəli Qaşqay küçəsinin kəsişməsində ("28 May" metro stansiyasının yuxarı hissəsi) yerləşən avtomobil parklanma ərazisi vağzala gələn sərnişinlərin qarşılanma və yola salınma zonası kimi fəaliyyət göstərilməsi səbəbindən avtomobillər üçün parkinq tarifləri müəyyən edilib. ADY-dən verilən məlumata görə, sözügedən ərazi sərşinlərin qarşılanması və yola salınması zonası olduğu üçün avtomobillərin ilk 15 dəqiqə ərzində ödənişsiz park edilməsinə şərait yaradılıb. Həmin zonada isə 72 avtomobili parkinq etmək mümkündür. 15 dəqiqədən artıq digər məqsədlərlə ərazidə avtomobil saxlamaq istəyənlər müəyyən edilən tariflərə uyğun avtomobillərini parkinq edə bilərlər. Tariflərin yüksək olmasına gəlincə isə, qurumdan bildiriblər ki, bu zonanın təyinatı, ilk növbədə, sərnişinlərin vağzal ərazisinə rahat daxil olmaları və çıxışını təmin etməkdir.

Ekspertlər yeni parkinq tariflərinin paytaxtda tıxacların müəyyən qədər azalmasına səbəb olacağını bildirsələr də, istənilən halda qiymətlərin bu şəkildə artırılmasının əleyhinədirlər. Bəzi ekspertlər isə bu sahədə Tarif (qiymət) Şurası tərəfindən tənzimlənilən qiymətlərin tətbiq olunmasını vacib hesab edirlər.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məsələ ilə bağlı açıqlama yayıb. Bildirilib ki, qurumun balansında olan yeraltı parklanma məntəqələrində aylıq tariflərə əsasən qiymətlər bir gün üçün 1 manat 66 qəpik–4 manat 66 qəpik arasında dəyişirdi. Hətta ən yüksək aylıq tariflə bir saata görə ödəniş 20 qəpik təşkil edirdi. Bu da parklanma fəaliyyətindən daxil olan vəsaitlərin mövcud xərcləri tam qarşılamağa imkan vermirdi. Belə ki, parklanma məntəqələrində mövcud avadanlıqlar (lift, eskalator, ödəniş terminalları, yanğından mühafizə sistemi və s.) qeyri-qənaətbəxş vəziyyətdədir, təmiri və yenilənməsi üçün əsaslı vəsait qoyuluşu tələb olunur. Bu səbəbdən də yaranan zərərin azaldılması, eləcə də əhaliyə göstərilən xidmət səviyyəsinin artırılması məqsədilə mövcud tariflərin dəyişdirilməsi məqsədəuyğun hesab edilib.

Amma sürücülər heç də belə düşünmürlər. Avtomobil sahiblərinin əksəriyyəti parkinq tariflərinin kəskin yüksəlməsindən narazıdırlar. Onlar deyirlər ki, AYNA-nın parkinq xidmətlərinə görə müəyyənləşdirdiyi yeni tariflər onları qətiyyən qane etmir. Çünki qiymətlərin birdən-birə bu dərəcədə artırılması, necə deyərlər, onların cibinə uyğun deyil. Qiymət artımının onların ailə büdcəsi üçün əlavə yük olduğunu bildirən sürücülərin sözlərinə görə, bu onların dolanaşığına mənfi təsir göstərəcək.

Xüsusən də bu məbləğ daimi işə gedib-gələnlərə yaxşı heç nə vəd etmir. Belə ki, həmin vətəndaşlar nəqliyyat vasitələrinin park edilməsi üçün əvvəllər ay ərzində 30 manat ödəməli olurdularsa, indən belə, təqribən, 100-120 manatından keçməli olacaqlar. Bu səbəbdən də söhbət etdiyimiz sürücülərin əksəriyyəti işə gedib-gələrkən yalnız ictimai nəqliyyatdan istifadəyə edəcəklərini bildirdilər. Bu isə ictimai nəqliyyatda, xüsusən də marşrut avtobuslarında günün pik saatlarında müşahidə olunan sıxlığın bir qədər də artmasına gətirib çıxaracaq. Heç şübhəsiz, bu məsələdən AYNA-dakılar də xəbərsiz deyillər. Odur ki, qurum problemdən çıxış yolunu tapmalı, ictimai nəqliyyatda olan kəm-kəsirləri ən qısa müddətdə aradan qaldırmalıdır.

### Ekspert rəyi



**Eldəniz CƏFƏROV, avtomobil nəqliyyatı üzrə ekspert**

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə qiymətlər fərqli şəkildə tənzimlənir. Təbii ki, inkişaf etmiş ölkələrdə qiymətlər daha ucuz olur. Ötən il Nazirlər Kabineti parklanma ilə bağlı olduqca ədalətli, sosialyönümlü qiymətlər müəyyən edib və bu, hər kəsin cibinə uyğundur. Hətta şəhər ətrafına getdikcə parklanma pulsuz olur. Eyni zamanda, bazar günləri də parklanma ödənişsizdir.

Yeri gəlmişkən, parklanma yeri ilə avtodayanacağın fərqi var. Belə ki, avtodayanacaqlar, əsasən, uzun müddətə nəzərdə tutulur. Onların aylıq tarifləri olur. Dəmiryol vağzalının ətrafındakı parklanma ərazisinə gəldikdə isə, dövlətə məxsus yerdə parklanma qiymətləri Nazirlər Kabinetinin qərarına əsasən tənzimlənməlidir. Parklanma qiymətləri dövlətin mövcud sosialyönümlü siyasətinə zidd olmamalıdır. Xüsusən də əlilliyi olan insanlar, eləcə də inkluzivlik nəzərə alınmalıdır. Mən də sosial şəbəkələrdə qiymətlərin baha olması ilə bağlı ictimaiyyətin narazılıqlarının şahidi oluram. Bundan əlavə, haradasa parklanma yerlərinin, hansısa küçələrin bağlanması sahibkarlığa da ziyan vurur. Düşünürəm ki, bu məsələdə cəmiyyətin fikri nəzərə alınmalıdır.

Vətəndaşların narazılığına gəldikdə isə, bu təkcə qiymətlə bağlı deyil, həm də parklanma yerinin məhdudlaşdırılmasına görədir. Çünki əvvəl 28 May metrosunun yanında Dəmiryol vağzalının böyük parklanma ərazisi var idi. Nədənsə ora bağlandı. Ona görə də belə ajiotaj yaranıb. İndi yaradılan yeni parklanma yeri kifayət qədər geniş deyil. Düşünürəm ki, dəmir yolu vağzalının ərazisində olan parklanma yerləri yenidən fəaliyyət göstərməlidir. Göründüy kimi, hazırda Bakı şəhərində parklanma yerlərinə tələbat kəskin artıb. Bunun da əsas səbəblərindən biri Bakının mərkəzi küçələrində olan parklanma yerlərinin ləğv edilməsi və həmin ərazilərə avtomobillərin girişinə qadağa qoyulmasıdır. Belə olan halda, təbii ki, bir ərazidə parklanma yerləri ləğv edilirsə, digər yerlərdə avtomobil dayanacaqlarına tələb kəskin artır. Çox təəssüf ki, bəzən tələb artdıqda həmin parklanma yerləri və yaxud dayanacaqların da qiyməti kəskin yüksəlir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***




**Dünyada əhalinin sayının artması və qlobal problemlərin çoxalması nəticəsində "yaşıl enerji"dən istifadəyə tələbat getdikcə yüksəlir. "Yaşıl enerji" istehsalı ekoloji fəsadlar yaradan karbon emissiyasının minimuma endirilməsində, ekoloji çirklənmənin qarşısının alınmasında və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.**

# "Yaşıl enerji" qlobal problemlərin həllinə "yaşıl işıq" yandırır

## "Yaşıl enerji" – yeni tarixi dövr

"Yaşıl enerji"nin istehsalı üçün yeni texnologiyaların tətbiqi XX əsrin 70-ci illərindən etibarən populyarlıq qazanmağa başlayıb. "Yaşıl enerji" və yaxud "yaşıl iqtisadiyyat" konsepsiyası isə 1991-ci ildə britaniyalı iqtisadçı Maykl Ceykobs tərəfindən irəli sürülüb. M.Ceykobs "yaşıl enerji"nin mahiyyətini, xüsusilə, ətraf mühitin qorunmasında rolunu "Yaşıl iqtisadiyyat: ətraf mühit, davamlı inkişaf və gələcəyin siyasəti" adlı kitabında ətraflı şərh edib. Onun ideyaları 2008–2013-cü illəri əhatə edən ümumdünya maliyyə-iqtisadi böhranı zamanı və ondan sonrakı dövrdə geniş yayılıb. Beləliklə, "yaşıl iqtisadiyyat"ın inkişafı, onun tərkib hissəsi kimi "yaşıl enerji"dən istifadə olunması ekoloji riskləri və çatışmazlıqları azaldan vasitələrdən biri kimi aktuallaşıb.

Müasir dövrdə ekoloji şüurda "yaşıl enerji"dən istifadənin vacibliyi ideyasının getdikcə özünə mühüm yer tutmasının səbəbləri aşağıdakılardır:

• "yaşıl enerji"dən istifadə iqlim dəyişikliyini azaltmağa və qlobal istiləşməni məhdudlaşdırmağa kömək edir;

• "yaşıl enerji" sənayesinin inkişafı nəticəsində yeni iş yerləri yaranır ki, bu da davamlı inkişaf üçün vacib amillərdən biridir;

• "yaşıl enerji"dən istifadə havanın keyfiyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayır;

• "yaşıl enerji"yə keçid bu sahədə yeni yanaşmaların və texnologiyaların tətbiqini stimullaşdırır.

Dünyada enerji istehlakına tələbat artır ki, bu da enerji təchizatı modelinin təkmilləşdirilməsini və dayanıqlığını tələb edir. Enerji təchizatı zəncirində karbon emissiyasının təsirinin azaldılması və iqlim dəyişikliyinə səbəb olan faktorların qarşısının alınması vacibdir. Dünyanın müxtəlif ölkələrində bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalının həcmi artır və bu prosesin yaxın gələcəkdə daha da sürətlənəcəyi proqnozlaşdırılır.

Mütəxəssislərin proqnozlarına əsasən, 2030-cu ilə qədər bərpaolunan mənbələrdən və yaxud "yaşıl enerji"dən alınan elektrik enerjisi dünyada elektrik enerjisi istehsalının 65 faizini təmin edəcək. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin hesablamalarına görə, 2050-ci ilə qədər dünyada elektrik enerjisinin 90 faizi bərpaolunan və yaxud "yaşıl enerji" mənbələrindən əldə edilə bilər. Karbon qazı emissiyası qlobal səviyyədə 2050-ci ilə qədər 70 faiz azaldılacaq ki, bu da iqlim dəyişikliyinin qarşısının alınmasına kömək edəcək. İlk növbədə, külək və günəş enerjisi hesabına elektrik enerjisi istehsalında sürətli artım olacaq. Bunun əsasən, Qafqaz, Mərkəzi Asiya, Şərqi və Cənub-Şərqi Avropada baş verəcəyi bildirilir.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin proqnozlarına görə, alternativ enerji mənbələrinə keçid karbon qazı emissiyasının azaldılması ilə yanaşı, sosial-iqtisadi inkişafa təkan verəcək. Qlobal iqlim dəyişikliyinin qarşısının alınması üçün 2050-ci ildən sonrakı dövrdə karbon qazı emissiyasının minimum həddə endirilməsi nəzərdə tutulur. Hidrogen və sintetik yanacaqlar, birbaşa elektrikləşdirmə, bioyanacaqlar innovativ biznes modellərinə və bu sahədə struktur dəyişikliyinə ciddi təsir göstərəcək.




"Yaşıl enerji"dən istifadə həm də insanların sağlamlığı üçün əhəmiyyətlidir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada hər il 13 milyondan çox ölüm halları havanın çirklənməsi ilə bağlıdır. "Yaşıl enerji" ekoloji cəhətdən, eləcə də iqtisadi baxımdan əlverişlidir. Bu cür enerji mənbələrindən istifadə edilməsi üçün səmərəli texnologiyaların tətbiqi enerji təchizatının şaxələndirilməsi yolu ilə enerji təhlükəsizliyinin gerçəkləşdirilməsi üçün vacibdir.

Qlobal enerji problemi dünyada enerji resurslarına artan tələbatın davamlı şəkildə ödənilməsini şərtləndirir. Dünya Enerji Şurasının irəli sürdüyü "enerji trilemması" adlanan konsepsiyada enerji təhlükəsizliyi, əlverişli enerji təchizatı və ekoloji sabitlik arasında tarazlığın yaradılmasına xüsusi diqqət yetirilir. Qlobal enerji təhlükəsizliyi özündə milli və xarici mənbələr hesabına enerji təchizatının səmərəli təşkili, enerji infrastrukturunun etibarlılığı və enerjiyə tələbatın lazımi səviyyədə ödənilməsini ehtiva edir.

Dünyada iqlim dəyişikliyinin dağıdıcı risklərinin və enerji təhlükəsizliyinə təhdidlərin qarşısının alınması üçün növbəti 30 il ərzində qlobal enerji sistemində dərin və sistemli transformasiyaların baş verəcəyi proqnozlaşdırılır. 2030-cu ilə qədər qlobal istiləşmənin qarşısını almaq üçün illik 5,7 trilyon ABŞ dolları həcmində sərmayə qoyuluşu tələb olunur. 1,5°C qlobal istiləşmə strategiyasına uyğun olaraq 2030-cu ilə qədər xeyli sayda əlavə iş yerinin yaradılması da proqnozlaşdırılır.

"Yaşıl enerji"dən istifadə enerji qiymətləri, enerji təhlükəsizliyi və iqlim böhranı ilə bağlı məsələlərin həllinə mühüm təsir göstərir. Bərpa Olunan Enerji Mənbələri üzrə Beynəlxalq Agentliyin enerji keçidinin rifah indeksinə görə, 1,5°C strategiyası qlobal rifahı əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Bu indeks göstərir ki, bərpaolunan enerjiyə keçidə dair yol xəritələrinin səmərəliliyi enerji siyasəti ilə sıx bağlıdır, burada ölkədaxili və beynəlxalq tənzimləyici qərarların qəbulu həlledici rol oynayır.

BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən sammitində qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də 17 əsas hədəf müəyyən edilib ki, onlardan da birini "ucuz və təmiz enerji" təşkil edir. Bu məqsədlə:

• əlverişli, etibarlı və müasir enerji təchizatına universal çıxışın təmin edilməsi;

• bərpaolunan mənbələrdən alınan enerji həcminin əhəmiyyətli dərəcədə artırılması;

• qlobal enerji səmərəliliyinin ikiqat artırılması;

• bərpa olunan enerji texnologiyalarına çıxışın asanlaşdırılması sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi;

• müasir və davamlı enerji təchizatı ilə bağlı infrastrukturun genişləndirilməsi, bu sahəyə dair texnologiyaların təkmilləşdirilməsi və s. nəzərdə tutulub.

Layiqli həyat standartlarının daha da yaxşılaşdırılması üçün ekoloji və iqtisadi baxımdan əlverişli olan enerji resurslarından istifadə mühüm əhəmiyyət daşıyır. Xüsusilə, "yaşıl enerji"dən istifadə enerji sisteminin karbonsuzlaşdırılması üçün aşağı və sıfır karbon texnologiyalarının tətbiqi baxımından vacibdir.

Hazırda dünyanın əksər regionlarında ən ucuz elektrik növü bərpaolunan enerji mənbələrinə əsaslanan elektrik enerjisidir. Xüsusilə, "yaşıl hidrogen"dən 2030-cu ilə qədər geniş istifadə olunmasına mühüm diqqət yetirilir. "Yaşıl hidrogen" elektroliz prosesi vasitəsilə külək və ya günəş enerjisi kimi bərpaedilən enerji mənbələrindən yararlanaraq istehsal olunan hidrogenin təmiz formasıdır. "Yaşıl hidrogen"dən istifadə olunması enerji təhlükəsizliyinin reallaşdırılması ilə yanaşı, havanı çirkləndirən karbon emissiyasının qarşısının alınması üçün əhəmiyyətlidir.

## Azərbaycanın "yaşıl enerji" strategiyası

"Yaşıl enerji"yə keçid Azərbaycan dövlətinin enerji siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Ölkənin enerji balansında "yaşıl enerji" mənbələrindən əldə edilən enerjinin payının getdikcə artırılmasına nail olmaq enerji sektorunda aparılan islahatların əsas məqsədlərindəndir. Azərbaycan "yaşıl enerji" sahəsində beynəlxalq təşkilatlar, müxtəlif ölkələr və sərmayəçilərlə fəal əməkdaşlıq edir.

"Yaşıl enerji" sənayesinin inkişafı üçün müvafiq normativ hüquqi aktlar qəbul edilir və institutsional tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasında bərpaolunan enerji mənbələrindən səmərəli istifadə ilə bağlı fəaliyyətin təşkilinin və tənzimlənməsinin təmin edilməsi üçün Prezident İlham Əliyevin 2020-ci il 22 sentyabr tarixli Fərmanı ilə Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılıb. Bərpaolunan və yaxud "yaşıl enerji" sahəsinin inkişaf etdirilməsi, bununla bağlı olaraq institusional mexanizmlərin formalaşdırılması üçün zəruri normativ hüquqi aktlar qəbul olunub ki, onların sırasında "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununu (2021-ci il) mühüm yer tutur.

Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 2019-cu il 29 may tarixli Sərəncamından irəli gələrək, bərpa olunan enerji sənayesinin inkişaf etdirilməsi üçün xarici sərmayəçilərin cəlb edilməsinə xüsusi diqqət yetirilir. Bu məqsədlə Beynəlxalq Maliyyə Korporasiyası ilə "Azərbaycanda dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi" hazırlanıb və Anlaşma Memorandumu imzalanıb. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 may tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı" təsdiq edilib. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bərpaolunan enerji mənbələrindən istifadənin artırılması, bioenerji və geotermal enerjidən istifadə imkanlarının genişləndirilməsi ilə bağlı fəaliyyət istiqamətləri müəyyənləşdirilib.

Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "yaşıl enerji" məkanının yaradılmasına böyük əhəmiyyət verilir. Sənəddə "yaşıl texnologiyalar"ın tətbiqinin genişləndirilməsi, elmi-texniki potensialı quruda 135 QVt, dənizdə 157 QVt təşkil edir. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, külək enerjisi üzrə 3 min MVt, günəş enerjisi üzrə 23 min MVt, bioenerji potensialı 380 MVt, dağ çaylarının potensialı isə 520 MVt həcmindədir.

Qarabağ və Şərqi Zəngəzur, həmçinin Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonaları elan olunub. Bu ərazilər yüksək potensiala malik olan "yaşıl enerji" mənbələrinə malikdir. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Tərtərçay və Həkəri kimi çayların qollarında böyük hidroenerji imkanlar mövcuddur. Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında texniki potensialı 7200 MVt-dan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şərait var. İlkin proqnozlara görə, Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisi 2 min MVt həcmində texniki potensiala malikdir. Kəlbəcər və Şuşa rayonlarında geotermal enerji mənbələrindən "yaşıl enerji" kimi istifadə olunması imkanları mövcuddur. Bundan əlavə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bioenerji kimi bərpaolunan enerji potensialı var.

Naxçıvan Muxtar Respublikasında ümumi gücü 39 MVt olan günəş elektrik stansiyaları fəaliyyət göstərir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvanda "Yaşıl enerji zonası"nın yaradılmasını nəzərdə tutan kompleks tədbirlər öz əksini tapıb. Naxçıvanda "yaşıl enerji" istehsalının inkişaf etdirilməsi məqsədilə "Nobel Energy Management", "TotalEnergies" və "A-Z Czech Engineering" kimi şirkətlərlə müqavilələr imzalanıb.



Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Böyük Britaniyanın "bp", Avstraliyanın "Fortescue Future Industries", Yaponiyanın "TEPSCO", İtaliyanın "Maire Tecnimont", Çinin "China Gezhouba Group Overseas Investment", Fransanın "Total Energies" və digər xarici şirkətlərlə Azərbaycanda bərpaolunan enerji istehsalına dair müqavilələr imzalanıb. Bundan əlavə, Azərbaycanda bərpaolunan enerji sahəsinin inkişaf etdirilməsi məqsədilə Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı kimi beynəlxalq-maliyyə təşkilatlarının dəstəyi ilə layihələrin həyata keçirilməsinə başlanılıb.

Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerji həcminin 3 dəfə və enerji səmərəliliyinin 2 dəfə artırılması ilə bağlı qlobal təşəbbüsə qoşulub. Ölkənin əlverişli coğrafi mövqeyi və iqlim şəraiti "yaşıl enerji" istehsalı üçün geniş imkanlar yaradır. Külək, günəş, dağ çayları, biokütlə və geotermal su mənbələri hesabına bərpa olunan enerji istehsalı sahəsində böyük uğurlar əldə edilir. Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpaolunan enerji mənbələrinin istehlakda payının artırılması nəzərdə tutulur.

2022-ci ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Bu sənədə əsasən, Xəzər dənizində istehsal olunacaq "yaşıl enerji"nin Avropaya ixracı nəzərdə tutulub.

Azərbaycan dövləti qlobal problemlərdən biri olan iqlim dəyişmələrinin qarşısının alınması üçün ardıcıl siyasət aparır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə böyük hörmət və etimadının ifadəsidir. Bu qərarın qəbul olunmasında iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasətin böyük rolu var. Prezident İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü ilin Azərbaycan Respublikasında "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ətraf mühitin qorunmasına böyük diqqət və həssaslıqla yanaşmanın göstəricisidir.

"Yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycan dövlətinin enerji siyasətində əsas istiqamətlərdən biridir. Azərbaycan 2030-cu ilədək 5 min meqavat bərpaolunan enerji istehsalı potensialına malik olmağı planlaşdırır. 2023-cü ildə respublikamızda Qafqazın və Mərkəzi Asiya regionunun 230 meqavat gücündə ən böyük günəş elektrik stansiyası istifadəyə verilib və bu cür yeni stansiyaların tikintisi davam edir. Xəzər dənizindən Qara dənizə və Avropaya qədər uzanacaq "yaşıl enerji" elektrik kabelinin inşası istiqamətində mühüm işlər görülür.

Azərbaycanda "yaşıl enerji" istehsalının inkişafı perspektivləri regional və beynəlxalq əhəmiyyət daşıyan tədbirlərdə geniş müzakirə olunur. Məsələn, 2024-cü il martın 1-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib. Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb. Cənub Qaz Dəhlizi "yaşıl enerji" sahəsində vacib əməkdaşlıq platforması kimi çıxış edir. Bu layihə çərçivəsində "yaşıl hidrogen"lə bağlı ölkələrarası dialoq mühüm önəm daşıyır ki, bu da təsadüfi deyil. Çünki "yaşıl hidrogen" istehsalı yeni iqtisadi imkanlar yaratmaqla enerji sektorunda innovativ texnologiyaların tətbiqini sürətləndirir.

Yuxarıda göstərilənlərdən bir daha aydın olur ki, "yaşıl enerji"yə keçid qlobal ekoloji problemlərin həllində əhəmiyyətli rol oynayır. Ekoloji fəlsəfədə "yaşıl enerji"nin xüsusiyyətləri insan-təbiət münasibətləri kontekstində öyrənilir. "Yaşıl enerji"yə keçid ekosistemdə dayanıqlığın və insanın tələbatları ilə təbiətin imkanları arasında tarazlığın təmin olunmasında böyük əhəmiyyət daşıyır.

"Yaşıl enerji" mənbələrindən enerji istehsalı iqlim dəyişikliyinin və qlobal istiləşmənin qarşısının alması üçün vacibdir. "Yaşıl enerji" istehsalı enerji təhlükəsizliyinin təmin olunmasında özünəməxsus yer tutur, yeni texnologiyaların və innovasiyaların inkişafına təkan verir. Azərbaycan Respublikası coğrafi baxımdan əlverişli "yaşıl enerji" potensialına malikdir və ondan səmərəli şəkildə istifadə edilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti aparılır.

*Vüqar SƏLİMOV,*
*fəlsəfə doktoru*

**2 Aprel Dünya Autizm Məlumatlandırma Günüdür**

**BMT 2 apreli Ümumdünya Autizm Günü elan etdikdən sonra dünyada məşhur olan "Autizm speaks" cəmiyyəti bu aksiya ilə əlaqədar "Mavi işıqla işıqlandır" layihəsini həyata keçirir. Hər il 2 apreldə dünyanın müxtəlif ölkələrində binalar autizmi simvolizə edən mavi rəngdə işıqlandırılaraq həmin tarixin Ümumdünya Autizm Günü olduğunu insanlara çatdırır. Məqsəd əhali arasında autizmlə əlaqədar maariflənməni artırmaq və autizmli insanların həyat keyfiyyətinin yaxşılaşdırılmasına kömək etməkdir. İlk dəfə 2010-cu ildə ABŞ-də həyata keçirilən "Mavi işıqla işıqlandır" layihəsi hazırda 6 qitənin 136 ölkəsinin 600 şəhərini əhatə edir.**

# Məsum uşaq dünyasının narahat və ağrılı guşəsi

## Lal-dinməz, özünə qapanan balaları tənha qoymayaq







Azərbaycan bu layihəyə Heydər Əliyev Fondu və BMT-nin Uşaq Fondunun (UNİSEF) dəstəyi ilə 2012-ci ildə Ümumdünya Autizm Günündə qoşulub. Həmin gün Bakı Biznes Mərkəzi mavi işıqla işıqlandırılıb. Qeyd edək ki, Nazirlər Kabinetinin təsdiq etdiyi "Əlilliyin və sağlamlıq imkanları məhdudluğunun müəyyən olunması meyarları"na autizm də daxil edilmişdir.

Autizmin yaranması ilə bağlı müxtəlif fikirlər söylənir. Bəziləri bunu uşağın ana bətnində infeksiyaya yoluxması, digərləri genetika ilə bağlı olduğunu, əksəriyyət isə səbəbinin elmə məlum olmadığını bildirirlər. Həqiqət isə budur ki, autizm sindromlu uşaqların sayı ötən illərə nisbətən artıb. Onların müalicəsi ilə dövlət və özəl müəssisələrdə mütəxəssislər məşğul olurlar. Müalicənin məqsədi uşağın sosiallaşması, emosianallığının aradan qaldırılması, cəmiyyətə inteqrasiya olunmasına yardım etməkdir.

**Belə müəssisələrdən biri – "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin və "Psixoloji Xidmət və Tədqiqatlar Mərkəzi" İctimai Birliyinin rəhbəri, psixologiya üzrə fəlsəfə doktoru Təranə Paşayeva ilə söhbətimiz də məhz bu mövzunu əhatə edir.**

**– Autizm nədir və bu sindrom kimlərdə müşahidə edilir?**

– Autizm spektr pozuntusu (ASP) psixioloji problem olaraq, erkən uşaqlıq dövründə özünü göstərir və sosial qarşılıqlı təsirlərdəki keyfiyyət anomaliyaları, nəzərəçarpacaq dərəcədə ünsiyyət bacarıqları çətinliyi və məhdud təkrarlanan davranışlar, maraqlar və fəaliyyətlər ilə xarakterizə olunur. ASP müxtəlif pozuntuları əhatə edir. Səbəbi, nədən yaranması hələ ki, elmə məlum deyil. Amma təəssüflə deməliyik ki, istər dünyada, istərsə ölkəmizdə autizm spektr pozuntusu olan uşaqların sayı getdikcə artır.

Qeyd edim ki, 10 ildir ki, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinə yetərincə bu problemlə əlaqədar müraciətlər olub. Doğrudur, hazırda müraciətlərlə bağlı dəqiq say söyləmək mümkün deyil, lakin xüsusilə, son dönəmlərdə müraciətlərin sayı yetərincə çoxalıb.

**– Dəqiq sayın olmaması nə ilə bağlıdır? Hansı regiondan daha çox müraciət var?**

– Bu gün ölkəmizdə autizm spektri pozuntusu olan insanlarla bağlı rəsmi statistika yoxdur. Amma maarifləndirmə layihələrini həyata keçirmək məqsədilə təşkil edilən tədbirlər istər dövlət, istərsə də özəl sektorda fəal şəkildə davam edir. Digər diqqət edilməli məqam isə, bu problemlərin yayılma regionudur. Sözsüz ki, mərkəzin filiallarına müraciətlər sırasında Bakı şəhəri üstünlük təşkil etsə də, hazırda bölgələrdə də bu problemlə əlaqədar müraciətlər çoxalıb.

Filiallar arasında daha çox Lənkəran filialı üstünlük təşkil etsə də, digər bölgələrdən də müraciətlər var. Acınacaqlı hal odur ki, onların sayı daha da artır. Hələ biz müraciət edənləri bilirik. Elə bölgələr var ki, valideynlər "hər şey keçib gedəcək"– deyə uşaqların fərqli davranışına, probleminə əhəmiyyət vermirlər. Bir psixoloq kimi müşahidələrim və bizə edilən müraciətlərin statistikası onu göstərir ki, bu sahədə maarifləndirmə işləri və vətəndaşların bilikləri yetərincə deyil.

**– ASP diaqnozu necə təyin edilib təsdiqlənir?**

– Bunu vurğulamalıyıq ki, kiçik yaşlı körpələrə bu diaqnoz qoyulmur. Autizm spektr pozuntusu diaqnozu 6 yaşı tamam olmuş uşaqlara qoyula bilər və yalnız bundan sonra diaqnoz üzrə həmin şəxsə dəstək göstərilməlidir. Günümüzdə hələ də bir qrup şəxslər psixoloq ilə psixiatrların fəaliyyətini eyni düşündükləri üçün kimə müraciət etmək lazım olduğunda çətinlik çəkirlər. ASP diaqnozu psixioloq tərəfindən yox, psixiatrlar tərəfindən qoyulur.

Bəzi valideynlər uşaqların problemlərinə laqeyd qalsalar da, bəziləri hər kiçik problemdə övladlarının autizm olduğunu düşünərək mütəxəssislərə müraciət edirlər. Həmin görüşdə verilən məlumatlardan sonra onlar uşaqdakı dəyişik hərəkət və davranışın əsil səbəblərini öyrənirlər. Bu da əsassız deyil, çünki erkən yaşlarda bir-birinə bənzər olan bir neçə psixoloji problem vardır ki, insanların bunun nə olduğunu müəyyən etməsində çətinlik çəkməsi normaldır.

**– Hansı əlamətlərlə bilmək olur ki, uşaqdakı problem məhz autizm spektr pozuntusudur?**

– Öncə də bildirdiyim kimi, bu gün autizm spektr pozuntusu ağırlığına və müxtəlifliyinə görə seçilir. Bütün pasiyentlərdə eyni əlamətlər müşahidə edilmədiyi kimi, onların terapiyası da eyni deyildir. Dərəcəsi və əlamətlərinə görə ASP yüngül, orta və ağır olmaqla 3 yerə bölünür.

Uşaqda spektr pozuntusunun hansı dərəcədə olması mütəxəssislər tərəfindən tətbiq edilən xüsusi test təlimatlarından sonra müəyyən olunur. Bir qayda olaraq ASP olan şəxslərdəki əlamətlər fərdə uyğun müxtəlif olsa da, ümumilikdə, eynidir. Bunlar sosial ünsiyyət və qarşılıqlı əlaqədə çatışmazlıqlar, qarşısındakı ilə göz təması qura bilməməsi, nitq inkişafında gecikmə, cisimlərin ayrı-ayrı parçalarına davamlı maraq, səslərə və hərəkətlərə reaksiya verməmək, insanlara deyil, cansız əşyalara daha çox maraq kimi aydın görünən əlamətlərdir.

Başqa sözlə, həmin uşaqlar qarşısında dayananların gözlərinə baxmır, onlara toxunmalarını sevmir, nitqi olmadığı və ya məhdud olduğu üçün istədiklərini deyə bilmədiyindən əziyyət çəkir və gündəlik cisimlərə maraqları fərqli olur. Nümunə olaraq deyə bilərik ki, belə uşaqlar ayaqqabıları, oyuncaqları bir istiqamətdə düz xətt üzrə düzür, paltaryuyan maşının barabanının dönməsini uzun müddət izləyir, oyuncaq avtomobilin təkərini davamlı olaraq fırlatmaqla məşğul olurlar. İstədikləri əşyanı barmaqla göstərə bilmirlər, yemə-içmə problemləri olur, səbəbsiz stresə meyilli olur, bəziləri çox inadcıl olurlar.

**– Müalicə necə aparılır, fərdi qaydada, yoxsa qrup şəklində? Öncədən hansı müddətə nəticə əldə ediləcəyi bilinirmi?**

– Mərkəzin mütəxəssisləri tərəfindən ASP diaqnozu qoyulan uşaqların ümumi vəziyyəti müəyyən edildikdən sonra fərdi terapiyalara başlanılır və müəyyən müddətə çatdıqdan, hər hansı nəticə əldə edildikdən sonra həmin pasiyentlərin cəmiyyətə sosial inteqrasiyası və adaptasiyası üçün qrup terapiyalarına cəlb edilir.

Autizm spektr pozuntusu elə bir psixoloji problemdir ki, burada tələsmək və səbirsizlik nümayiş etdirmək olmaz. Bəzən valideynlər hövsələsiz və həyəcanlı şəkildə qısa zamanda nəticə görmək istəyirlər. Təbii ki, bu anlaşılandır. Bir daha qeyd etmək istəyirəm ki, əlamətləri və ağırlıq dərəcələri hər bir müraciət edən pasiyentdə fərqli olduğu üçün terapiyaların müddəti də fərqlənir. Mülayim formada olan uşaqlarda bir neçə aydan sonra müəyyən nəticələr əldə oluna bilirsə, kəskin dərəcəlilərdə bu proses illərlə davam edə bilər.

Burada əsas məsələ uşaqların vəziyyəti, onların terapiyalara münasibəti, effektiv nəticə və səbirli olmaqdır. Şükürlər olsun ki, istər Bakıda, istərsə də regionlarda bizə edilən müraciətlərin demək olar ki, hər birində sonda uğurlu nəticələr əldə etmişik. Bu məsələdə uğur qazanmaq üçün mütəxəssislərlə bərabər, valideynlər də fəallıq nümayiş etdirməli, övladlarında psixoloji narahatlıqlar hiss edən kimi mütəxəssislərə müraciət etməlidirlər. Unutmayaq ki, onlar nə qədər tez dəstək alarlarsa, bir o qədər qısa müddətdə də yaxşı nəticələr əldə edilər.

Bəzən insanlar düşünürlər ki, ASP pozuntusunun həlli üçün psixoloqlar dərman vasitələrindən istifadə edirlər. Bu tamamilə yalnış formalaşan bir fikirdir. Psixoloqlar pasiyentə dərman müalicəsi yaza bilməz. Mərkəzimizin mütəxəssisləri tərəfindən bir qayda olaraq, belə uşaqlar üçün duyma hissini bütünləmə, müalicəvi idman, psixoloji, pedaqoji konsultasiyalar, terapiyalar keçirilir.

Sonda bildirməliyəm ki, valideynlər uşaqlarımızın sağlamlığı üçün bilikli olmalı, problemlərlə üzləşdikdə bundan utanıb gizlətməməli, ehtiyac yarandığı təqdirdə, bu sahənin mütəxəssislərindən dəstək almalıdırlar.

***

Ötən həftə sosial şəbəkə platformalarında Bakının iri ticarət mərkəzlərinin birində autizmli gəncin zorakılığa məruz qalması və göz nahiyəsindən xəsarətlər alması ilə bağlı xəbərlər yayıldı. Hüquq-mühafizə orqanları məsələyə reaksiya verdi. Araşdırmaya başlandı və bildirildi ki, araşdırmanın nəticəsinə uyğun hadisəyə hüquqi qiymət veriləcək.

Gəncin döyülməsi cəmiyyətdə birmənalı qarşılanmadı və əksəriyyət məsələnin araşdırılmasını istəyir. Çünki autizmli şəxslər cəmiyyətdə çox vaxt aqressiv münasibətə, bullinqə, şiddətə, fiziki zorakılığa belə məruz qalırlar.

Autizmli uşaqlara münasibət fərqlidir. İctimai yerlərdə fərqli insanlara yanaşma birmənalı deyil. Cəmiyyət olaraq həssas qruplara yanaşma necə formalaşdırılmalıdır? Sevgi, mərhəmət, yardımsevərlik kimi gözəl duyğular olduğu halda, həssas qrupa aid insanlara kobud münasibətin səbəbi cəmiyyətdə bu sahədə marifləndirmənin düzgün aparılmaması, onlara qarşı münasibətin valideynlər tərəfindən düzgün formalaşdırılmamasıdır.

Ölkəmizdə belə uşaqlara münasibət və onların valideynləri hansı qayğılarla üz-üzədir? Autizmli uşaqlarla bağlı nələri bilməliyik? Cəmiyyət olaraq autizmli uşaqlarla necə davranmalıyıq? Bu suallara cavab tapmaq üçün ekspertlərə müraciər etdik.

**Azərbaycan Autizm Assosiasiyasının sədri, Milli Məclisin deputatı Jalə Əhmədova bildirdi:**



– Cəmiyyətdə insanlar arasında aqressiv münasibət halları çoxalıb. Bu aqressiyanın səbəbi birmənalı şəklidə ailə və məktəbdir. Uşaq olanda valideynlər bizimlə başqa cür rəftar edir, ailədə, məktəbdə, ümumən cəmiyyətdə necə davranmaq lazım gəldiyini anladırdılar. İndi isə valideynlərin sosial problemlərə başı qarışdığından övladlarına bu yöndən məsləhətlər, davranış qaydaları ilə bağlı məlumat verə bilmirlər. Çünki, ümumiyyətlə, valideynlərin əksəriyyəti özləri autizmlə bağlı məlumatsızdır. Belə olan halda o övladına necə başa salacaq ki, autizmli uşaq, ya gənclə necə davranmaq lazımdır?

Assosiasiya rəhbəri olaraq valideynlərlə müzakirələr aparırıq. Bu müzakirələr zamanı nələri görürük? Əksər hallarda bu cür uşaqlara valideynlər daha çox aqressiv münasibət göstərirlər. Öz övladı ilə yanaşı durmasını belə istəmirlər. Hətta autizmli uşağın olduğu sinifdə oxumasını, onunla görüşməsini istəmir, psixologiyasına pis təsir edər kimi fikirlər səsləndirirlər. Hətta elə valideyn olub ki, ictimai nəqliyyatda autizmli uşağı qeri-iradi səslər çıxardığına görə onu digər sərnişinlər "uşağına tərbiyə ver, özünü aparmağı bacarsın" – deyə ittiham edib avtobusdan düşməyə məcbur ediblər. Valideyn onlara izah edə bilməyib ki, bu, tərbiyə ilə bağlı məsələ deyil, neyro fərqlilikdir.

Biz, assosiasiya olaraq hamımız çalışırıq ki, bu məsələyə böyük diqqət ayıraq. Hər il aprel ayında Autizm festivalları keçirilir. Bu məsələyə dövlət tərəfindən böyük qayğı var. Buna baxmayaraq, təəssüf ki, maarifləndirmə məsələlərində hələ də istədiyimiz səviyyədə deyilik. Düşünürəm ki, bu məsələdə valideyn, məktəb və səhiyyə bir yerdə fəaliyyət göstərməlidir. Biz autizm sindromu olanların əl işlərindən ibarət sərgilər təşkil edirik. Amma, baxın, görək, o sərgilərdə nümayiş olunan əsərlərdən, məmulatlardan nə qədər satılır? Deyərdim ki, çox cüzi miqdarda. Könüllülük prinsipi yoxdur. Amma, son dövrlərdə müşahidə edirik ki, bəzi müxtəlif qeyri-hökumət təşkilatları tərəfindən piar formasında bu uşaqlardan istifadə edilir, tədbirlər keçirilir. Bu məsələlər bir mərkəzdən idarə olunsa, belə olmaz.

**İnklüziv İnkişafa Dəstək Mərkəzinin mütəxəssisi Fərid Süleymanov:**



– Cəmiyyət gözəl bilir ki, əlilliyi olan şəxslər həssas qruplardır və onlar çox zaman müxtəlif problemlərlə üzləşirlər. Onlara xüsusi qayğı və diqqət göstərilməlidir. Bu problemləri görüb ictimai birlik olaraq autizmli şəxslər, ümumiyyətlə əlillik haqqında mütəmadi maarifləndirmə işləri aparırıq. Fəaliyyətimizin əsas ana xəttini ictimai maarifləndirmə təşkil edir. Çünki problemlər, uşaqlara münasibət məlumatsızlıqdan yaranır. Autizm nədir, fərqli neyroinkişaf nədir– bunu cəmiyyətdə çox az adam bilir. Ona görə də kütləvi maarifləndirməyə önəm verməliyik. Bilməliyik ki, bütün autizmli uşaqlar fərqlidirlər və bizdən biridir. Fərqliliyi o insan hiss edir ki, onun autizmlə bağlı bilgiləri olsun.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin şöbə müdiri Sevinc Əmirova:**



– Nazirlik, istər əlilliyi olan şəxslər, istərsə də sosial müdafiəyə ehtiyacı olan, ümumiyyətlə, çətin həyat şəraitində olan şəxslərin hüquqlarının qorunması, sosial rifahının yaxşılaşdırılması və digər şəxslərlə bərabər cəmiyyətin həyatında iştirak etməsi ilə bağlı müxtəlif tədbirlər həyata keçirir. Əlilliyin qiymətləndirilməsindən başlayaraq, həm Bakı, həm də regionlarda yerləşən reabilitasiya müəssisələrində onların tibbi və psixoloji reabilitasiyaya cəlb olunması, sanatoriya-kurort yollayışları ilə, ünvanlı sosial yardımla təmin olunması və s. istiqamətlərdə geniş işlər həyata keçirilir.

Agentliyin nəzdində əlilliyi müəyyən edilmiş 18 yaşadək uşaqlar üçün sosial xidmət müəssisələri fəaliyyət göstərir. Orada 5 yaşından 18 yaşadək təhsilə cəlb olunmayan, əlilliyi olan şəxslər qəbul edilir və onlara sosial qulluq və xidmətlər göstərilir. Burada yalnız autizm spektr pozuntusu olan uşaqlar deyil, digər əqli gerilik kimi əlamətləri olan uşaqlar qəbul edilir.

Bölgələrdə çətin şəraitdə yaşayan ailələrin bu xidmətlərə əlçatanlığını təmin etmək məqsədilə sosial müəssisələrdə stasionar (yatılı) xidmət göstərilir. Regionlarda, həm də agentliyin sosial sifarişlər çərçivəsində Günərzi Qayğı Mərkəzləri və İcma əsaslı reabilitasiya mərkəzləri də fəaliyyətdədir. Burada əlilliyi olan uşaqların ailələri ilə psixioloji reabilitasiya məşğələləri təşkil edilir. Çalışırıq ki, stasionarlıqdan çıxaq, uşaqlar gün ərzində orada məşğələlərdə iştirak etsin, amma gecəni evində keçirsin. Amma valideyn himayəsindən məhrum olan uşaqlar mərkəzlərdə qalırlar.

Valideynlər üçün təlimlər təşkil edilir. Onların autizm spektri olan uşaqlarda valideynlik bacarıqlarının inkişafı məqsədilə biz onlayn olaraq mobil tətbiqlər də hazırlamışıq və valideynlərə istiqamətləndirmişik. Bu, "Autizm dərs" və "Övladını tanı" tətbiqləridir. "Autizm dərs" mobil tətbiqdə 500-ə yaxın onlayn dərs var. Valideynlər bu tətbiqlərdən həm uşaqlarını tanımaq, həm də onların bacarıqlarının formalaşdırılması istiqamətində yararlana bilərlər.

**Sosioloq Üzeyir Şəfiyev:**



– Bəşər tarixinə ekskurs etsək, görərik ki, müasir dövrdə sağlamlıq imkanları məhdud olanlara münasibət kökündən dəyişib. Elə dövr olub ki, sağlamlıq imkanları məhdud uşaqları doğulan kimi öldürüblər. Hətta, cahillik dövründə şikəst doğulan olanda, bunda kosmik əlaqələr axtarıblar, düşünüblər ki, belə uşaqlar Allahın qarğışı olaraq dünyaya gəlib. Amma bəşəriyyət inkişaf etdikcə baxışlar dəyişib.

Dünyada 1 milyarda yaxın sağlamlıq imkanı məhdud olan insan var. Azərbaycanda bunların sayı 500 minə yaxındır, onun da 60 min nəfərini uşaqlar və yeniyetmələr təşkil edir. Azərbaycanda 2 fevral 2021-ci ildə qəbul edilmiş Sosial iqtisadi inkişafa dair milli prioritetlərdə bir istiqamət də milli inklüzivliklə, onların cəmiyyətə inteqrasiyası ilə bağlıdır. Bununla bağlı həm qlobal müstəvidə, həm də ölkəmizdə struktur islahatlar gedir. Qanunvericilik bazası təkmilləşdirilir. Qeyd edim ki, sağlamlıq imkanları məhdud insanlara dövlət qayğısı olsa da, yetərli deyil. Bölgələrdə yaşayanların bu qayğı və diqqətə əlşatanlığını təmin etmək üçün daha genişəhatəli proqramlar hazırlanmalı, layihələr həyata keçirilməlidir.

Hazırda sağlamlıq imkanı məhdud uşaqların cəmi 20 faizi təhsillə əhatə olunub. Təhsil inteqrasiya və inklüziya üçün ilk və vacib şərtdir. Dövlət sağlamlıq imkanları məhdud olan uşaqlar üçün addımlar atır. Bəs valideynlər bu məsələdə nə dərəcədə aktivlik göstərirlər və maraqlıdırlar? Bəzi valideynlər var ki, övladlarını cəmiyyətə çıxarıb sosiallaşmasına yardım etmək əvəzinə, onu qohum-qonşudan belə gizlədirlər. Baxmayaraq ki, dövlət bunlar üçün hər şəraiti yaradıb, uşağı təhsildən yayındırırlar. Doğrudur, elə valideynlər var ki, sağlamlıq imkanı məhdud övladını təhsilə də cəlb edir, müxtəlif təlimlərdə, abilitasiya proqramlarında iştirakına da dəstək olur və o uşaqlarda bacarıq və vərdişlər formalaşır. Düşünürəm ki, cəmiyyətə bu qəbildən olan insanlarla necə davranmaqla bağlı sosial çarxlar vasitəsi ilə mesajlar ötürülməlidir. Azərbaycan cəmiyyəti, ümumiyyətlə, aqressiv deyil, əksinə, mərhəmətlidir, bölüşməyi, paylaşmağı, yardım etməyi bacarır.

Ekspertlərin fikrincə ölkəmizdə autizmli spektr pozuntulu şəxslərin sayı təxminən 6 minə yaxındır. Ona görə də cəmiyyətin hər bir üzvü autizmin nə olduğunu dərk etməli, belə şəxslərə qayğı ilə yanaşmalı, onların cəmiyyətə inteqrasiyasına yardım etməlidir.

***Zərifə HÜSEYNOVA***
***XQ***



**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra – Xidmət) adları çəkilən şəhərə və rayonlara (bundan sonra – müvafiq ərazi) əhalinin qayıdışı ilə əlaqədar mövcud mənzil fondunun qorunması və saxlanılması, yeni çoxmənzilli bina və fərdi yaşayış evlərinin tikintisinin təşkili, habelə onların idarə edilməsi, eləcə də müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Xidmət bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Xidmətin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Xidmətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Xidmət məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Xidmət Xankəndi şəhərində yerləşir.

**2. Xidmətin fəaliyyət istiqamətləri**

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək;

2.1.2. müvafiq ərazidə mövcud mənzil fondunun qorunmasını və saxlanılmasını təmin etmək;

2.1.3. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək həmin binaları, habelə müvafiq ərazidə mövcud mənzil fondunu müvəqqəti idarə etmək;

2.1.4. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatı idarə etmək;

2.1.5. müvafiq ərazidə abadlaşdırma və yaşıllaşdırma işlərini təşkil etmək;

2.1.6. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək.

**3. Xidmətin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək, o cümlədən bu tikinti işləri üzrə sifarişçi funksiyalarını həyata keçirmək;

3.1.2. qanunla müəyyən edilmiş qaydada yaşayış sahələrinin sahibləri müəyyən edilib onlara təhvil verilənədək müvafiq ərazidə mövcud mənzil fondunu qoruyub saxlamaq və müvəqqəti idarə etmək;

3.1.3. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaların qorunmasını və saxlanılmasını təmin etmək, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək bu binaları müvəqqəti idarə etmək;

3.1.4. idarə etdiyi çoxmənzilli binaları isti su və istiliklə təchiz etmək, həmin binaların istilik enerjisinə olan tələbatının ödənilməsini təmin etmək;

3.1.5. idarə etdiyi çoxmənzilli binalarda quraşdırılmış liftlərin işlək vəziyyətdə saxlanılmasını, cari və əsaslı təmirini həyata keçirmək, onların istismarına nəzarət etmək;

3.1.6. tikintisini təşkil etdiyi çoxmənzilli binaların idarə edilməsi, ümumi əmlakının (o cümlədən liftlərin) saxlanılması, cari və əsaslı təmiri üzrə xidmət və işlərə görə ödənilən haqqın daxil olduğu yaşayış sahəsinin saxlanılmasına və təmirinə görə haqq almaq;

3.1.7. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binalara və fərdi yaşayış evlərinə sakinlərin köçməsindən irəli gələn təşkilati və digər tədbirlər görmək;

3.1.8. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatın və mənzil-istismar sahələrinin yaradılmasını və idarə olunmasını təşkil etmək, mühəndis-kommunikasiya təminatı sistemlərinin saxlanılmasına, cari və əsaslı təmirinə, eləcə də istismarına nəzarət etmək, mənzil-kommunal infrastrukturunun inkişafını təmin etmək;

3.1.9. müvafiq ərazidə əhaliyə göstərilən kommunal xidmətlərin keyfiyyətinə və həcminə nəzarəti həyata keçirmək;

3.1.10. müvafiq ərazidə içməli su, kanalizasiya, elektrik və qaz şəbəkələri və qurğularının fasiləsiz işinin təmin olunmasına nəzarət etmək, bu sahədə təsərrüfat xidmətlərinin fəaliyyətini əlaqələndirmək;

3.1.11. idarə etdiyi çoxmənzilli binaların və tikintisini təşkil etdiyi digər obyektlərin, habelə müvafiq ərazidə sosial-mədəni obyektlərin qış mövsümünə istismara hazırlıq işlərinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.12. müvafiq ərazidə müqavilə əsasında isti su və istilik təchizatı xidmətlərini göstərmək və bu xidmətlərə (o cümlədən bu Nizamnamənin 3.1.4-cü yarımbəndində göstərilən hallarda) görə haqq almaq;

3.1.13. müvafiq ərazidə yaşayış məntəqələri ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması işini və yaşıllıqların mühafizəsini təşkil etmək;

3.1.14. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək;

3.1.15. müvafiq ərazidə məhəllələrin, küçələrin, meydanların, parkların və yaşıllıq zonalarının işıqlandırılması sisteminin istismara yararlı vəziyyətdə olması işini təşkil etmək;

3.1.16. Xidmətə ayrılan məqsədli vəsaitlər hesabına Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında müvafiq ərazidə sosial təyinatlı və digər obyektlərin tikintisinin təşkilini, onların tikintisi üzrə sifarişçi funksiyalarının yerinə yetirilməsini, habelə bu qaydada tikilmiş obyektlərin qorunmasını, saxlanılmasını və təyinatı üzrə istifadəsini təmin etmək;

3.1.17. müvafiq ərazidə bayramlara və digər əlamətdar hadisələrə, habelə anım günlərinə həsr olunmuş ictimai tədbirlər keçirmək, tərtibat işləri aparmaq və digər zəruri tədbirlər görmək;

3.1.18. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar digər dövlət orqanlarının (qurumlarının) sifarişi ilə aparılan tikinti işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.19. müvafiq ərazidə dövlət və bələdiyyə mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.20. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.21. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.22. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.23. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.24. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Xidmətin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.25. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.26. Xidmətə ayrılan büdcə vəsaitindən (o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün), kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.27. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Xidmətin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.28. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.29. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.30. Xidmətin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.31. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. müvafiq sahədə şəhərsalma sənədlərinə uyğun olaraq mövcud çoxmənzilli binalara və fərdi yaşayış evlərinə münasibətdə tikinti fəaliyyətini həyata keçirmək;

3.2.4. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.5. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.6. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.7. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.8. Xidmətin əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.9. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.11. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.12. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Xidmətin idarə olunması**

4.1. Xidmət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Xidmətin idarəetmə orqanları Müşahidə Şurası və İcraçı direktordur.

4.3. Müşahidə Şurası (bundan sonra – Şura) Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 5 (beş) üzvdən – Şuranın sədrindən və digər 4 (dörd) üzvdən ibarətdir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçi səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və müvafiq sənədlər (o cümlədən Xidmətin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. Xidmətin inkişaf istiqamətlərini, strateji məqsədlərini və planlarını müəyyən etmək;

4.7.3. Xidmətin fəaliyyətinə nəzarət etmək;

4.7.4. Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. Xidmətin təsərrüfat cəmiyyətlərinin yaradılması və onlarda iştirak barədə, həmçinin Xidmətin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. Xidmətin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.7. Xidmətin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə Xidmətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.8. İcraçı direktorun fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.9. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. Xidmətin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. Xidmətin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. Xidmətdə daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.14. Xidmətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.15. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4.8. Şuranın sədri rübdə azı bir dəfə Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İcraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın üzvlərinə, İcraçı direktora və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclaslarının nəticəsi Şura üzvlərinin və Şuranın katibinin imzaladıqları iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Protokol Şura tərəfindən təsdiq edilərək İcraçı direktora göndərilir.

4.14. Şuranın katibini Şuranın sədri Şura üzvü olmayan əməkdaşlar sırasından təyin edir və katib Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulan vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokolunu tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və İcraçı direktorun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İcraçı direktorun xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şura sədri müvəqqəti olmadıqda onun səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.18. Şuranın üzvləri:

4.18.1. Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.18.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılmaq barədə təkliflər verirlər;

4.18.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. Xidmətin cari fəaliyyətinə rəhbərliyi İcraçı direktor həyata keçirir. İcraçı direktor Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. İcraçı direktorun onun təqdimatı əsasında Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

4.21. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə onun müavini icra edir.

4.22. İcraçı direktor və onun müavini adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.23. İcraçı direktorun vəzifələri aşağıdakılardır:

4.23.1. Xidmətin fəaliyyətini təşkil etmək;

4.23.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4.23.3. Şuranın qərarlarını icra etmək;

4.23.4. aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.23.5. Xidmətin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.23.6. bu Nizamnamənin 3.1.26-cı yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.23.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4.23.8. bu Nizamnamənin 3.1.20-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.23.9. Xidmətin cari fəaliyyətinə rəhbərlik və onu təmsil etmək;

4.23.10. Xidmətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək;

4.23.11. Xidmətin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil etmək, yoxlamaq və buna nəzarəti həyata keçirmək;

4.23.12. özünün və Xidmətin struktur bölmələrinin qanunvericiliyə zidd olan qərarlarını ləğv etmək;

4.23.13. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Xidmətin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq etmək;

4.23.14. Xidmətin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil etmək;

4.23.15. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Xidmətin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul etmək;

4.23.16. Xidmətin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət etmək;

4.23.17. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Xidmətin adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təmin etmək;

4.23.18. Xidmətin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaratmaq;

4.23.19. Xidmətin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

4.23.20. Xidmətdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin etmək;

4.23.21. Xidmətdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin etmək;

4.23.22. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

**5. Xidmətin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Xidmətin nizamnamə fondunun məbləği 500 000 (beş yüz min) manatdır.

5.2. Xidmətin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Xidmət öz əmlakından yalnız Nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Xidmət balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Xidmət qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Xidmətin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Xidmətin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Xidmətin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısında nəzərdə tutulmuş mallarının (işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən qiymətlərə aiddir.

**6. Xidmətin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Xidmətin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Xidmətin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Xidmətin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. Xidmətdə uçot və hesabat**

7.1. Xidmət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Xidmət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Xidmət idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Xidmət öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Xidmətin ləğvi və yenidən təşkili**

Xidmətin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

(əvvəli 1-ci səhifədə)

Aİ dövlətlərinin hamısında AP-nin üzvləri proporsional qaydada seçilir. Vahid səsvermə proseduru yoxdur və səsvermə həm açıq, həm də qapalı siyahılar üzrə keçirilə bilər. Partiyalar üçün 2011-ci ilə qədər beş faizlik hədd var idi, lakin bu, qanuna zidd hesab edildi. İndi ölkələr özləri minimum həddi təyin edirlər. Hər bir seçici milli partiyalara səs verir, daha sonra seçilən namizədlər ideologiyaya görə Avropa fraksiyaları arasında bölüşdürülür. Bir qayda olaraq, milli partiyalar oxşar maraqları müdafiə edən fraksiyanı dəstəkləyir.

Bu gün AP-də 7 partiyanın fraksiyası təmsil olunub. Ən böyük fraksiya Avropa Xalq Partiyası (EPP) hesab edilir və onlar 178 yerə malikdirlər. Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı (S&D) 141 yerlə ikinci sıradadır. "Yenilənmiş Avropa" ("Renew") 101 yerlə üçüncü, İqlim gündəliyini və milli azlıqlasində – iyunun 6-dan 9-a kimi keçirilən ilk sorğudur.

"IPSOS" Avropanın COVID-19 pandemiyası ilə mübarizə apardığı və Rusiyanın Ukraynada həyata keçirdiyi xüsusi hərbi əməliyyatlarının nəticələrini – yanacaq böhranı, inflyasiya partlayışını hiss etdiyi təlatümlü 5 ilə baxmayaraq, AP-nin konfiqurasiyasında bir neçə dəyişiklik olacağını proqnozlaşdırır. Sorğulara görə mərkəzçi sağçılar çoxluğu saxlaya bilər, lakin ifrat sağçılar və avroskeptiklər hazırda Aİ-nin altı qurucu ölkəsindən dördündə lider olduqları üçün dəstək bazasını əhəmiyyətli dərəcədə genişləndirə bilərlər.

Hesabatdan görünür ki, ən etibarlı parlament çoxluğu Avropayönlü partiyaların "Böyük koalisiyası" olacaq. Onların 720 yerdən 398-nə sahib olacaqları ehtimal edilir. Proqnoza görə, bu çoxluq sağ mərkəzçi Avropa Xalq Partiyası, Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı və "Yenilənmiş ölkələrdə böhran əlamətləri göz qabağındadır və ümumiyyətlə, Aİ vətəndaşlarında ümumi yoxsulluq hissi var. Onların 64 faizi Aİ-nin sosial hüquqları qorumasını və sosial bərabərsizliyi azaltmasını tələb edir.

Seçicilərin üçüncü prioriteti iqtisadi artımdır. Respondentlərin 62 faizi AP-nin deputatlarından iqtisadi artımı stimullaşdırmaq üçün təsirli tədbirlər görmələrini tələb edirlər. İşsizliyə qarşı mübarizə isə qeyri-qanuni immiqrasiya ilə mübarizədən dərhal sonra gəlir.

Sosial məsələlər təkcə sol və sol mərkəzçi seçicilər üçün prioritet deyil. Mötədil mühafizəkarlar, mərkəzçilər, liberallar və sağçı seçicilər də əvvəlki seçkilərə nisbətən, daha çox Aİ-nin sosial və iqtisadi qanunvericiliyə müdaxiləsini tələb edirlər.

Sağçı mühafizəkar və ifrat sağçı seçicilərin kifayət qədər böyük əksəriyyəti inflyasiyaya qarşı tədbirlər görməyə çağırırlar. Bərabərsizlik və sosial mü-

# Avropanın "sağa dönüşü" qaçılmazdır




rın maraqlarını irəli sürən "Yaşıllar" /Avropa Azadlıq Alyansı (Greens — EFA) 71 üzvlə dördüncü, mötədil avroskeptiklər, anti-federalistlər sayılan "Avropa Mühafizəkarları və İslahatçıları" (ECR) 67 yerlə beşinci, sağ və ifrat sağçı siyasətçilər qrupu, avroskeptiklərin birliyi olan "İdentiklik və Demokratiya" (IID) 58 yerlə altıncı və nəhayət, kommunist baxışlı siyasətçiləri birləşdirən "Avropa Solçuları" ("The Left") 38 mandatlayeddinci yerdə qərarlaşırlar. Qalan 51 yeri isə müstəqil deputatlar tuturlar.

Avropa Xarici Əlaqələr Şurasının (ECFR) analitik mərkəzinin hazırladığı hesabatdan belə qənaətə gəlinir ki, Aİ-nin 9 ölkəsində bu yay keçiriləcək AP-yə seçkilərdə avroskeptiklər, güman ki, favorit olacaqlar. Söhbət Avstriya, Belçika, Çexiya, Fransa, Macarıstan, İtaliya, Hollandiya, Polşa və Slovakiyadan gedir. Daha doqquz ölkədə – Bolqarıstan, Estoniya, Finlandiya, Almaniya, Latviya, Portuqaliya, Rumıniya, İspaniya və İsveçdə isə sağçıların ikinci və ya üçüncü yerləri tutacağı ehtimal olunur.

ECFR-in proqnozuna görə, builki seçkilərdən sonra AP-dəki yerlərin demək olar ki, yarısına üç mərkəzçi fraksiyanın - EPP, S&D və "Renew"-in "super böyük koalisiyasına" daxil olmayan deputatlar sahib olacaqlar. Beləliklə, Avroparlamentdə ilk dəfə mühafizəkarların avroskeptiklər (ECR), ifrat sağçılar (İD) və müstəqil deputatlardan ibarət sağçı populist koalisiyası (EPP) yarana bilər.

Siyasi şərhçilər bildirirlər ki, belə köklü dəyişikliyin səbəbi, ilk növbədə Aİ ölkələrində dəyişən siyasi ab-havadır. İfrat sağçılar bir çox Avropa ölkələrində getdikcə daha ciddi gücə çevrilir və hətta hakimiyyətə gəlirlər. Hert Vildersin ifrat sağçı Azadlıq Partiyası (PVV) 2023-cü ilin noyabrında Hollandiya seçkilərində qalib gəlib. Oktyabrda Slovakiyada Robert Fitsonun rəhbərlik etdiyi "Kurs – Sosial Demokratiyadır" partiyası –populistlər qələbə qazanıb . 2022-ci ildə İtaliyada ifrat sağçı koalisiya hakimiyyətə gəlib.

Avroskeptiklərin populyarlığının artması Almaniyada da müşahidə olunur. Son sorğulara görə, ifrat sağçı AfD federativ respublikada artıq ikinci qüvvəyə çevrilib. Fransa və İspaniyada da sağçıların güclənməsi müşahidə olunur. Bütün bu ölkələr AP-də ən böyük milli kvotalara malikdirlər. ECFR ekspertləri etiraf edirlər ki, 2024-cü ildə bu tendensiya təkcə milli səviyyədə deyil, həm də ümumavropa səviyyəsində güclənəcək.

"Euronews"un sifarişi ilə keçirilən və 18 Avropa ölkəsində ilk belə araşdırma olan "IPSOS"un eksklüziv sorğusunda da qeyd edilir ki, növbəti parlamentdə ifrat sağçılara dəstək çoxalacaq, lakin avropapərəst partiyalar yenə də yerlərin 63 faizinə sahib olacaqlar. Bu eksklüziv sorğu, Aİ əhalisinin 96 faizini təşkil edən ölkələrdə demək olar ki, 26 min nəfərin iştirak etdiyi və seçkilər ərəfə-

Avropa" liberal fraksiyasına seçicilərin verəcəyi səslərin toplanması nəticəsində əldə edilir. Bununla yanaşı, hazırki çağırışda olduğu kimi, liderlik ənənəvi olaraq sağçılara çatacaq. Onlara nisbi əksəriyyət – 177 mandatın çatacağı güman olunur.

Sorğulardan o da aydın olur ki, AP-yə seçkilər ərəfəsində Aİ-nin təsisçilərindən dördündə ifrat sağçılar və ultra-mühafizəkarlar öndə gedirlər. Fransada Marin Le Penin "Milli Birlik" partiyası prezident Makronun partiyasını böyük fərqlə üstələyir. İtaliyada Meloninin "İtaliya qardaşları"nın qalib gələcəyi proqnozlaşdırılır. Hollandiyada parlament yarışında Herta Vildersin "Azadlıq Partiyası" son uğurunu təkrarlayacaq. Aİ institutlarının yerləşdiyi Belçikada separatçı ifrat sağçı "Flamand Maraqları ("Vlaams Belang") partiyası qalib gələcək.

Liberalların və "yaşıllar"ın göstəriciləri, xüsusən də onların bir vaxtlar "malikanələrinə " çevrilən Fransa və Almaniyada əhəmiyyətli dərəcədə azalacaq. Almaniyada "yaşıllar" yalnız üçüncü yerdədir və ifrat sağçı "Almaniya üçün Alternativ" (AfD) partiyası ilə bərabərdirlər. Eyni zamanda, XDİ birinci partiya olacaq, ASDP-dən olan Sosial Demokratlar isə 2-ci yerə keçəcəklər

Doğrudur, "IPSOS" sorğusu sadəcə riyazı hesablamadır və seçkidən sonrakı mürəkkəb ittifaqları proqnozlaşdıra bilməz. Digər koalisiyalar da həyat qabiliyyətli ola bilər, məsələn, müxtəlif çalarlı sağçı koalisiyalar. Lakin hər şey ultra-mühafizəkarlar və Avropa Xalq Partiyası arasında baş tutacaq çətin danışıqlardan asılı olacaq.

Bütün bunlara baxmayaraq, partiyaların və fraksiyaların AP-yə seçkilərdə qələbəsini təmin edən əsas qüvvə Avropa ölkələrinin vətəndaşlarıdır. Onların seçkilərdə milli namizədlərə və onların siyasi mövqelərinə münasibətindən çox şey asılı olacaq. Ona görə də bu seçkilər öncəsi Avropa vətəndaşlarının maraqlarının nəyə ünvanladığına da diqqət çəkmək lazım gəlir.

Günün reallığı ondan ibarətdir ki, iqtisadi qeyri-sabitlik, yüksək qiymətlər, sosial müdafiənin zəifləməsi Aİ ölkələrinin vətəndaşlarının həll etmək istədikləri əsas problemlərdir. "IPSOS"un "Euronews" telekanalının sifarişi ilə Avropanın 18 ölkəsində keçirdiyi sorğulardan da məlum olur ki, Aİ-də sosial istiqamətli siyasətə tələbat kəskin artıb.

Məsələn, sorğunun nəticələrinə görə, portuqalları, finləri ən çox yaşayış qiymətlərinin artması narahat edir. Amma təkcə onlar deyil, orta hesabla avropalıların 68 faizi Aİ-nin qiymət artımı problemini nəzərə almasını istəyir. Potensial seçicilərin isə yalnız 7 faizi üçün inflyasiya, ümumiyyətlə, prioritet deyil.

Qərbin təbliğat maşının hansı havanı çalmasından asılı olmayaraq, bu dafiəyə gəldikdə isə sol və sol mərkəzçi seçicilərin daha tələbkar olduqları açıq-aydın görünür.

Bir sözlə, sağa dönüş AP-nin qanunvericilik fəaliyyətini çətinləşdirə, həmçinin Aİ-nin daxili və xarici siyasətini dəyişə bilər. ECFR ekspertlərinin qeyd etdiyi kimi, bu, sağçı qüvvələr üçün heç də maraqlı olmayan "yaşıl gündəm"ə elə də böyük təsirə göstərməyəcək. Avropa Komissiyası və Aİ Şurasının xarici siyasətdə, o cümlədən Ukraynaya dəstək məsələsində qərar qəbul etmək qabiliyyəti təhlükə altına düşəcək. Yenidən Slovakiyanın baş naziri olmuş Fitso artıq bəyan edib ki, onun hökuməti Slovakiya biznes strukturlarından silah alınmasına qarşı olmasa da, Kiyevə hərbi yardım göstərməkdən imtina edir.

Ancaq AP-yə seçkilərdə sağların uğuru üçün təminat yoxdur, çünki bir çox seçicilər onların və avroskeptiklərin simasında bir növ hamıya qarşı çıxan namizəd görürlər. Əslində, sağçıların populyarlığının artmasına əsas səbəblərdən biri insanlarda etiraz əhval-ruhiyyəsinin yığılıb qalmasıdır. Yəni, bu etiraz əhval-ruhiyyəsi Avropada sağçı partiyalara meyli deyil, hakim qüvvələrin siyasətindən narazılığı əks etdirir. Nəticədə, səslər tənqidçi partiyalara gedir. Yəni, seçki üstünlükləri avroskeptiklərə keçir, ancaq bu, onların mütləq seçiləcəklərinə təminat vermir.

Avropa ekspertlərinin ümumi rəyi belədir ki, Aİ seçiciləri, ümumiyyətlə, seçkilərə ideoloji yanaşmadan uzaqlaşırlar. Əsas amil ideologiya deyil, narazılıqdır. Buna görə də son illərin beş əsas Avropa çağırışına – iqtisadiyyatın pisləşən vəziyyəti, pandemiyanın nəticələri, Ukraynadakı münaqişə, iqlim dəyişikliyi və miqrasiya böhranına münasibətdir. Avropanın gələcəyi onların təklif etdiyi həll yollarından asılıdır.

Ona görə də ECFR-nin son hesabatının müəllifləri Avropa elitalarını sağçıların artan populyarlığına diqqət yetirməyə çağırırlar. Analitiklər hesab edirlər ki, Avropa liderlərinin vəziyyəti dəyişə biləcək təkliflər hazırlamasının vaxtı çatıb. Yaşıl keçidin xərcləri və riskləri, Ukraynaya dəstək və ya beynəlxalq münasibətlərdə riskləri azaltmaq yollarını müzakirə etmək əvəzinə, iqtisadi və təhlükəsizlik ehtiyaclarının daha aydın mənzərəsini ifadə etməyə dəyər, çünki bunlar seçiciləri narahat edən əsas səhələrdir.

Növbəti 5 il üçün seçiləcək Aİ liderləri avropalıların tələblərini qarşılamaq üçün həll yolları tapmalıdırlar. Bu isə dövlət xərclərinin artırılması və buna görə də büdcə və maliyyə intizamını yaxşılaşdırmaq üçün tətbiq edilən keçmiş illərin Aİ qaydalarına və siyasətlərinə yenidən baxılmasını tələb edir. Buna nail olmasalar, Avropanın sağa dönüşü qaçılmaz olacaq.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Türkiyədə bələdiyyə seçkiləri: demokratiyanın daha bir qələbəsi



**Martın 31-də Türkiyə Cümhuriyyətinin bütün ərazisində bələdiyyə seçkiləri keçirilib. Seçicilərin böyük qisminin qatıldığı seçkilər qardaş ölkədə demokratiyanın təntənəsi kimi qəbul edilir. Türkiyə yeni bir çətin imtahanı arxada qoydu. 34 partiyanın təmsilçiləri və müstəqil nümayəndələr bu gərgin yarışda yer aldılar.**

Vətəndaşlar ölkənin 30-u böyük şəhər olmaqla, 81 vilayət, 973 rayon və 390 qəsəbəsində bələdiyyə şuralarının başçıları və tərkibini, həmçinin 50 min 336 kənd və məhəllə rəhbərini seçmək üçün səs veriblər.

Türkiyə Yüksək Seçki Komissiyasının sədri Əhməd Yenər yayım qadağasının qaldırılması ilə bağlı açıqlamasında seçkilərin çox böyük uğurla, şəffaf və xalqın və Türkiyə dövlətinin adına yaraşan səviyyədə, beynəlxalq demokratik normalara uyğun şəkildə keçirildiyini qeyd etdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu günə qədər nümayiş etdirdiyi liderlik keyfiyyətini Ankarada meydana toplanan insanlara müraciətində bir daha təkrar etdi. Dedi ki, millət iradəsini sandıqda ifadə etmişdir, bu seçimin mizədlər ilk açıqlamalarında bu seçkilərin xalqın iradəsinin ifadəsi kimi hər cür hörmətə layiq olduğunu vurğuladılar.

2024-cü il bələdiyyə seçkilərinin ilk nəticələrini şərh edən analitiklər də belə bir fikri qeyd edirlər ki, bu seçkilərin qazananı Türkiyə dövləti və onun yerli idarə orqanları, dövlət institutlarıdır. Əlbəttə, bu seçkidə İstanbul, Ankara, İzmir, Bursa, Antalya, Adana kimi böyük, o cümlədən zəlzələ zonasındakı şəhərlərdən gələn nəticələr xüsusi maraq doğurdu.

Keçən ilin fevralında dağıdıcı zəlzələ nəticəsində yerlə-yeksan olmuş vilayətlərdə, əsasən, "Cumhur İttifaqı"nın namizədlərinin qazanması da zərərçəkmişlərin iqtidara, R.T.Ərdoğan hakimiyyətinə inamının ifadəsidir. İstan-



qalibi demokratiyadır, milli iradədir. Bu seçimləri hər hansı bir partiya deyil, türk milləti qazanmışdır. Prezident nəticələrin hər bir vətəndaş tərəfindən qəbul edilməsini də Türkiyə demokratiyasının, 85 milyonluq ölkə əhalisinin qazancı adlandırdı. Dövlət başçısı son 22 ildə keçirilən 18-ci seçkidən sonra ilk dəfə ikinci olaraq çıxan partiyasının önəmli dərs aldığını və nəticələrin təhlil edilərək yeni bir strategiyanın müəyyənləşdiriləcəyini bildirdi.

Seçkini ilk sırada başa vuran CHP sədri Özgür Özəl İstanbul, Ankara, İzmir, Bursa, Antalya, Adana kimi böyük şəhərlərdə qələbələrini "Bu zəfər başqa birinin məğlubiyyəti deyildir" – deyə ifadə etmişdir. Bu seçkilərdə Türkiyənin bir çox yerlərində bələdiyyə başqanlığını qazanan MHP, YRP, İYİ partiya, DEM və başqa siyasi təşkilatlar da seçkiləri Türkiyə xalqının azad iradəsinin təcəssümü olaraq dəyərləndirdilər.

Seçkilərdə qalib və məğlub olmasından asılı olmayaraq, bütün nabul Şəhər Böyük Bələdiyyəsinin sədri Əkrəm İmamoğlunun İstanbulda, Mansur Yavaşın Ankarada yenidən bələdiyyə sədrliklərini qoruyub saxlamaları Türkiyənin gələcək siyasətinə təsirsiz qalmayacaq.

Bu seçkilər həm də 4 il sonra keçiriləcək parlament və prezident seçkiləri üçün baş məşq oldu. Lakin iqtidar gələcəkdə mövqelərini itirmək fikrində deyil. Prezident Ərdoğanın vurğuladığı kimi, indidən təhlillər, dəyərləndirmələr aparılacaq, buraxılan səhvlərin aradan qaldırılması üçün müəyyən addımlar atılacaq, dərslər çıxarılacaq.

Türkiyədə bu seçki atmosferinə kölgə salacaq heç bir problem yaşanmadı və qardaş ölkə qarşısına qoyduğu "Türkiyə yüz ili" vizyonunu davam etdirmək üçün mühüm bir tədbiri arxada qoydu. Qardaş ölkəyə xeyirli-uğurlu olsun.

***Qafar ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

pirotexniki vasitələrin satın alınması məqsədilə ikimərhələli

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 8-i saat 17.00-dəkdir.
Əlaqə telefonu– (012) 404-37-00, daxili–1016.
Ünvan– AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

## "Nərimanov Sənayetikinti" ASC səhmdarlarının nəzərinə!

16 may 2024-cü il saat 10.30-da "Nərimanov Sənayetikinti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.
Gündəlikdəki məsələlər:
1. Cəmiyyətin direktorunun illik hesabatı.
2. Cəmiyyətin 2023-cü il üzrə maliyyə -təsərrüfat fəaliyyətinin hesabatlarının müzakirəsi və təsdiqi.
Əlaqə telefonu-496-94-68.
Ünvan-Az 1008, Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi 22.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 67 (30471) 2 aprel 2024-cü il, çərşənbə axşamı

## İdman

### "Böyük dəbilqə"də 2 cüdo mükafatı

**Azərbaycan cüdoçuları Türkiyənin Antalya şəhərində keçirilən "Böyük dəbilqə" turnirini 2 medalla başa vurublar.**



Komandamızın aktivinə medalları 90 kiloqram çəki dərəcəsində çıxış edən Vüqar Talıbov və Rəşid Məmmədəliyev (73 kq) qazandırıblar.

Qeyd edək ki, Azərbaycan turnirdə 9 cüdoçu ilə təmsil olunub.

### Qran-Pri yarışında qızıl medal

**Azərbaycan bədii gimnastları Fransanın Tiye şəhərində keçirilən 35-ci beynəlxalq Qran-Pri yarışında qızıl medal qazanıblar.**




Qrup hərəkətləri üzrə millinin üzvləri Güllü Ağalarzadə, Kamilla Əliyeva, Yelizaveta Luzan, Darya Sorokina, Ləman Əlimuradova və Zeynəb Hümmətova fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Onlar 5 halqa ilə hərəkətlərin icrasında buna nail olublar.

### Dünya reytinqi: Şəhriyar Məmmədyarov irəliləyib

**Beynəlxalq Şahmat Federasiyasının (FIDE) bu ay üçün reytinq cədvəlində Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov iki pillə irəliləyərək 2733 xalla 17-ci sıraya yüksəlib.**



Teymur Rəcəbov isə 2723 xalla 28-ci, Rauf Məmmədov 2651 xalla 85-ci yerdədirlər. Nicat Abasov isə ilk "100-lük"də yer almayıb.

Qadın şahmatçılardan isə Günay Məmmədzadə 2436 xalla 34-cü, Gövhər Beydullayeva 2402 xalla 46-cı, Ülviyyə Fətəliyeva 2377 xalla 72-ci, Xanım Balacayeva 2371 xalla 77-ci, Gülnar Məmmədova 2352 xalla 99-cu pillədə qərarlaşıblar.

Siyahıya 2830 xalla norveçli Maqnus Karlsen başçılıq edir. Qadınlar arasında isə çinli Yifan Hou 2632 xalla liderdir.

*Leyla SABİRQIZI*
*XQ*

## Folklor örnəklərimiz

# "Ay lolo, yar düymələri mərcan"

## Lənkəranlı "Nənələr"in şöhrət çələngi

**İlk misrasını yazıya başlıq seçdiyimiz mahnı ilə kənd toyunda debüt edən Lənkəranın məşhur "Nənələr" folklor qrupu artıq bütün Şərq aləmində tanınan kollektivdir. Şən, qıvraq nənələrlə hər görüş gözəl bir xatirəyə çevrilir. Bu dəfə də belə oldu. Qavallarını çala-çala səs-səsə verib oxudular, deyib-güldülər, maraqlı söhbətlər etdilər.**

**İlk olaraq ünsiyyətcil Gülbəzək Kərimova sözə başladı:**

– 2005-ci ildə qayınanam rəhmətə gedəndən sonra mən bu qrupa daxil olmuşam. Onu əvəz eləmişəm. Qrupun yaşı çoxdur. Biz hələ uşaq olanda ifaçılar 4 nəfərdən ibarət idi: Gülbacı, Ağabacı, Xanımbacı və Qızbəs. Gözəl oxuyub-çalan ata-analarından öyrəniblər. Böyükləri mənim anam olub. Onun anası – mənim nənəm gözəl qaval çalırmış. Elə gözəl səsi olub ki! Ağlımız kəsməyib ki, dediyi bayatıları, zümzümələri, mahnıları cızmaqara edib saxlayaq. Babam da, nənəm də həm türkcə, həm də talışca oxuyublar.

Qrupun ifasında 100-ə qədər mahnı və bayatı səslənib. Vaxtilə Lənkəranda mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışan Şövkət xanım nənəmgillə qohum olub.Toyda qızların ifalarını dinləyərək xəzinə adlandırıb və onları qabağa çəkib. Deyib ki, xəzinə xalqa tanıdılmalıdır. Əvvəlcə adları "Bacılar" olub. Ulu öndər Heydər Əliyev 1997-ci ildə Lənkərana gələndə onları görüncə "Nənələr" deyə müraciət edib: "Bunlar bizim nənələrimizdir, ağbirçəklərimizdir", – deyib. Beləcə, qrupun adı "Nənələr" olub.

"Nənələr" tez-tez festivallara, el bayramlarına dəvət olunur, maraqlı çıxışlar edirlər. Xaricdən gələn qonaqların da qarşısında məharətlərini göstəriblər, xarici ölkələrə səs salan səfərlərdə də olublar.

**Qrupun veteranı – ağbirçək üzvü Xanımbacı Quliyeva:**

– Qrup kimi fəaliyyətə biz bacılar başlamışıq. Bircə qavalımız vardı, ona və bir də səsimizə güvənirdik. Anamız qoyun-keçi dərisindən daha bir neçə qaval düzəltdi bizə. Axşamlar uşaqları evimizə yığıb məşq edirdik, çalıb-oynayırdıq. Tədricən məclislərə çağrıldıq. Biz tərəflərdə çalğıçılar, aşıqlar yox idi deyə, toylara biz rövnəq verirdik. Məşhur "Lənkəran" mahnısını ilk dəfə avazla xorda oxuyanda 3-cü sinif şagirdi idim. 50 yaşımda pensiyaya çıxandan sonra da mən elə bu qrupda qalmışam.

Bir qədər xəyala dalıb avazla davam elədi:

*Lənkəran dağlarında indi də qar var,*
*Çiçəkli bağlarında heyva var, nar var.*

Ardınca isə musiqi sədaları altında o biri bacıları onun səsinə səs verdilər:

*Yüklənir paraxoda ətirli çayımız,*
*Günü-gündən xoş keçir ilimiz, ayımız...*



**Rübabə Kərimova:**

– Mənim nənəm bu nənələrin böyük bacısı olub. Dünyasını dəyişən nənələri qızları, gəlinləri əvəz edib. Estafeti nəsil-nəsil davam etdiririk. Mədəniyyət Nazirliyi tərəfindən bizə "Xalq kollektivi" adı verilib. Bax, biz 3 gəlin bir qayınananın gəlinləriyik.

**Şərəf Məmmədova:**

– Bizim bu geyimlərimiz sırf talış libaslarıdır. Bu geyimlərimizlə, deyimlərimizlə məclisləri bəzəməkdən məmnun oluruq.

Qeyd edək ki, bir neçə il əvvəl Lənkəran şəhərinin "Azərbaycanın folklor paytaxtı" elan edilməsiini əsas səbəbkarları, elə bu "Nənələr" olub. O zaman ağbirçəklərlə doğma kəndləri Separadidə görüşəndə biri mənə maraqlı söhbət etdi. Dedi ki, ötən əsrin əvvəllərində Qori seminariyasını yenicə bitirən, sonralar görkəmli bəstəkar olan Müslüm Maqomayev bir müddət Lənkəranda dərs deyib. O, şagirdlərinə bayatı və nəğmələr topladar, mahnıları xorla oxumağı öyrədərdi. Bir dəfə lənkəranlı dostlarından biri ondan soruşub:

– Müslüm müəllim, neçə ildir çəltik zəmilərində oxuyan qızlardan, qadınlardan nəğmələr toplayırsan. Bəs, bu nəğmələr yığılıb qurtarmadımı?

Müslüm Maqomayev cavab verib:

– Nə dəryada balıq qurtarar, nə də Talışda nəğmə...

Doğrudan da, belədir. Hamının maraqla dinləyib zövq aldığı "Yaxşı bəzək vurun bizim gəlinə", "Göndərin, hamama göndərin", "Əllərə xına yaxarlar", "A nimtənə, nimtənə", "Kinəlim", "Ağ alma, qızıl alma", "Ağlama, ceyran balası, ağlama", "Yar gəldi", "Lampanı yanar qoydum" kimi el nəğmələri məhz Lənkəranın folklor bulağından süzülüb gələnlərdir.

*İki gəmi gəlir Lənkəran üstə,*
*Birində şabalıd, birində püstə...*
*("Ay dili-dili")*

İndi artıq "Nənələr"i əvəz edəcək "Nəvələr" də var. Deməli, bu bulaq hələ çox çağlayacaq.

*Əli NƏCƏFXANLI*
*XQ*

## 2024-cü il Yaşıl dünya naminə həmrəylik ilidir

# Gül-çiçəklə təravətlənən Gəncə...

**Gəncədə "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı əhatəli işlər görülür. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar il ərzində müxtəlif aksiyaların keçirilməsi nəzərdə tutulur. Bunlardan biri də şəhərin müxtəlif ərazilərindəki yaşıllıq zolaqlarına, park və xiyabanlarına, yol kənarlarına dekorativ ağac və kollar, güllər əkilməsidir.**



Gəncə Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin Yaşıllaşdırma şöbəsinin gülçülük sahəsində qurulan müasir istixanalarda müxtəlif növ ağaclar, kollar və gül-çiçəklər yetişdirilir. Toxumdan əldə olunan şitillər kök verəndən sonra torfla qarışıq münbit torpaqlı qablara əkilir, daha sonra geniş ərazilərə köçürülür.

Cari ilin əvvəlindən başlayaraq şəhərin Heydər Əliyev və Şah İsmayıl Xətai prospektlərində yerləşən dairələrdə, Cavad xan küçəsində, Nizami Gəncəvi prospektindəki yaşıllıq zolaqlarında, Gəncəçay Park-Bulvar Kompleksində, "Qala qapıları" Arxeologiya və Etnoqrafiya Muzeyinin qarşısında, "Xan bağı" istirahət parkında və digər ərazilərdə yeni yaşıllıqlar salınıb, təzə güllərin əkilməsi həyata keçirilib.

Gəncə şəhərini al-əlvan rəngə boyayan, sakinlərin və şəhərimizin qonaqlarının əhvalına müsbət təsir göstərən belə aksiyalar bundan sonra da davam etdiriləcək.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri,*
Gəncə

## Hava

# Yağmursuz və dumanlı



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 2-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub-şərq küləyi əsəcək.**

Gecə 6-11°, gündüz 14-19° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 764 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-75 , gündüz 55-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağıntılı olacağı, ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 20-25°, dağlarda gecə 1-6°, gündüz 10-15° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## Sənət inciləri

# "Xanım sincab ilə"

***"Xanım sincab ilə" məşhur rəssam Leonardo da Vinçinin "Mona Liza", "Cinevra de Bençinin portreti" və "Gözəl Ferronyera" ilə yanaşı, dörd qadın portretindən biridir.***

Bir çoxları hesab edir ki, tabloda əks olunan obraz Milan hersoqu Lüdoviko Sforsun sevdiyi qadın Sisilya Qalleranidir. Sonralar belə bir ehtimal da meydana çıxdı ki, həmin qadın rəssamın başqa bir portretində - "Gözəl Ferronyera" əsərində də təsvir edilib. Tablonun çox sevilməsinin səbəbi kimi, sincabın təsviri göstərilir. Ağ yumşaq xəz dərisinə görə sincab təmizlik rəmzi hesab edilirdi. Digər tərəfdən, sincabın Lüdoviko Sforsla da əlaqəsi ola bilər. 1488-ci ildən Neopolitan I Ferdinandı Sincab Ordeninin üzvü idi və sincab təsvirini şəxsi embleminə də daxil etmişdir.

Tablonun işlənmə texnikasına gəldikdə isə, deyə bilərik ki, rəsm yağlı və əsasən isti boyalarla çəkilib. Qadının əynindəki qırmızı və yaşıl çalarlı, zövqlə işlənmiş geyimini isə yalnız qara muncuqlardan ibarət olan zərif boyunbağı tamamlaya bilərdi. Rəssam da bunu məharətlə öz əsərində təsvir edib. Tablo hazırda Polşadakı Çartorıyski muzeyində qorunub saxlanılır.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin fəlsəfə və ictimai elmlər kafedrasının dosenti Aida Rəcəbovaya və Azərbaycan dilçiliyi kafedrasının dosenti Səidə Qafarovaya anaları

**TİNATİN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3867
SİFARİŞ 709
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00